Xalqın qəzeti!

# Xalq qəzeti

№ 32 (31001) 19 fevral 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dünya üçün mədəni və dini müxtəliflik nümunəsidir

## Prezident İlham Əliyev Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru və digər rəhbər heyəti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.**

Fevralın 18-də dövlətimizin başçısı Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşüb.

*(ardı 2-ci səhifədə)*

## Qambiya Respublikasının Prezidenti Zati-aliləri cənab Adama Barrouya

**Hörmətli cənab Prezident!**

Qambiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Qambiya arasında sağlam təməllər üzərində qurulmuş münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar və platformalar çərçivəsində səmərəli əməkdaşlığı xüsusi qeyd etmək istərdim.

İnanıram ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli qaydada əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi təbriklərimi çatdırır, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Qambiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 fevral 2026-cı il**

## Rəqəmsal inkişaf və çağdaş insan kapitalı

*Məqsəd əhalinin 65 faizinin texnoloji bacarıqlara yiyələnməsidir*



**Müasir dünyada süni intellektin geniş tətbiqi, data mərkəzlərinin qurulması və rəqəmsallaşma istiqamətində aparılan islahatlar dövlətlərin gələcək inkişafını müəyyən edən əsas amillərdən birinə çevrilib. Artıq rəqəmsal transformasiya təkcə texnologiya sahəsi ilə məhdudlaşmır, iqtisadiyyatın rəqabət qabiliyyətinə, idarəetmənin səmərəliliyinə, təhlükəsizlik və sosial xidmətlərin keyfiyyətinə birbaşa təsir göstərir. Bu proseslər, demək olar ki, qlobal miqyasda yeni inkişaf trendi kimi formalaşıb.**

*(ardı 8-ci səhifədə)*

## Macarıstanın sivil seçimi




Səhifə ⇨ 3

## Azərbaycan–BƏƏ iqtisadi tərəfdaşlığının strateji hədəfləri



Səhifə ⇨ 7

## "Qoca qitə" rəqəmsal suverenlik axtarışında



Səhifə ⇨ 4

## Cenevrə prosesi Ukraynaya sülh gətirəcəkmi?



Səhifə ⇨ 5

## Mənzil təsərrüfatında "amnistiya"



Səhifə ⇨ 8

# Ankara və İrəvan da ticarətə başlayır

*Münasibətlərdə normallaşma Bakının maraqlarına uyğun aparılır*

**Türkiyə və Ermənistan arasında birbaşa quru yolu ilə ticarətin başlanması barədə əldə olunmuş razılaşma Cənubi Qafqazın postmüharibə mərhələsində formalaşan yeni siyasi-iqtisadi arxitekturanın tərkib hissəsidir. Ankara və İrəvan Gürcüstan üzərindən həyata keçirilən ticarətdə "kvazi-reeksport" mexanizmini aradan qaldıraraq yüklərin ilkin ixrac statusunu bütün marşrut boyu saxlamasına imkan verən yeni texniki rejim üzərində razılaşıblar. Bu model sərhədin formal olaraq açılmasını tələb etmədən, faktiki olaraq, birbaşa ikitərəfli ticarətə keçidi təmin edir.**




Məlum olduğu kimi, iki ölkə arasında sərhəd 1993-cü ildə bağlanıb və rəsmi diplomatik münasibətlər qurulmayıb. Bu qərar Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi fonunda qəbul edilmişdi. Sonrakı illərdə münasibətlərin normallaşdırılması üçün cəhdlər olsa da (məsələn, 2009-cu il Sürix protokolları), proses davamlı siyasi iradəyə çevrilmədi. 2020-ci il müharibəsindən sonrakı dövrdə regional konfiqurasiya dəyişdi. 2022-ci ildən sonra isə tərəflər xüsusi nümayəndələr institutu vasitəsilə danışıqlara başladılar.

*(ardı 4-cü səhifədə)*

# Rusiyanın dostları və dost olmayanlar

Səhifə ⇨ 6

# Asiyadan Avropaya, oradan da Amerikaya...



Səhifə ⇨ 3

## Astana Cənubi Qafqazda sülh prosesini dəstəkləyir

*Bakı–İrəvan əlaqələrinin yaxşılaşması Xəzərətrafı region üçün də üstün imkanlar açır*

**Ermənistan Təhlükəsizlik Şurasının (TŞ) katibi Armen Qriqoryan fevralın 17-də Qazaxıstanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Bolat İmanbayevlə görüşüb. "Armenpress"in Ermənistan TŞ ofisinin yaydığı məlumatına istinadən verdiyi xəbərə görə, tərəflər Ermənistan–Qazaxıstan ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri müzakirə edib, əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üçün yeni imkan və istiqamətləri xüsusi vurğulayıblar.**

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyev Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru və digər rəhbər heyəti ilə görüşüb



*(əvvəli 1-ci səhifədə)*

Söhbət zamanı Amerika İsrail İctimai Əlaqələr Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin bir ailə kimi sülh və mehribanlıq şəraitində yaşadıqlarını, bunun dünya üçün nümunə olduğunu deyən Elliot Brandt ölkəmizdə yəhudi icmasına dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğuladı, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu dedi.

Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirildi.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunuldu, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulandı.

Bir müddət əvvəl Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə uğurlu səfərinə və "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Bu Xartiyada ölkələrimiz arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, süni intellekt və rəqəmsal transformasiya məsələlərinin də prioritet istiqamətlər kimi müəyyən edildiyi qeyd olundu.

Amerika İsrail İctimai Əlaqələr Komitəsinin Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsində rolu vurğulandı.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# N.Ə.Həsənzadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 fevral 2026-cı il**

# Xalq şairi Nəriman Həsənzadəyə

**Hörmətli Nəriman Həsənzadə!**

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 95 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayırıq.

Siz milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalaraq, özünəməxsus ifadə tərzi və dəst-xəttinizlə xalqımızın poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmiş söz ustasısınız. Ötən əsrin 50-ci illərində poeziya aləminə qədəm qoyduğunuz ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirərək, geniş oxucu auditoriyasının xüsusi rəğbətini qazanmısınız.

Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləriniz Sizi həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərinizdə müasirlərimizin hiss və düşüncələri öz dolğun bədii ifadəsini tapmışdır. Xalqın yaddaşının poeziyadakı əksi olan poema və mənzum pyeslərinizdə keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətləri tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik ruhunda canlandırmısınız. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur.

Ədəbi şəxsiyyətinizlə vəhdətdə alim, pedaqoq və ictimai xadim kimi səmərəli fəaliyyətiniz Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir.

İnanırıq ki, milli məfkurəyə sədaqət və mənəvi saflıq aşılayan yaradıcılığınız gənc nəslin milli mənlik şüurunun formalaşmasında bundan sonra da əhəmiyyətli rol oynayacaqdır.

**Ən xoş arzularla,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

**Bakı şəhəri, 18 fevral 2026-cı il**

# Birinci vitse-prezident Mehriban Əliyevanın Ramazan ayı münasibətilə paylaşımı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir:**

*"Ramazan ayınız mübarək!*

*Bütün dünya müsəlmanlarını Ramazan ayının başlanması münasibətilə təbrik edir, Allahdan hər kəsin dua və orucunun qəbul olunmasını diləyirəm".*




# "Amnesty International"ın erməniəsilli şəxslər barədə yaydığı açıqlama tamamilə əsassızdır

**Fevralın 17-də "Amnesty International" təşkilatı Azərbaycan məhkəməsinin erməniəsilli şəxslər barədə çıxardığı hökm barədə tamamilə əsassız, böhtan xarakterli açıqlama yayıb.**

Bu sözlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin bildirilib: "Amnesty International" özünün kağız üstündə bəyan etdiyi nəcib dəyərlərə xəyanət edərək işğalçının - etnik təmizləmə, bir həftə sonra 34-cü ildönümü anılacaq Xocalı soyqırımını törədən canilərin yanında olduğunu, insan haqlarına, insan iztirablarına, humanitar fəlakətlərə yalnız siyasi prizmadan yanaşdığını nümayiş etdirib".

***XQ***

# Müstəmləkəçiliyi əks etdirən dünyada ilk Virtual Muzey



**Fevralın 18-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin təqdimatı olub.**

BTQ-nin icraçı direktoru Abbas Abbasov, antropoloq, "QaraSivilizasiya" Muzeyinin İdarə Heyətinin üzvü və "L'Africaine d'Architecture" platformasının təsisçisi Sename Kofi Aqbodjinu, eləcə də dekolonial tədqiqatlar üzrə multidisiplinar araşdırmaçı, "QaraSivilizasiya" Muzeyinin kuratoru Natali Elizabet Mba Bikoro Virtual Muzey haqqında ətraflı məlumat verərək iştirakçıların suallarını cavablandırıblar.

Qeyd olunub ki, layihənin əsas məqsədi müstəmləkə sisteminin təsirlərinə dair arxiv sənədlərini, foto və videomaterialları, eksponatları və digər vizual mənbələri ictimaiyyətə interaktiv formada təqdim etməkdir.




İngilis və fransız dillərində fəaliyyət göstərəcək muzey müstəmləkəçiliyi və onun müasir təzahürlərini tarixi, hüquqi, iqtisadi, sosial, mədəni və ekoloji aspektlərdə sistemli şəkildə əks etdirən rəqəmsal məlumat bazası olacaq.

Bakı Təşəbbüs Qrupu tərəfindən ərsəyə gətirilmiş Virtual Muzey dünyada müstəmləkəçiliyə və onun yeni təzahürlərinə həsr edilmiş ilk virtual platformadır.

# Minaya düşən ANAMA əməkdaşının vəziyyəti qənaətbəxşdir

**Fevralın 18-də işğaldan azad edilmiş Xocalı rayonunun Muxtar kəndi ərazisində ANAMA-nın əməkdaşı, 2000-ci il təvəllüdlü Çobanov Vasif Fizuli oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyadaəleyhinə mina partlayışı baş verib.**

Hadisə nəticəsində əməkdaş sol əlindən və üz nahiyəsindən müxtəlif xəsarətlər alıb.

V.Çobanova bədəninin müxtəlif nahiyələrinin qəlpə yarası diaqnozu təyin olunub və zəruri tibbi yardım göstərilib. Vəziyyəti qənaətbəxşdir, həyati təhlükəsi yoxdur.

# Elm və Təhsil Nazirliyinin ICESCO ilə gələcək əməkdaşlıq müzakirəsi



**Elm və təhsil naziri Emin Əmrullayev İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin dəvəti ilə ICESCO-nun Rabat şəhərində yerləşən Baş qərargahında olub.**

Emin Əmrullayev təşkilatın Baş qərargahı ilə tanış olub, daha sonra ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.

Görüş zamanı iki qurum arasında mövcud əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyət və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# İstanbulda Azərbaycanın XVII-XVIII əsrlərə aid saray xalçalarının sərgisi açılıb



**İstanbulun Türk və İslam Əsərləri Muzeyində Azərbaycanın XVII-XVIII əsrlərə aid saray xalçalarının sərgisi açılıb.**

"Təsəvvüfdən biçimə: Toxuma sənətində müqəddəs həndəsə" mövzusunda açılan sərgidə ABŞ vətəndaşı Əmir Oskoueinin şəxsi kolleksiyasından 18 unikal xalça və bədii tikmə nümayiş olunur.

Sənət əsərləri sırasında dünyada məşhur "Əfşan", "Qoca", "Xətai" ("Əjdahalı") kompozisiyalı saray xalıları da yer alır.

Sərginin açılış mərasimində Türkiyənin dövlət rəsmiləri, Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Əmir Oskouei və sənətsevərlər iştirak ediblər.

Mərasimdə çıxış edənlər Azərbaycan-Türkiyə birliyi, Vətən müharibəsi nəticəsində əldə edilən şanlı Zəfər, sülh sazişinə gedən yol haqqında danışıb, bu kimi tədbirlərin Azərbaycan mədəniyyətinin daha geniş ictimaiyyətə çatdırılmasının əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, sərgi 2026-cı il martın 25-dək davam edəcək.

# Mədəniyyət nazirinin Qaxda vətəndaş qəbulu



**Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu fevralın 18-də Qaxda keçirilib.**

Rayonun Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Şəki, Qax, Oğuz, Qəbələ, Zaqatala və Balakən rayonlarından olan vətəndaşlar müraciətlərini diqqətə çatdırıblar. Sakinlərin müraciətləri, əsasən, iş yerinin dəyişdirilməsi, mədəniyyət sahəsi ilə bağlı layihə və təşəbbüslər, məşğulluq və digər məsələlərlə bağlı olub.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyib, qeyd olunan hər bir məsələnin operativ araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq addımlar atılacağını deyib. Qəbulda şəhid ailələri və qazilər tərəfindən qaldırılan məsələlərə xüsusi diqqətlə yanaşılması və obyektiv baxılması ilə bağlı tapşırıqlar verilib.

***XQ***

# Asiyadan Avropaya, oradan da Amerikaya...

## *Azərbaycanın diplomatik coğrafiyasında son "uçuş trayektoriyası"*

**Son bir həftənin diplomatik xronikası Azərbaycanın xarici siyasət kursunun miqyasını, ritmini və prioritetlərini göstərən strateji xəritədir. Bakıdan Münxenə, Belqraddan Vaşinqtona uzanan diplomatik coğrafiya bir daha nümayiş etdirir ki, Azərbaycan bölgədən qitəyə, qitədən isə qlobal siyasi müzakirələrin mərkəzinə doğru hərəkət edən sistemli oyunçudur. Prosesin əsas xətti isə çoxvektorlu, balanslaşdırılmış və eyni zamanda, suveren maraqlara əsaslanan diplomatiyadır.**



Bakı–Vaşinqton xəttində son dinamika geosiyasi reallıqların yenidən tənzimlənməsidir. ABŞ siyasi elitasının yüksək səviyyəli nümayəndəsi Vensin Bakı səfəri Vaşinqtonun Cənubi Qafqaza baxışında baş verən strateji korrektənin göstəricisi kimi dəyərləndirilməlidir. Ukrayna müharibəsi fonunda dəyişən Avropa təhlükəsizlik sistemi, enerji marşrutlarının siyasiləşməsi və Çin–Avropa xəttində alternativ nəqliyyat platformalarının aktuallaşması ABŞ-ı regiona yenidən baxmağa məcbur edib.

Vaşinqton üçün Azərbaycan artıq qlobal enerji təhlükəsizliyinin şaxələndirilməsində sistemli rol oynayan aktordur və bu rol xüsusilə Avropanın Rusiya qazından asılılığını azaltmaq cəhdləri fonunda daha strateji məzmun qazanıb. Cənub Qaz Dəhlizi artıq kommersiya layihəsi çərçivəsini aşaraq siyasi təhlükəsizlik mexanizminə çevrilib. ABŞ üçün bütün bunlar həm Avropa müttəfiqlərinin sabitliyi, həm də trans-Atlantik həmrəyliyin qorunması baxımından əhəmiyyətlidir. Bununla yanaşı, Orta Dəhliz faktorunun önə çıxması Vaşinqtonun diqqətini Cənubi Qafqaza yönəldən əsas amillərdəndir. Çin–Avropa ticarət xəritəsində alternativ marşrutların formalaşması qlobal güclər arasında nəqliyyat və logistika üzərində rəqabəti dərinləşdirir. Ağ Ev üçün Bakı ilə əməkdaşlıq Avrasiyada iqtisadi və strateji balansın qorunması deməkdir.

Postmünaqişə mərhələsində formalaşan yeni reallıq isə münasibətlərə əlavə ölçü gətirir. Azərbaycan Cənubi Qafqazda təhlükəsizlik arxitekturasını artıq faktiki olaraq dəyişib. Bir tərəfdən regionda yeni status-kvonun davamlılığı, digər tərəfdən isə sülh prosesinin hansı siyasi çərçivədə inkişaf edəcəyi məsələsi Vaşinqton üçün əhəmiyyətlidir. Lakin diqqətçəkən məqam ondan ibarətdir ki, bu dialoq əvvəlki illərdəki kimi vasitəçilik üstünlüyü üzərində qurulmur. Azərbaycan artıq regional gündəliyi müəyyənləşdirən tərəf kimi çıxış edir.

Əslində, burada daha dərin transformasiya müşahidə olunur. Əvvəllər region ölkələri qlobal güclər arasında seçim dilemması ilə üzləşirdisə, indi Bakı balans siyasəti yürüdür. ABŞ Azərbaycanı enerji, nəqliyyat və təhlükəsizlik baxımından əvəzolunmaz aktor kimi qəbul etdikcə, münasibətlərdə ton dəyişir. Tərəflər arasında dialoq himayədarlıq modelindən strateji qarşılıqlılıq modelinə keçir. Bakı–Vaşinqton xəttinin geosiyasi oxunuşu göstərir ki, Azərbaycanın artan diplomatik çəkisi artıq regional çərçivəni aşır. ABŞ-ın regiona dönüşü nə qədər qlobal rəqabətin məhsuludursa, Azərbaycanın güclənən mövqeyi də bir o qədər suveren siyasətin nəticəsidir.

***

Münxen Təhlükəsizlik Konfransına gəldikdə isə, burada gələcək siyasi xətlərin konturları cızılır. Münxen tribunası Qərbin siyasi, hərbi və analitik elitasının cəmləşdiyi məkandır. Burada səslənən tezislər sonradan Avropa İttifaqının qərarlarına, NATO-nun strategiyasına və trans-Atlantik münasibətlərin prioritetlərinə təsir göstərir. Azərbaycanın bu platformada iştirakı onu göstərir ki, Bakı daha geniş təhlükəsizlik gündəliyinə töhfə verən aktor kimi qəbul edilir.

Azərbaycanın Münxendə verdiyi əsas mesaj geosiyasi baxımdan prinsipialdır: Cənubi Qafqazın təhlükəsizlik modeli kənardan ixrac edilə bilməz. Region uzun illər xarici güclərin rəqabət meydanına çevrilmişdi və bu rəqabət sabitlik gətirmədi. Postmüharibə mərhələsində formalaşan yeni reallıq isə göstərir ki, davamlı təhlükəsizlik yalnız regional aktorların məsuliyyəti və siyasi iradəsi ilə mümkündür.

Konfransın digər mühüm tərəfi isə birbaşa strateji dialoq imkanlarıdır. Münxen qapalı və açıq formatlarda keçirilən görüşlərlə qeyri-rəsmi diplomatiyanın ən effektiv məkanlarından biridir. Azərbaycan üçün bunlar, əlbəttə ki, Qərb siyasi elitası ilə vasitəçilərsiz təmas qurmaq, mövqeyini izah etmək və formalaşan narrativlərə təsir etmək imkanı yaradır. Digər mühüm məqam Azərbaycanın sülh təşəbbüslərinin beynəlxalq legitimliyinin genişlənməsidir. Münxendə səsləndirilən mövqelər qlobal auditoriyaya ünvanlanır və beynəlxalq rəyin formalaşmasına təsir göstərir.

***

Belqrad xətti isə Azərbaycanın Avropa siyasətində daha yeni bir mərhələnin göstəricisidir. Serbiyaya Prezident İlham Əliyevin rəsmi səfəri geniş geosiyasi konfiqurasiyada dəyərləndirilməlidir. Serbiya Avropa məkanında özünəməxsus mövqeyə malikdir. O, həm Avropa İttifaqı ilə inteqrasiya prosesindədir, həm də milli maraqlarını qorumaq xəttini açıq şəkildə nümayiş etdirir. Azərbaycan üçün Belqradla yaxınlaşma Avropada alternativ siyasi dialoq platformasının formalaşdırılması deməkdir. Belqrad–Bakı xətti Avropa daxilində balans yaradan mexanizm kimi çıxış edir. Xüsusilə son illər Avropa institutlarında Azərbaycanla bağlı müzakirələrin bəzən



siyasi təzyiq elementləri ilə müşayiət olunması fonunda, Serbiya kimi tərəfdaşlarla sıx koordinasiya diplomatik manevr imkanlarını genişləndirir.

Enerji əməkdaşlığı bu münasibətlərin əsas sütunlarından biridir. Azərbaycan qazının Balkanlara çıxışı regionun enerji xəritəsinin yenidən qurulması prosesidir. Serbiya üçün enerji təhlükəsizliyi milli təhlükəsizlik məsələsidir və bu kontekstdə Azərbaycan etibarlı tərəfdaş kimi qəbul olunur. Bakı isə Balkan istiqamətini genişləndirməklə Avropa bazarında mövqeyini daha da şaxələndirir. Lakin münasibətlərin daha dərin təbəqəsi siyasi qarşılıqlı dəstək müstəvisindədir. Həm Azərbaycan, həm də Serbiya beynəlxalq hüququn fundamental prinsiplərinə – suverenlik və ərazi bütövlüyünə – xüsusi həssaslıqla yanaşır. Belə ortaq yanaşma ikitərəfli münasibətləri normativ əsas üzərində möhkəmləndirir.

Azərbaycanın Avropa siyasətində müşahidə olunan transformasiya məhz burada özünü göstərir. Bakı artıq münasibətləri Brüssel institutları ilə məhdudlaşdırmır, paralel diplomatik kanallar qurur, regional paytaxtlarla birbaşa əlaqələri gücləndirir və çoxkanallı təsir mexanizmi formalaşdırır.

***

Müasir beynəlxalq sistem getdikcə daha sərt bloklaşma meyilləri göstərir: Qərb–Rusiya qarşıdurması, ABŞ–Çin rəqabəti, Avropanın təhlükəsizlik dilemması. Belə şəraitdə kiçik və orta güclər üçün seçim dilemması yaranır. Azərbaycan isə seçimetmə modelindən yayınaraq balansqurma modelini seçib. Bakı həm Vaşinqton, həm Brüssel, həm də regional aktorlarla paralel işləyir və bu paralellik onun manevr imkanlarını genişləndirir. Nəticədə, Azərbaycan müxtəlif mərkəzlər arasında əlaqələndirici halqaya çevrilir.

Postmüharibə mərhələsində Azərbaycanın əsas strategiyası əldə olunmuş reallıqları diplomatik müstəviyə daşımaq və onları beynəlxalq sistem daxilində legitimləşdirməkdir. Diplomatik coğrafiyanın genişlənməsi məhz bu legitimləşmənin mexanizmidir. Bakı nə qədər çox platformada iştirak edirsə, bir o qədər özünü qlobal qərarvermə proseslərinin ayrılmaz hissəsi kimi təqdim edir.

Bölgədən qitəyə, qitədən dünyaya uzanan diplomatik xətt strateji dəyişikliyinin göstəricisidir. Postmüharibə dövründə Azərbaycan üçün əsas məsələ hərbi reallığın diplomatik və siyasi müstəvidə möhkəmləndirilməsi idi. Qələbə faktı özlüyündə uzunmüddətli təsir yaratmır; onu beynəlxalq sistem daxilində qəbul olunan və legitimləşdirilən reallığa çevirmək tələb olunur. Bakı məhz bu mərhələyə daxil olub.

Diplomatik coğrafiyanın genişlənməsi, əslində, siyasi məsafənin qısalması deməkdir. Son həftənin diplomatik dinamikası bir daha sübut etdi ki, Azərbaycanın xarici siyasəti reaksion modeldən çıxıb. Çoxölçülü, çoxvektorlu və sistemli xarakter daşıyan bu siyasət balans üzərində qurulub və geosiyasi rəqabətin kəskinləşdiyi dövrdə manevr imkanlarını qorumağa yönəlib.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---




# Macarıstanın sivil seçimi

## *Avropa İttifaqı nəfəs çəkmədən gözləyir*

**Macarıstan Respublikasının Prezidenti Tamaş Şulyok tərəfindən rəsmən təsdiq edilən 12 aprel 2026-cı il tarixli seçkilər Avropa İttifaqının gələcək təşkilati bütövlüyünü, geosiyasi istiqamətini və demokratiya anlayışını sınağa çəkəcək həlledici siyasi döyüş hesab olunur. Çünki on altı il davam edən fasiləsiz hakimiyyətdən sonra Baş nazir Viktor Orban və rəhbərlik etdiyi Fidesz–KDNP (Gənc Demokratlar İttifaqı) alyansı ilk dəfə real, kütləvi dəstəyə malik rəqib qüvvə ilə, yəni Peter Magyarın liderlik etdiyi TİSZA (Hörmət və Azadlıq Partiyası) partiyası ilə üz-üzə gəlir. Məhz sözügedən qarşıdurma Brüssel dəhlizlərində, Vaşinqtonun strateji dairələrində və Moskvanın siyasi kabinetlərində diqqətlə izlənilir.**

Qarşıdakı parlament seçkiləri ənənəvi sağ-sol qarşıdurmasından tamamilə fərqlənir. Budapeşt küçələrində, Debretsen meydanında və əyalətlərdə hiss olunan gərginlik, eyni zamanda, ölkənin Qərb institutlarına inteqrasiyasının davam edib-etməyəcəyi sualına cavab axtarışıdır. Xüsusən də Viktor Orbanın illərdir apardığı suverenlik ritorikası, Brüssel bürokratiyasına qarşı sərt ittihamları və sülh missiyası adı altında Rusiya ilə qoruyub saxladığı əlaqələr Avropa İttifaqı daxilində ciddi çatlar yaradıb. Həmin çatların dərinləşməsi və ya bərpası məhz aprel səsverməsinin nəticəsindən asılı olacaq.

Sözügedən seçki kampaniyasının ən diqqətçəkən məqamı, şübhəsiz, Peter Magyarın siyasi səhnəyə ildırım sürətli girişidir. Çünki keçmişdə hakim elitanın daxili dairəsinə mənsub şəxs kimi tanınan, lakin sonradan sistemdən qoparaq kəskin müxalif mövqe tutan Magyar Fidesz elektoratının müəyyən hissəsini, məyus olmuş müxalifət seçicilərini vahid bayraq altında birləşdirməyi bacarıb. TİSZA partiyasının qısa müddətdə ictimai rəy sorğularında hakim partiya ilə baş-başa gəlməsi, hətta bəzi müstəqil sorğularda irəli keçməsi macar siyasətində uzun illərdir hökm sürən apatiyanı darmadağın edib. Magyarın uğurunun sirri ritorikasında gizlənir. O, ənənəvi liberal müxalifətdən fərqli olaraq, milli dəyərlərə, ailə institutuna və suverenliyə hörmətlə yanaşdığını bəyan edir, eyni zamanda, dövlət səviyyəsindəki korrupsiyanı, Avropa fondlarının mənimsənilməsini və təhsil-səhiyyə sistemlərinin çöküşünü sərt tənqid atəşinə tutur.

12 aprel seçkiləri, eyni zamanda, Macarıstanın xarici siyasət kursunun referendumuna çevrilib. Çünki Viktor Orbanın Ukrayna müharibəsi ilə bağlı tutduğu mövqe, Rusiyaya qarşı sanksiyalara müqaviməti və Çinlə strateji tərəfdaşlığı dərinləşdirməsi ölkəni Avro-Atlantik məkanda təcrid vəziyyətinə salıb. Xüsusən Vişeqrad Qrupu daxilindəki ənənəvi müttəfiqlərin, yəni Polşa və Çexiyanın Budapeştdən uzaqlaşması Orbanın diplomatik manevr imkanlarını məhdudlaşdırıb, hökumət isə mövcud təcridi sülh tərəfdarı olmaq və milli maraqları qorumaq kimi təqdim edərək seçiciləri inandırmağa çalışır ki, müxalifətin qələbəsi ölkəni birbaşa müharibəyə sürükləyəcək. Burada ABŞ faktorunu da nəzərdən qaçırmaq mümkün deyil. Viktor Orban açıq şəkildə Donald Trampın siyasi dəstəyinə ümid bəsləyir və Budapeşt hesab edir ki, Vaşinqtonda baş verə biləcək siyasi dəyişikliklər və ya Tramp administrasiyasının təsiri ona Avropa İttifaqı daxilində yeni nəfəs verəcək.

***

Təhlükəli məqam səsvermədən sonrakı dövrü əhatə edir. Hadisələrin inkişafı iki əsas istiqamətdə cərəyan edə bilər və hər iki halda ölkəni ciddi sınaqlar gözləyir. Əgər hakim partiya hətta cüzi səs çoxluğu ilə olsa belə parlamentdəki yerlərini qoruyub saxlaya bilsə, sözügedən qələbə Orban tərəfindən Brüsselə və qlobalistlərə qarşı tarixi zəfər kimi təqdim ediləcək. Bu halda hökumətin daxili və xarici siyasətində daha radikal addımların atılması ehtimalı yüksəkdir. Suverenliyin müdafiəsi qanunvericiliyinin sərtləşdirilməsi, müstəqil media və vətəndaş cəmiyyətinə qarşı təzyiqlərin artması, eləcə də Avropa Komissiyası ilə qarşıdurmanın pik həddə çatması gözlənilir. Orban hökuməti Avropa fondlarından tamamilə məhrum ediləcəyi təqdirdə, iqtisadiyyatı ayaqda saxlamaq üçün Şərqdən daha böyük borc öhdəlikləri götürə bilər ki, məlum addım Macarıstanı uzunmüddətli perspektivdə Avropa iqtisadi məkanından uzaqlaşdıracaq.

Digər ssenari, yəni Peter Magyarın qələbəsi Macarıstan tarixində yeni səhifə açsa da, idarəçilik baxımından olduqca mürəkkəb dövrün başlanğıcı olacaq. Çünki on altı il ərzində Fidesz ölkənin bütün dövlət aparatını – prokurorluqdan tutmuş Konstitusiya Məhkəməsinə, Mərkəzi Bankdan Media Şurasına qədər sadiq kadrlarla doldurub və Prezident, Baş prokuror və digər açar fiqurların uzunmüddətli səlahiyyət müddətləri yeni hökumətin fəaliyyətini iflic etmək potensialına malikdir. Dərin dövlət adlandırıla biləcək həmin struktur islahatlara müqavimət göstərəcək və keçid dövrünü sabotaj etməyə çalışacaq.

Bütün hallarda, aprel ayının ikinci bazar günü baş tutacaq səsvermə Avropa siyasi tarixinin ən yaddaqalan səhifələrindən olacaq və ekspert icması yekdilliklə qeyd edir ki, prosesdən sonra Macarıstan artıq əvvəlki kimi olmayacaq. O, ya tam təcridə doğru gedən tənha qala, ya da yenidən Avropa ailəsinin bərabərhüquqlu və konstruktiv üzvü kimi yoluna davam edəcək. Qarşıdakı həftələr ərzində kampaniya ritorikasının daha da sərtləşəcəyi, kompromat savaşının qızışacağı və cəmiyyətin qütbləşməsinin pik həddə çatacağı şübhə doğurmur.

Həmçinin unutmaq olmaz ki, Macarıstanın seçki sistemi majoritar və proporsional sistemlərin qarışığından ibarət mürəkkəb mexanizmə əsaslanır. Fidesz illər ərzində seçki dairələrinin sərhədlərini strateji şəkildə dəyişdirərək, kənd yerlərindəki səslərin çəkisini artırmağa nail olub ki, həmin amil TİSZA partiyası və digər müxalif qüvvələr üçün əlavə maneə yaradır. Peter Magyar qalib gəlmək üçün sadə səs çoxluğu qazanmaqla kifayətlənməməli, eyni zamanda, sistemin yaratdığı struktur dezavantajlarını da aşmalıdır. Bu isə müxalifətin Fidesz qalası hesab edilən kənd rayonlarında ciddi sıçrayış tələb edir.

Əgər Magyar kənd seçicisini iqtisadi arqumentlərlə inandıra bilsə, o zaman siyasi xəritənin rəngi tamamilə dəyişə bilər. Bundan əlavə, Macarıstan mediasının böyük hissəsi KESMA fondu vasitəsilə hökumətin nəzarəti altındadır və ictimai rəyin formalaşmasında həlledici rol oynayan televiziya kanalları, qəzetlər və onlayn portallar günün iyirmi dörd saatı hökumət propaqandasını yaymaqla məşğuldur. Müxalifətin səsinin eşidilməsi üçün əsas vasitə sosial media və bir neçə müstəqil onlayn platformadır. TİSZA partiyasının uğuru rəqəmsal kampaniyanın ənənəvi mediaya qarşı nə qədər effektiv ola biləcəyinin də göstəricisi olacaq.

Müvafiq tarixi kontekstdə hadisələrə yanaşdıqda, Macarıstanın 1956-cı il inqilabından və 1989-cu il rejim dəyişikliyindən sonra üçüncü ən mühüm siyasi dönüş nöqtəsində olduğunu söyləmək mübaliğə olmaz. Hər iki əvvəlki tarixdə xalq azadlıq və Avropa dəyərləri uğrunda mübarizə aparmışdı. 2026-cı ilin baharında eyni ruhun yenidən canlanıb-canlanmadığı məlum olacaq. Fidesz partiyasının onilliklər ərzində qurduğu sistemin dayanıqlılığı ilə cəmiyyətin yenilənmə arzusu arasındakı mübarizənin nəticəsi Avropa dərsliklərində demokratiyanın müdafiəsi və ya tənəzzülü nümunəsi kimi tədris ediləcək mövzudur. Aprel seçkiləri hər bir vətəndaşın fərdi məsuliyyət imtahanıdır. Dünyanın diqqəti Macarıstana yönəldiyi halda, Budapeştin verəcəyi qərar qlobal siyasi arenada rezonans doğuracaq.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Ankara və İrəvan da ticarətə başlayır




**(əvvəli 1-ci səhifədə)**

Mövcud situasiya "sərhədin açılması" kimi siyasi baxımdan yüklü terminologiyadan qaçaraq, iqtisadi-texniki əməkdaşlıq üzərindən etimad quruculuğuna hesablanıb. Ermənistan Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ildə Bakı və İrəvan arasında ikitərəfli ticarət dövriyyəsi 336 milyon dolları ötüb. Bunun demək olar ki, hamısı Türkiyənin Ermənistana ixracının payına düşür. İxrac strukturunda maşın və mexaniki avadanlıqlar, dəmir-polad məhsulları, sənaye malları və tekstil üstünlük təşkil edir. Ermənistanın Türkiyəyə ixracı isə minimal səviyyədədir.

Mühüm detal ondan ibarətdir ki, bu ticarətin təxminən 40 faizi quru yolu ilə Gürcüstan üzərindən həyata keçirilir və formal olaraq "təkrar ixrac" kimi rəsmiləşdirilirdi. Yeni mexanizm tranzitin hüquqi statusunu dəyişməklə, xərcləri və bürokratik yükü azaldır. Bu isə, ilk növbədə, türk ixracatçılarının marağını və rəqabət qabiliyyətini artırır. 2025-ci il üçün ticarət dövriyyəsinin həcmi açıqlanmasa da, bu rəqəmin 400 milyon dollara yaxın olduğu ehtimal edilir. Burada əsas məsələ həcmin artımı deyil, asimmetrik strukturun dərinləşməsidir. Ermənistan bazarı Türkiyə məhsulları üçün açıq qalır, lakin Ermənistan istehsalçıları üçün Türkiyə bazarına çıxış real rəqabət qabiliyyəti tələb edir. Bu, qısa müddətdə Ermənistan üçün istehsal təzyiqi yaratsa da, perspektivdə struktur modernləşməni stimullaşdıra bilər.

Normallaşma prosesinin ABŞ-ın təşviq etdiyi regional sülh təşəbbüsləri fonunda sürətlənməsi diqqətəlayiqdir. Vaşinqton Cənubi Qafqazda nəqliyyat-kommunikasiya xətlərinin açılmasını, regional inteqrasiyanı və Rusiya təsirinin balanslaşdırılmasını strateji prioritet kimi görür. Bu kontekstdə Türkiyə–Ermənistan xəttində yumşalma Azərbaycan–Ermənistan sülh gündəliyi ilə paralel şəkildə irəliləyir.

Burada diqqətçəkən məqam normallaşmanın "paket həlli" modelindən fərqli olaraq paralel və modul yanaşma ilə aparılmasıdır: Ankara İrəvanla münasibətləri Bakı ilə koordinasiya çərçivəsində, lakin tam asılılıq yaratmadan inkişaf etdirir. Bu isə Türkiyənin həm regional güc, həm də NATO üzvü kimi manevr imkanlarını genişləndirir.

Yeni mexanizm Gürcüstanın vasitəçi funksiyasını formal olaraq zəiflətmir, lakin onun "təkrar ixrac" üzərindən əldə etdiyi əlavə gəlir və nəzarət imkanlarını azaldır. Gürcüstan yenə tranzit ölkə olaraq qalır, lakin hüquqi-sənəd dövriyyəsindəki rol transformasiya olunur. Bu, Cənubi Qafqazda logistika marşrutlarının daha şəffaf və institusional əsaslara keçirilməsi deməkdir. Eyni zamanda, Türkiyənin Naxçıvan vasitəsilə Azərbaycanla quru bağlantısının genişlənməsi perspektivi və Zəngəzur dəhlizi (TRIPP) ətrafında aparılan müzakirələr fonunda Ermənistanın regional tranzit sisteminə inteqrasiyası daha geniş geoiqtisadi kontekst alır.

***

Ermənistanda parlament seçkilərinin yaxınlaşması normallaşma kursunun dayanıqlılığı məsələsini aktuallaşdırır. Baş nazir Nikol Paşinyanın komandası iqtisadi liberallaşmanı rasional seçim kimi təqdim edir. Lakin müxalif düşərgədə Türkiyə ilə yaxınlaşma tarixi və emosional arqumentlərlə tənqid olunur. Bu səbəbdən normallaşma prosesinin institusional təminatı siyasi dəyişikliklərdən asılılığı minimuma endirməlidir.

Türkiyə üçün əsas risk normallaşmanın Azərbaycanla koordinasiya balansını pozması ehtimalıdır. Ankara 2020-ci ildən sonra formalaşmış "bir millət, iki dövlət" siyasi xəttini strateji prioritet kimi saxlayır və Ermənistanla hər addımı Bakı ilə məsləhətləşmə çərçivəsində atdığını dəfələrlə bəyan edib. Azərbaycan üçün Türkiyə–Ermənistan normallaşması prinsipial olaraq mənfi hadisə deyil. Əksinə, regionda kommunikasiyaların açılması və iqtisadi inteqrasiyanın genişlənməsi Bakının uzunmüddətli strateji baxışına uyğundur. Azərbaycan 2020-ci ildən sonra regional əməkdaşlıq platforması – "3+3" formatı və nəqliyyat-kommunikasiya xətlərinin açılması təşəbbüslərini irəli sürüb. Bununla belə, Bakı üçün əsas şərt Ermənistanın ərazi bütövlüyü və suverenlik məsələlərində hüquqi öhdəliklərini tam yerinə yetirməsidir. Türkiyə–Ermənistan xəttində atılan addımlar Azərbaycan–Ermənistan sülh müqaviləsinin məntiqinə zidd olmamalıdır. Əks halda, regional balans pozula bilər.

Azərbaycan həm də nəzərə alır ki, Ermənistanın iqtisadi blokadadan çıxması və regional ticarətə inteqrasiyası uzunmüddətli perspektivdə revizionist siyasət üçün motivasiyanı azalda bilər. İqtisadi qarşılıqlı asılılıq təhlükəsizlik arxitekturasının qeyri-hərbi sütununu formalaşdırır. Bu baxımdan, Türkiyə–Ermənistan quru ticarəti, əgər paralel olaraq Bakı–İrəvan sülh gündəliyi ilə uzlaşdırılarsa, regionda sabitliyin dərinləşməsinə xidmət edə bilər.

Nəticə etibarilə, baş verən proseslər Cənubi Qafqazın postmünaqişə mərhələsində iqtisadi rasionalizmin siyasi ritorikanı tədricən əvəz etməsinin göstəricisidir. Prosesin davamlılığı isə yalnız iqtisadi fayda ilə deyil, tərəflərin hüquqi və siyasi öhdəliklərə sadiqliyi ilə müəyyən olunacaq.

***Tacir SADIQOV***
***XQ***

# "Amnesty International"ın təəssübkeşliyi

*Yaxud Mari Strazersin boynu Rubenin "səxavət qılıncı" altında*



**"Amnesty International" beynəlxalq hüquq-müdafiə təşkilatı Azərbaycana qarşı həmişəki qərəzini yenidən işə salıb. Söhbət qurumun Şərqi Avropa və Mərkəzi Asiya üzrə direktoru Mari Strazersin açıqlamasından gedir. O açıqlamadan ki, bütövlükdə, təşkilatın mövqeyini əks etdirir.**

Görəsən, xanım Strazers niyə indi bəyanat verir? Nə üçün haqqında söz açdığı 16 nəfərdən 15-i barədə hökm çıxarılanda dinmədi? Səbəb çox sadədir. O, Qarabağdakı keçmiş separatçı rejimdə qondarma "dövlət naziri" postunu tutmuş rusiyalı erməni əsilli milyarder Ruben Vardanyanın "səxavət qılıncının" altından keçib.

Beləliklə, M.Strazers deyib ki, 16 müttəhimin məhkum olunması və bunun kulminasiyası kimi R.Vardanyan barəsində çıxarılmış hökm, guya, ədalətsizdir. Niyə? Adam ortaya konkret arqument qoymur. Sən demə, Qarabağ ətrafında uzun illər davam etmiş münaqişənin həm Ermənistandakı, həm də Azərbaycandakı qurbanları ədalətə, reparasiyalara və faciənin təkrarlanmayacağına dair təminatlara layiq imişlər, amma Vardanyan və digər şəxslər haqqındakı hökm bu zərurəti qarşılamırmış. Göründüyü kimi, "Amnesty International" təmsilçisinin açıqlamasında cəfəngiyyat motivləri var. Amma bu, hələ son deyil. Xanım Strazers onu da bildirib ki, çoxsaylı, olduqca ağır cinayətlərdə ittiham olunan R.Vardanyan və digər müttəhimlərlə bağlı məhkəmə prosesləri faktiki olaraq qapalı keçirilib, iclaslar onların anlamadığı və adekvat şəkildə tərcümə edilməmiş dildə təqdim edilən sübutlara əsaslanıb. Halbuki, məsələ heç də belə deyil və bu məqama qayıdacağıq.

Xanım Strazersin sözlərinə görə, "Amnesty International" məhkəmə prosesi və sübutlarla bağlı Azərbaycan hakimiyyətindən məlumat tələb edib, lakin cavab almayıb. Başa düşmədik, yəni cavab olmalı idi? "Amnesty International" nə yaman ciddi qurumdur ki, Azərbaycan hakimiyyəti onun hansısa tələbini yerinə yetirsin? Digər tərəfdən, heç bir beynəlxalq təşkilatın və ya qurumun Azərbaycanın dövlət və cəmiyyət maraqlarını heçə sayan tələb irəli sürmək hüququ yoxdur.

Ən başlıcası, ortada separatçılıq faktı var. Azərbaycan torpaqları 30 ilə yaxın işğal altında qalıb. Həmin müddətdə bir milyona yaxın azərbaycanlı öz dədə-baba yurdlarından uzaq düşüb, didərgin həyatı yaşayıb, təcavüzün məşəqqətlərinə qatlaşmaq məcburiyyətində qalıb. Görəsən, o zaman "Amnesty International" harada idi? Nəyə görə bir dəfə də olsun, qurum bununla bağlı bəyanat və ya açıqlama yaymadı? Niyəsi məlumdur, çünki təşkilat hay maraqlarından çıxış edir, xaricdəki erməni lobbi və diaspor qurumlarının direktivləri ilə hərəkət edir.

Digər yandan, Azərbaycan öz qətiyyəti və iradəsi hesabına BMT-nin illərlə kağız üzərində qalmış qətnamələrini icra edib, işğala son qoyub, ərazi bütövlüyünü bərpa edib. Bu zaman Vardanyan qarışıq Qarabağdakı separatçı rejimdə yüksək "vəzifələr" tutmuş şəxsləri saxlayıb və məsuliyyətə cəlb edib. Görəsən, ölkəmiz onların başlarını sığallamalı idi? Əlbəttə ki, yox! O zaman xanım Strazersin demək istədiyi nədir? Məgər bir dövlətin ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək cinayət əməli deyil? Ancaq onun hazırkı bəyanatından belə çıxır ki, nə işğal olub, nə də separatçılıq?

Haşiyəyə çıxaq ki, "Amnesty International" 44 günlük müharibə zamanı, konkret olaraq, 2020-ci il noyabrın 1-də, yəni savaşın bitməsinə 10 gün qalmış bəyanat yayaraq bildirmişdi ki, Azərbaycanın Bərdə şəhərində yaşayış məhəllələrini atəşə tutan erməni silahlı qüvvələri kasetli döyüş sursatlarından istifadə edib. Xanım Strazers bilmirdimi ki, atəş Ermənistan ərazisindən yox, işğal altında olan Azərbaycan torpaqlarından açılmışdı? Sualımız ritorikdir, çünki o, hər şeyi yaxşı anlayırdı və indi də anlayır. Amma...

44 günlük müharibə vaxtı separatçı rejimin rəhbəri olmuş Arayik Arutyunyan özü efirə çıxaraq Gəncəni atəşə tutmaq əmrini verməsi ilə qürrələnmişdi. Bu məxluq ömürlük azadlıqdan məhrum edilməməli idi? Axı o zaman xanım Strazers belə bir fikir işlətmişdi: "Kasetli döyüş sursatları ilə mülki ərazilərə atəş açılması ağılsız və qəddar hərəkətdir. Bu, saysız-hesabsız ölüm, yaralanma və əzab-əziyyətə gətirib çıxarır. Kasetli döyüş sursatları, mahiyyət etibarilə, seçimsiz silahlardır və onlardan istifadə beynəlxalq humanitar hüquqa görə qadağandır".

Bəli, xanım Strazersin diqqətə çatdırdığımız iqtibasdakı fikirləri Ermənistanın müharibə cinayətləri törətdiyinin təsdiqidir. Amma demək olmaz ki, "Amnesty International" bu mövqeyini ədalət naminə açıqlamışdı. Təşkilat, sadəcə, məcburiyyət qarşısında qalmışdı. Nəzərə alaq ki, 44 günlük müharibə dövründə Ermənistanın və onun himayəsi altında olan separatçı rejimin cinayətlərinin arealı yalnız Bərdə ilə məhdudlaşmamış, qurum çoxsaylı faktlardan təkcə birinə reaksiya vermişdi. İndi isə Strazers deyir ki, Azərbaycan, guya, insan hüquqları sahəsində öhdəliklərinə əməl etməli və cinayətlərdə ittiham olunan bütün şəxslərin beynəlxalq hüquqa və ədalətli məhkəmə araşdırması standartlarına tam uyğun şəkildə mühakimə olunmalarını təmin etməlidir.

Təkcə Strazers deyil, onun kimilərin hamısı bilməlidirlər ki, erməni əsilli şəxslər məhkəmə proseslərində tərcüməçilərlə təmin olunmuşdular. Ümumən, proses qanunvericiliyin və beynəlxalq hüququn prinsiplərinə tam uyğun şəraitdə keçirilmişdi. Bunun əksini iddia etmək, yumşaq desək, əclaflıqdır. Amma ötən illərin də təcrübəsi göstərir ki, əclaflıq "Amnesty International" və eyni kürsu götürən təşkilatlar üçün adi haldır, bir növ, normadır.

Sonda onu da bildirək ki, "Amnesty International"ın insan hüquq və azaqlıqları xüsusunda açıq spekulyasiya ilə məşğul olduğu hər kəsə yaxşı məlumdur. Bu qurum bəşəri dəyər və prinsipləri təmənna predmetinə çevirərək mövcudiyyətini davam etdirib və etdirməkdədir. Onun hazırda, belə demək mümkünsə, vardanyanşünaslığı da həmişəki "fəaliyyət" tərzindən qaynaqlanan saxta təəssübkeşlikdir. Tam aydındır ki, belə gedişlər, o cümlədən Azərbaycanın ədalət mühakiməsini şübhələndirməyə yönəlmiş bütün hərəkətlər mənasızdır.

Ölkəmiz dünya erməniliyinin və onların havadarlarının cinayətkarları azadlığa buraxmaq tələbləri qarşısında geri çəkilməyəcək, hər zaman olduğu kimi, təzyiq cəhdlərinə məhəl qoymaraq özünün haqq yolunda addımlayacaqdır. Haqq isə budur: Azərbaycan ərazilərində bəşəri cinayət törətmiş şəxslər layiq olduqları cəzalarını çəkməlidirlər. Onların sığınacağı yalnız bir ədalət var ki, o da ölkəmizin ədalətidir. Başqa qapılardan mədət ummaq qaranlıq otaqda qara pişik axtarmaq kimi bir şeydir. Yaxşı olar ki, strazerslər və onları ortaya atanlar bunu qulaqlarında sırğa etsinlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Qoca qitə" rəqəmsal suverenlik axtarışında

*Prosesin gözlənilən nəticə verəcəyi sual altındadır*



**Avropa paytaxtlarında sosial mediaya məhdudiyyətlərlə bağlı müzakirələrin geniş rezonans doğurduğu müşahidə edilir. Sözügedən məsələ daha çox milli təhlükəsizlik, uşaqların müdafiəsi, demokratik institutların dayanıqlılığı və transatlantik münasibətlər kontekstində dəyərləndirilir. Ona görə də Avropa hökumətləri sosial platformalara qarşı daha sərt addımlar atmağa başlayıblar.**

Bu addım uşaqların təhlükəsizliyi ilə bağlı artan ictimai narazılığa cavab kimi təqdim edilsə də, pərdəarxasında daha geniş geosiyasi və iqtisadi hesablamalar dayanır. Çünki hədəfdə olan əsas şirkətlərin böyük əksəriyyətinin qərargahı Amerika Birləşmiş Ştatlarında yerləşir. Mübahisələrin mərkəzində duran platformalar sırasında "Meta Platforms", "TikTok" və "X" xüsusi yer tutur. Şirkətlər milyardlarla istifadəçiyə çıxış imkanı verir və informasiya axınının sürətini, məzmunun yayılma modelini və ictimai rəyin formalaşmasını müəyyənləşdirən alqoritmlərlə işləyirlər. Tənqidçilərin fikrincə, məhz bu alqoritmik güc və zəif nəzarət mexanizmləri yetkinlik yaşına çatmayanların riskli məzmunla təmasını asanlaşdırır.

Məsələnin konkret hüquqi müstəviyə keçdiyi məkanlardan biri İspaniyadır. Madrid prokurorluğuna adıçəkilən platformalarla bağlı istintaq başlatmaq tapşırılıb. İddialara görə, süni intellekt vasitəsilə yaradılmış qeyri-etik uşaq görüntüləri sosial şəbəkələrdə yayılıb və lazımi vaxtda bloklanmayıb. Bu da uşaq hüquqlarının pozulması və cinayət xarakterli məzmunun dövriyyəsinə gətirib çıxarır. İspaniya hökumətinin addımı Britaniyadakı oxşar qərardan sonra gəlib və bununla da məsələ milli təşəbbüsdən regional tendensiyaya çevrilib. İrlandiyada da "X" platformasının süni intellekt əsaslı çatbotu "Grok"un fəaliyyəti araşdırma altına alınıb. Süni intellektin sürətli inkişafı hüquq sistemlərini də çətin sınaq qarşısında qoyub. Çünki mövcud qanunvericilik ənənəvi məzmun yayımını nəzərə alaraq formalaşıb. Avropada narahatlıq doğuran digər istiqamət yeniyetmələrin sosial mediaya çıxışının məhdudlaşdırılması təklifidir. Fransa, İspaniya, Yunanıstan, Danimarka, Sloveniya və Çexiya kimi ölkələr sözügedən mövzuda müzakirələri intensivləşdiriblər. Bəzi hökumətlər bu istiqamətdə təşəbbüs göstərən Avstraliya modelinə istinad edirlər.

Avstraliya təcrübəsi göstərir ki, yaş məhdudiyyətləri və platformalara qarşı sərt tələblər siyasi cəsarət tələb etsə də, ictimai dəstək qazana bilər. Təşəbbüslər cəmiyyət daxilində də mübahisələr yaradır. Əksəriyyət hesab edir ki, sosial media uşaqların psixoloji sağlamlığına və sosial bacarıqlarına mənfi təsir göstərir. Bəziləri isə qadağaların problemin kökünü həll etmədiyini, əksinə, qeyri-rəsmi və nəzarətsiz kanalların genişlənməsinə səbəb ola biləcəyini vurğulayır. Rəqəmsal savadlılığın artırılması və valideyn nəzarət mexanizmlərinin gücləndirilməsi alternativ yanaşma kimi irəli sürülür. Prosesdə Avropa dövlətlərinin fərdi qaydada hərəkəti diqqət çəkir və bu tendensiya Aİ daxilində koordinasiya məsələsini gündəmə gətirir.

Bir çox siyasətçi bu məsələdə Brüsselin yetərincə sürətli və sərt davranmadığını düşünür. Onların fikrincə, Aİ səviyyəsində qəbul olunan qərarlar uzun müzakirə prosesindən keçir və real təhlükələrə cavab verməkdə gecikir. Bununla belə, 2024-cü ildə qüvvəyə minmiş Rəqəmsal Xidmətlər Aktı Aİ-nin əlində mühüm alət sayılır. Qanuna əsasən, böyük platformalar qanunsuz və ya zərərli məzmunu vaxtında aradan qaldırmadıqda qlobal illik dövriyyələrinin 6 faizinə qədər cərimə ilə üzləşə bilərlər. Sözügedən mexanizm nəzəri baxımdan güclü təsir rıçağı olsa da, onun tətbiqi siyasi risklərlə müşayiət edilir.

***

Vaşinqtonun reaksiyası bu kontekstdə mühüm faktordur. ABŞ Prezidenti Donald Tramp bir neçə dəfə bəyan edib ki, Avropa ölkələri Amerika texnologiya şirkətlərinə qarşı ədalətsiz addımlar atarsa, tariflər və digər sanksiyalar gündəmə gələ bilər. ABŞ şirkətləri Avropa bazarında böyük gəlir əldə edir, eyni zamanda, Avropa iqtisadiyyatı da rəqəmsal xidmətlər baxımından Amerika texnologiyalarına güvənir. Belə şəraitdə cərimə və ya hüquqi addım həm də diplomatik siqnal kimi yadda qalır. Nəticədə Avropa paytaxtları dilemma ilə üzləşir. Çıxış yolu ya ictimai təzyiqi nəzərə alaraq sərt mövqe tutmaq, ya da iqtisadi və siyasi riskləri minimuma endirməkdir. Avropa Komissiyası bu məsələdə özünü müdafiə mövqeyində görmür. Rəsmi bəyanatlarda vurğulanır ki, Aİ rəqəmsal sahədə qaydalar müəyyən etməklə demokratiyanı gücləndirməyə çalışır. Komissiya "X" və "Grok" tətbiqi də daxil olmaqla bir neçə araşdırmanın başlandığını xatırladaraq tənzimləmə prosesinin davam etdiyini bildirir. Brüsselin arqumentinə görə, məqsəd texnologiyanı ictimai maraqlara uyğun çərçivəyə salmaqdır.

Qısa bir xatırlatma edək: ABŞ uzun illərdir texnoloji sahədə həm bazar lideri, həm də standartları müəyyənləşdirən ölkə kimi fərqlənir. Vaşinqtonun üstünlüyü onun texnoloji ekosistemi dərin elmi-tədqiqat infrastrukturu, kapital bazarları, ixtiraçı və sahibkar ruhu ilə dəstəklənir. Amerika şirkətləri qlobal innovasiyaların önündə dayanırlar. "Google", "Apple", "Microsoft", "Amazon", "Meta Platforms" və "X2" kimi nəhənglər dünya miqyasında milyardlarla istifadəçiyə xidmət göstərərək, məlumat axını, kommunikasiya və xidmət modellərinin necə işləyəcəyini müəyyənləşdirirlər. Adıçəkilən platformalar həm də qlobal rəqəmsal davranış standartlarını formalaşdırır. Onların alqoritmləri, bulud infrastrukturları və süni intellekt modelləri qlobal bazarda texnologiyanın istifadəsini və qəbulunu yönləndirir. ABŞ-ın üstünlüyü, həmçinin texnoloji tədqiqat və inkişaf sahəsində möhkəm akademik baza ilə güclənir. MIT, Stanford, Harvard və Kaliforniya Universiteti kimi dünya səviyyəli institutlar ölkəyə həm texnoloji elmlərdə öncüllük, həm də ixtiraçıların yetişməsi imkanını təmin edirlər. Bu cür akademik və sənaye sinerjisi startap ekosistemini gücləndirir, qlobal innovasiya rəqabətində ABŞ-ı daim irəlidə saxlayır.

Mövzu ilə bağlı Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert **Metyu Brayzanın** fikirlərini öyrəndik.



M.Brayza XQ-yə eksklüziv açıqlamasında qeyd etdi ki, Avropa İttifaqının hazırkı ritorikası siyasi baxımdan anlaşılan olsa da, praktik müstəvidə Birliyin istəklərinin tam reallaşması o qədər də real görünmür: "ABŞ-ın dünyanın texnologiya nəhənglərindən olduğunu nəzərə alsaq, Aİ-nin yenə də ona müəyyən sahələrdə ehtiyac duyduğu danılmazdır. İstehlakçılarını sui-istifadədən qorumaq məqsədilə Avropanın bəzi ölkələrinin ABŞ-ın ən iri texnologiya şirkətlərinə cərimələr tətbiq etməyi və 16 yaşdan kiçik uşaqların sosial mediadan istifadəni məhdudlaşdırmağı nəzərdən keçirməsi də bu kontekstdədir. Bundan öncə ABŞ Prezidenti Donald Tramp açıq şəkildə bəyan etmişdi ki, Amerika şirkətlərinə qarşı ayrı-seçkilik kimi qiymətləndiriləcək addımlar atılarsa, həmin Avropa ölkələri iqtisadi sanksiyalarla üzləşə bilər. Bu xəbərdarlıq məsələnin sırf tənzimləmə müstəvisindən çıxaraq geosiyasi çalar almasına səbəb olub. Avropa liderləri Trampın ticarət və tariflərə qarşı yanaşmasından getdikcə daha çox narazı qaldığından çıxış yolları axtarırlar və nə edə biləcəklərini düşünürlər. Mövcud müzakirələr də buna görə gündəmdədir".

***Nəzrin ELDARQIZI***
***XQ***

# Avrasiyada yeni geosiyasi durum

*Bunu Azərbaycanın çoxvektorlu strategiyası və regional sabitlik yaradır*

**Son illər qlobal güc mərkəzləri arasında rəqabət kəskinləşib, strateji enerji və nəqliyyat marşrutlarının birbaşa hədəfə çevrildiyi münaqişə ocaqları genişlənib. Bunlar Avrasiya məkanında tamamilə yeni geosiyasi və geoiqtisadi reallıq formalaşdırıb. Bu mürəkkəb mənzərə dövlətlərdən yalnız ənənəvi diplomatiya deyil, həm də daha çevik, şaxələndirilmiş və qarşılıqlı maraqlara söykənən yeni əməkdaşlıq modellərin tətbiqini tələb edir. Regionumuzun strateji dayanıqlığının təmini isə artıq nəzəri deyil, praktiki müstəvidə bağlantıların gücləndirilməsi, nəqliyyat dəhlizlərinin diversifikasiyası və institusional tərəfdaşlığın möhkəmləndirilməsindən keçir.**





Bakıda keçirilən "C6: Vahid region, ortaq gələcək – Strateji dialoqun gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans bu çağırışların müzakirəsi üçün mühüm platformaya çevrilib. Tədbirdə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şafiyev vurğulayıb ki, son altı il ərzində Azərbaycanın xarici siyasət arxitekturası məhz bu qlobal çağırışlara adekvat cavab verəcək şəkildə qurulub. Onun sözlərinə görə, dünyada cərəyan edən münaqişələr təkcə siyasi gərginlik yaratmır, həm də enerji və nəqliyyat xətlərinə, habelə mürəkkəb təchizat və alt-təchizat zəncirlərinə ciddi zərbələr vurur. Bu proseslərin doğurduğu strateji nəticələr fonunda əlaqəlilik, iqtisadi şaxələndirmə və ortaq maraqlara əsaslanan regional tərəfdaşlıq dövlətlərin milli təhlükəsizliyinin və strateji dayanıqlığının ayrılmaz hissəsinə çevrilir.

F.Şafiyev qeyd edib ki, rəsmi Bakı xarici siyasətində balanslı yanaşmanı qoruyub saxlamaqla yanaşı, həm Şərq istiqamətindəki fəaliyyətini intensivləşdirib, həm də Qərb tərəfdaşları ilə konstruktiv və praqmatik dialoqu inkişaf etdirib. Bildirib ki, Mərkəzi Asiya ölkələri ilə strateji tərəfdaşlığın keyfiyyətcə yeni müstəviyə qaldırılması Azərbaycanın çoxvektorlu diplomatiyasının prioritetidir. Eyni zamanda, qeyd olunub ki, ABŞ və Avropa İttifaqı ilə bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin qorunub saxlanılması Azərbaycanın beynəlxalq sistemdəki manevr imkanlarını genişləndirib. "Bu çərçivədə Mərkəzi Asiya bizim üçün yalnız qonşu deyil, həm də strateji tərəfdaşdır", – deyə F.Şafiyev vurğulayıb.

Nüfuzlu beynəlxalq analitik mərkəzlərin, o cümlədən "European Council on Foreign Relations" və "Carnegie Endowment for International Peace" kimi qurumların hesabatlarında da Mərkəzi Asiyanın artan geosiyasi çəkisi və Azərbaycanın bu zəncirdəki həlledici rolu xüsusi vurğulanır. Bu cür beynəlxalq qiymətləndirmələr Azərbaycanın seçdiyi xarici siyasət kursunun yalnız regional deyil, həm də qlobal kontekstdə məntiqli və uzaqgörən olduğunu sübut edir.

Onu da qeyd edək ki, Mərkəzi Asiya regionunun Azərbaycan üçün əhəmiyyəti, sadəcə, qonşuluq münasibətləri ilə məhdudlaşmır. F.Şafiyevin fikrincə, ortaq tarixi köklər, din və mədəni irs bu əlaqələr üçün mühüm mənəvi baza yaratsa da, müasir tərəfdaşlığın lokomotivini geoiqtisadiyyat təşkil edir. Enerji resurslarının nəqli, nəqliyyat-logistika qovşaqlarının birləşdirilməsi və infrastruktur layihələrindəki tamamlayıcılıq Avrasiyada yeni əməkdaşlıq arxitekturası formalaşdırır. Regionda davamlı sülhün və təhlükəsizliyin ən effektiv təminatçısı rolunda çıxış edir.

Şübhəsiz ki, Azərbaycanın Mərkəzi Asiya ilə strateji yaxınlaşması, Orta Dəhlizin işləkliyini təmin etməklə bütöv bir coğrafiyanın gələcək inkişaf modelini formalaşdırır. Bu marşrut Avropa ilə Asiya arasında alternativ və daha təhlükəsiz logistik əlaqə yaradır. Eyni zamanda, Azərbaycanın tranzit mərkəzi kimi rolunu gücləndirir və ölkəni Avrasiyanın logistika xəritəsində strateji həlqəyə çevirir.

Çıxışında C6 formatına da toxunan F.Şafiyev bildirib ki, bu, praktiki və məqsədyönlü təşəbbüsdür. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan Azərbaycanla birlikdə regional bağlantıları gücləndirə və daha müstəqil fəaliyyət imkanlarını artıran altıtərəfli format çərçivəsində əməkdaşlıq edə bilərlər. "C6 mövcud təşəbbüsləri təkrarlamadan, onların daha güclü və davamlı olmasına, eləcə də təsir dairəsinin genişlənməsinə kömək edə bilər. C6 uzunmüddətli fəaliyyət üçün praktik və inklüziv olmalıdır. Regionumuzun müxtəlifliyini nəzərə alaraq əməkdaşlıq yalnız çevik və nəticəyönümlü olduqda effektiv olur. Davamlı regional format isə fərqlilikləri hörmətlə qarşılayan, nəticələrə fokuslanan və ortaq strateji tələblərə uyğun olan formatdır," – deyə BMTM sədri əlavə edib.

O, bu formatın Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əlaqələrin daha da möhkəmlənməsinə, Xəzər dənizi hövzəsi boyunca inteqrasiya olunmuş geoiqtisadi və geosiyasi məkanın artırılmasına töhfə verdiyini vurğulayıb. Azərbaycanın tranzit potensialının reallaşmasında C6 formatının xüsusi çəkiyə malik olduğunu qeyd edib.

Ümumiyyətlə, C6 formatının strateji əhəmiyyəti yalnız nəqliyyat və logistika ilə məhdudlaşmır. Artıq Xəzər regionu və Mərkəzi Asiya dünyada, sadəcə, xammal ixracatçısı kimi deyil, qlobal enerji arxitekturasının həlledici subyekti kimi qəbul edilir. Vacib məqam odur ki, bu əməkdaşlıq yalnız neft-qaz sektoru ilə məhdudlaşmır. F.Şafiyev deyib: "Tərəfdaşlıq həm bərpaolunan enerji üzrə birgə tədqiqatların aparılmasını, həm də günəş və külək enerjisi potensialına yönəlmiş yeni investisiyaların təşviqini prioritet hesab edir. Bu isə regionun tədricən aşağı karbonlu iqtisadiyyata keçidini dəstəkləyir. Eyni zamanda, bu əməkdaşlıq regional enerji təhlükəsizliyini gücləndirir və altı ölkədən ibarət yeni formatı Şərq ilə Qərb arasında etibarlı enerji körpüsü kimi mövqeləndirməyə kömək edir".

Bərpaolunan enerji texnologiyalarının sürətli inkişafı, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji zonası" elan etməsi, habelə regionun digər ölkələrindəki nəhəng günəş və külək layihələri isə C6 daxilində misilsiz sinerji yaradır. Bununla bağlı **iqtisadçı ekspert Kamran Abdullayev** bildirdi ki, bu sinerjinin ən perspektivli hədəfi regionun bərpaolunan enerji resurslarını birbaşa Avropa bazarlarına çıxaracaq "Yaşıl kabel" (Qara dəniz sualtı elektrik



kabeli) və Xəzər dənizindən keçən enerji dəhlizləridir: "Beynəlxalq Enerji Agentliyinin (IEA) proqnozları da təsdiqləyir ki, C6 dövlətləri yaxın gələcəkdə yalnız karbohidrogen deyil, həm də "yaşıl hidrogen" və təmiz elektrik enerjisinin əsas tədarükçüsünə çevriləcəklər. Orta Dəhliz tədricən fiziki yüklərin daşındığı yol deyil, həm də gələcəyin "yaşıl və rəqəmsal dəhlizi" statusunu qazanır. Bu səbəbdən C6 yalnız dövlət başçılarının görüşləri ilə məhdudlaşmamalı, daimi fəaliyyət göstərən institutlar, ekspertlər, iqtisadçılar və energetiklər arasında fasiləsiz dialoq mexanizmləri formalaşdırılmalı, konkret əməkdaşlıq layihələri həyata keçirilməlidir".

Beləliklə, C6 formatı strateji dayanıqlılığın, iqtisadi praqmatizmin və innovativ gələcəyin simvoluna çevrilir. Əgər əməkdaşlığın ilkin mərhələsi fiziki yolların inşasına yönəlmişdisə, növbəti strateji mərhələ "yaşıl hidrogen" istehsalı, intellektual nəqliyyat sistemləri və birgə investisiya fondlarının yaradılması üzərində bərqərar olacaq. Bu strateji birlik, sadəcə, siyasi ittifaq deyil, ortaq tarixi köklər üzərində qurulan, lakin gələcəyin iqtisadi məntiqinə və dayanıqlı inkişafına xidmət edən sarsılmaz bir platformadır. Bakı konfransı bir daha sübut etdi ki, C6 çərçivəsində formalaşan inteqrasiya modeli Avrasiya məkanında sülhün, rifahın və qlobal rəqabətədavamlılığın ən etibarlı təminatçısıdır. Bağlantıların gücləndirilməsi, marşrutların şaxələndirilməsi və ortaq layihələrin icrası isə Avrasiya məkanında yeni inteqrasiya modelinin sütunlarını təşkil edir. Hazırkı qeyri-müəyyənliklər dövründə məhz bu model regionun davamlı inkişafını və strateji dayanıqlığını təmin edən əsas amildir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Astana Cənubi Qafqazda sülh prosesini dəstəkləyir



**(əvvəli 1-ci səhifədə)**

Görüş zamanı həmçinin, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması məsələləri, regional kommunikasiyaların açılması, eləcə də "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) təşəbbüsünün həyata keçirilməsi nəticəsində yarana biləcək iqtisadi imkanlar ətrafında fikir mübadiləsi aparılıb. Bu kontekstdə səfir B.İmanbayev Ermənistan–Azərbaycan münasibətlərində müşahidə olunan müsbət dinamikanı yüksək qiymətləndirib və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışladığını bildirib.

Qeyd etmək lazımdır ki, A.Qriqoryanın B.İmanbayevlə görüşü formal diplomatik təmasdan daha geniş məna daşıyır. Bu görüş, əslində, Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda İrəvan–Astana münasibətlərinin hansı istiqamətdə inkişaf edə biləcəyinə dair siqnal hesab oluna bilər. Ermənistan və Qazaxıstan həm Avrasiya İqtisadi İttifaqının (Aİİ), həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləridir. Lakin bu ortaq platformalar ikitərəfli münasibətlərin real məzmununa tam çevrilə bilməmişdi. Xüsusilə Ermənistan–Azərbaycan münaqişəsinin, daha doğrusu, ölkəmizə qarşı təcavüzün davam etməsi İrəvanın bir sıra regional təşəbbüslərdə manevr imkanlarını məhdudlaşdırırdı. Rəsmi Astana isə hər zaman Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərini və türk dünyası çərçivəsində formalaşmış yaxınlığı nəzərə alaraq balanslı mövqe tuturdu. Bu səbəbdən İrəvanla əməkdaşlıq müəyyən hədlər daxilində qalır, xüsusilə təhlükəsizlik və nəqliyyat-kommunikasiya sahələrində dərin inteqrasiya müşahidə olunmurdu.

2020-ci ildən sonra yaranmış yeni reallıq və xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin paraflanması regionda keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. Sənədin paraflanması təkcə iki ölkə arasında münasibətlərin normallaşmasına doğru atılan addım deyil, həm də bütövlükdə region dövlətləri üçün yeni iqtisadi və nəqliyyat imkanlarının açılması deməkdir. Sülhün alternativi olmayan reallığa çevrilməsi artıq təkcə Bakı və İrəvanın deyil, digər region ölkələrinin, o cümlədən qazax qardaşlarımızın da maraqlarına cavab verir. Çünki Qazaxıstan üçün Cənubi Qafqaz istiqaməti strateji əhəmiyyət daşıyır. Orta Dəhlizin inkişafı, Xəzər dənizindən keçməklə Avropaya çıxış imkanlarının genişləndirilməsi, Azərbaycan ərazisindəki tranzit marşrutlarının şaxələndirilməsi Astananın xarici iqtisadi siyasətinin prioritetlərindəndir. Bu kontekstdə Qazaxıstan taxılının 2025-ci il noyabrın əvvəlindən Azərbaycan ərazisi vasitəsilə Ermənistana daşınması artıq formalaşmış praktik əməkdaşlıq nümunəsidir. Ölkəmizin liman və dəmir yolu infrastrukturu artıq Qazaxıstan üçün etibarlı tranzit platformasına çevrilib. Regionda davamlı sülh isə bu marşrutların təhlükəsizliyini və dayanıqlığını daha da möhkəmləndirir. Məhz buna görə də Ermənistan–Azərbaycan münasibətlərində müşahidə olunan müsbət dinamika Qazaxıstan tərəfindən yüksək qiymətləndirilir. Münaqişə dövründə Astana açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, eyni zamanda, Ermənistanla münasibətləri gərginləşdirməməyə çalışırdı. İndi isə münaqişənin başa çatması, regionda sülh erasının başlanması İrəvan–Astana xəttində açıq və praqmatik əməkdaşlıq üçün zəmin yaradır.

Bu mənada, Ermənistanın Baş naziri Nikol Paşinyanın Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə 2025-ci il noyabrın 20–21-də Astanaya etdiyi dövlət səfəri qeyd olunmalıdır. Həmin səfər zamanı o, Qazaxıstanın ən yüksək dövlət mükafatı olan "Altın Qıran" ordeni ilə təltif edilib. Eyni zamanda, Prezident Tokayev Paşinyanın ünvanına xeyli xoş sözlər deyib. Bütün bunlar Astananın İrəvanla münasibətlərdə yeni səhifə açmaq niyyətinin göstəricisi kimi qiymətləndirilə bilər. Əgər əvvəlki mərhələdə siyasi ehtiyatlılıq üstünlük təşkil edirdisə, indi iqtisadi praqmatizm və regional sabitlik prioritetə çevrilir.

A.Qriqoryan və B.İmanbayev arasında aparılan müzakirələrdə regional kommunikasiyaların açılması məsələsinin xüsusi yer tutması da təsadüfi deyil. Kommunikasiyaların bərpası təkcə Ermənistanın təcrid vəziyyətindən çıxması demək deyil. Bu, həm də Mərkəzi Asiya–Cənubi Qafqaz–Avropa xəttində inteqrasiya imkanlarının genişlənməsi deməkdir. Ermənistan üçün yeni tranzit imkanları, Qazaxıstan üçün alternativ marşrutlar, Azərbaycan üçün isə regional nəqliyyat qovşağı statusunun möhkəmlənməsi perspektivi formalaşır.

Görüş zamanı vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərinin alqışlanması isə ayrıca diqqətəlayiq məqamdır. Çünki sülh təkcə siyasi sənədlərlə möhkəmlənmir. İctimai təmaslar, ekspert mübadiləsi, humanitar platformalar uzunmüddətli sabitliyin sosial bazasını formalaşdırır. Əgər ictimai rəy səviyyəsində düşmənçilik ritorikası zəifləyirsə, iqtisadi əməkdaşlıq üçün daha sağlam mühit yaranır.

**Siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, məlum görüşdə məhz Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması və regional kommunikasiyaların açılması məsələlə-



rinin qabardılması təsadüfi deyil. Onun sözlərinə görə, bu, artıq Cənubi Qafqazın təhlükəsizlik gündəliyindən iqtisadi gündəliyə keçid mərhələsinə daxil olduğunu göstərir: "Region uzun illər siyasi qarşıdurma prizmasından qiymətləndirilirdisə, indi müzakirələrin mərkəzinə nəqliyyat xətləri, logistika marşrutları və yeni bazar imkanları çıxır. Bu dəyişiklik isə yalnız iki ölkə üçün deyil, bütövlükdə Avrasiya məkanında marağı olan aktorlar üçün əhəmiyyətlidir. Görüşdə TRIPP layihəsinin adının çəkilməsi göstərir ki, söhbət təkcə lokal kommunikasiya xətlərindən getmir. Burada daha geniş coğrafiyanı əhatə edən və siyasi sabitliyi iqtisadi əməkdaşlıqla möhkəmləndirməyi hədəfləyən bir yanaşma nəzərdə tutulur. Belə təşəbbüslər yalnız o halda işlək olur ki, region ölkələri arasında minimal etimad mühiti formalaşsın. Ermənistan–Azərbaycan xəttində müşahidə olunan müsbət dinamika da məhz bu zəruri şərti təmin edən əsas amildir".

Ekspert, həmçinin qeyd etdi ki, Mərkəzi Asiyanın Qazaxıstan mühüm dövləti üçün Cənubi Qafqazda sabitlik strateji məsələdir: "Astana üçün alternativ nəqliyyat dəhlizlərinin təhlükəsiz və proqnozlaşdırıla bilən olması prioritetdir. Əgər regionda gərginlik davamlı xarakter daşısaydı, iri iqtisadi layihələrin icrası risk altına düşərdi. Bu baxımdan Qazaxıstan səfirinin normallaşma prosesini yüksək qiymətləndirməsi diplomatik etiketdən daha çox, praqmatik maraqların ifadəsi kimi görünür. Ümumilikdə, bu müzakirələr göstərir ki, region artıq postmünaqişə mərhələsində özünü yeni iqtisadi arxitektura daxilində təsəvvür etməyə başlayıb. Kommunikasiyaların açılması və beynəlxalq təşəbbüslərin inteqrasiyası Cənubi Qafqazı tranzit və əməkdaşlıq mərkəzinə çevirə bilər. Bu isə həm regional, həm də qlobal oyunçular üçün strateji dividendlər vəd edir".

***Səxavət HƏMİD***
***XQ***

# Cenevrə prosesi Ukraynaya sülh gətirəcəkmi?

**Cenevrədə Ukrayna, ABŞ və Rusiya nümayəndə heyətlərinin iştirakı ilə keçirilən üçtərəfli danışıqlar Rusiya–Ukrayna müharibəsinin mümkün atəşkəs mərhələsinə keçidi baxımından müəyyən taktiki irəliləyiş siqnalları versə də, strateji və siyasi müstəvidə həlledici nəticələr ortaya qoymayıb. Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, danışıqlarda xüsusilə atəşkəsin monitorinq mexanizmləri üzrə müəyyən yaxınlaşma əldə olunub və ABŞ tərəfinin bu prosesdə iştirak etməsi nəzərdə tutulur. Onun sözlərinə görə, hərbi istiqamətdə tərəflər prinsipial anlaşmaya xeyli yaxınlaşıblar və mütəxəssislər səviyyəsində atəşkəsə nəzarətin necə həyata keçirilə biləcəyi barədə ortaq anlayış formalaşıb.**



Bu, o deməkdir ki, texniki baxımdan monitorinq mexanizmi, daha dəqiq desək, insidentlərin qeydə alınması, məlumat mübadiləsi, nəzarət alətləri və beynəlxalq iştirak ilkin çərçivədə razılaşdırıla bilər. Lakin prosesin reallaşması üçün əsas şərt siyasi iradənin mövcudluğudur. Prezident Zelenskinin açıqlamasından aydın olur ki, hərbi kanalda konstruktivlik daha yüksək səviyyədədir, siyasi blokda isə ziddiyyətlər qalır. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Andrey Qnatovun Cenevrədən qayıtdıqdan sonra texniki detallarla bağlı geniş hesabat təqdim edəcəyi gözlənilir ki, bu da mexanizmin hələ tam formalaşmadığını göstərir.

Siyasi istiqamətdə isə əsas mübahisə mövzuları dəyişməz olaraq qalır: şərq bölgələrinin statusu, təhlükəsizlik təminatları və Rusiyaya qarşı tətbiq edilən sanksiyaların perspektivi. Kiyev ərazi bütövlüyü prinsipindən geri çəkilməyəcəyini bəyan edir, Moskva isə faktiki nəzarətdə saxladığı ərazilərlə bağlı mövqeyini qoruyur. Bu ziddiyyətlər səbəbindən hərbi-texniki razılaşma ilə siyasi kompromis arasında ciddi məsafə mövcuddur. Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstem Umerov bildirib ki, təhlükəsizlik parametrləri və mümkün qərarların icra mexanizmləri müzakirə olunub, bəzi məsələlər dəqiqləşdirilsə də, əlavə razılaşdırma tələb edən istiqamətlər qalır.

Qərb mediasında danışıqların ilk günü ilə bağlı skeptik mövqe üstünlük təşkil edir. Xüsusilə "Axios" siyasi danışıqların dalana dirəndiyini yazmışdı. Buna baxmayaraq, hərbi istiqamətdə əldə olunan nisbi irəliləyiş prosesin tam iflasa uğramadığını göstərir. Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski danışıqları "ağır, lakin işgüzar" kimi xarakterizə edib və yeni raundun yaxın vaxtlarda keçiriləcəyini bildirib ki, bu da tərəflərin dialoqu davam etdirmək niyyətində olduqlarını göstərir.

Strateji baxımdan mövcud mənzərə belə qiymətləndirilə bilər: hərbi-texniki səviyyədə atəşkəsin monitorinqi üzrə konturlar formalaşır və ABŞ-ın iştirakı prosesə beynəlxalq legitimlik elementi əlavə edir. Lakin siyasi səviyyədə ərazi, təhlükəsizlik zəmanətləri və sanksiyalar kimi fundamental məsələlər üzrə ortaq mövqe yoxdur. Bu isə Cenevrə prosesinin hələlik müharibənin yekun siyasi həll mərhələsinə keçid deyil, mümkün atəşkəs arxitekturasının ilkin modelinin qurulması mərhələsində olduğunu göstərir. Davamlı və ədalətli sülh üçün tərəflərin yalnız hərbi mexanizmlər deyil, siyasi kompromis üçün də real iradə nümayiş etdirməsi əsas şərt olaraq qalır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Tiranada MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi

## *Leyla Əliyeva və Arzu Əliyeva mərasimdə iştirak ediblər*





**Tiranada Albaniyanın Baş nazirinin iqamətgahında MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb. Sərginin açılışında Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.**






Tədbirdə çıxış edən Leyla Əliyeva ekspozisiyada yer alan rəsmlər, heykəllər və instalyasiyalar vasitəsilə sənətkarların təbiətin gücünü, gözəlliyini və kövrəkliyini nümayiş etdirdiyini vurğulayıb. O, bu sərginin təbiəti qorumaq məqsədilə sənətimizin sərhədləri aşmasının mükəmməl bir nümunəsi olduğunu qeyd edib.

Sərgi haqqında məlumat verən Leyla Əliyeva mənəvi zənginliyi və səmimiyyəti ilə seçilən gözəl ölkədə olmaqdan məmnunluğunu ifadə edərək deyib: "Azərbaycan və Albaniyanı siyasi sərhədləri aşan sıx dostluq və dərin münasibətlər birləşdirir. Ölkələrimiz müasir dünyada böyük ehtiyac duyulan humanizm, xeyirxahlıq, ləyaqət və qarşılıqlı hörmət kimi ali dəyərləri paylaşır".

O, həmçinin Baş nazir Edi Ramanın və tanınmış alban rəssamı Arben Qoleminin əsərlərinin bu sərgidə təqdim olunmasının onun üçün böyük şərəf olduğunu, bu gün burada Bakıdan olan dörd rəssamın iştirak etməsindən və onların öz müsbət təcrübələrini bölüşərək yaradıcılıqları haqqında şəxsən məlumat vermək imkanından böyük məmnunluq duyduğunu qeyd edib.

Leyla Əliyeva bəşəriyyətin təbiətə vurduğu zərərdən də söz açaraq deyib: "Hər il dünyada 10 milyon hektar meşə sahəsi məhv edilir. İnsanlıq vəhşi heyvanların 83 faizini, bitkilərin isə yarısını yox edib. Hər il planetimizdən 200 canlı növü silinir və okeanların 66 faizi birbaşa insan fəaliyyətinin mənfi təsirlərinə məruz qalır. Azərbaycanın zəngin ekosistemi də bu proseslərdən kənarda qalmır. Xəzər dənizinin səviyyəsi xeyli aşağı düşüb. Xəzər suitisi, qızılbalıq və nərə balığı kimi heyrətamiz canlı növləri yox olmaq təhlükəsi ilə üzləşib".

Albaniyanın Baş naziri Edi Rama sərgidə Leyla Əliyevanın əsərləri də daxil olmaqla, təbiətin mühafizəsi ilə incəsənətin vəhdətini nümayiş etdirən rəsmləri görməkdən şərəf duyduğunu qeyd edib. Baş nazir bu sərginin iki ölkənin dostluğunda yeni bir səhifə açaraq, bura mədəniyyət və yaradıcılıq ruhu gətirdiyini söyləyib. Edi Rama sərginin davam etdiyi bir ay ərzində hər bir tamaşaçının buradan özü ilə rənglərin və xəyalların bir parçasını aparacağını bildirib.

Sonra qonaqlar sərgidə nümayiş olunan əsərlərlə tanış olublar. Xalq rəssamı Elena Haqverdiyeva sərgidə nümayiş olunan əsərinin "Daxili bağlar" adlandığını diqqətə çatdırıb. Sərgidə əsəri nümayiş olunan rəssam Nərgiz Quliyeva isə MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisində iştirak etməkdən böyük şərəf duyduğunu bildirib. O, burada təqdim olunan əsərində afrikalı bir qadını təsvir etdiyini söyləyib. Sərgidə təqdim edilən əsərlərinin mikroorqanizmlərin sirli dünyasına həsr olunduğunu qeyd edən rəssam Elnarə Nəsirli yalnız mikroskopla seçilə bilən, gözlərimizdən gizlənən o möhtəşəm kainatı tamaşaçıya çatdırmaq istədiyini bildirib. Bu layihədə iştirak etməyin onun üçün qürurverici olduğunu diqqətə çatdıran rəssam Ceyhun Abdullayev sərgilənən əsərinin "Yeni həyat" adlandığını bildirib: "Burada hamilə qadın obrazı təsvir olunub. Arxa fonda təbiət təsvirlərinə yer vermişəm, çünki övlad dünyaya gətirməyin özü elə yeni bir həyatdır".

***XQ***



# Azərbaycan–C6 ölkələrinin beyin mərkəzlərinin konfransı



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə Bakıda Azərbaycan–C6 (Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri) ölkələrinin beyin mərkəzlərinin konfransı təşkil edilib.**

"C6: Vahid region, ortaq gələcək - strateji dialoqun gücləndirilməsi" mövzusuna həsr edilən beynəlxalq tədbirdə C6-ya üzv ölkələrin aparıcı beyin mərkəzlərinin nümayəndələri də daxil olmaqla, ümumilikdə 60-a yaxın iştirakçı təmsil olunub.

Konfransın açılışında çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, 2025-ci ilin noyabrında Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərinə tamhüquqlu üzv kimi qoşulması regional əməkdaşlıq baxımından mühüm mərhələdir. Onun sözlərinə görə, bu addım Xəzər dənizi hövzəsi boyunca inteqrasiya olunmuş geoiqtisadi və geosiyasi məkanın formalaşmasına töhfə verəcək və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrini daha da gücləndirəcək.



Daha sonra çıxış edən Türkmənistan Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Şiri Şiriyev Azərbaycanın Mərkəzi Asiya Liderlərinin Məşvərət Görüşlərinə qoşulmasını regional əməkdaşlıq tarixində yeni mərhələ kimi qiymətləndirib. Onun sözlərinə görə, C6 yalnız dialoq platforması deyil, həm də qlobal qeyri-sabitlik şəraitində ortaq həllər tapmağa, qarşılıqlı faydaya əsaslanan dayanıqlı iqtisadi əlaqələr qurmağa, eləcə də humanitar əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə etimadı gücləndirməyə imkan verən canlı mexanizmdir.

Konfrans işini tematik mövzular üzrə sessiyalarla davam etdirib.

***

**Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun şöbə müdiri Azamat Sulimanovun moderatorluğu ilə keçirilən "Dialoqdan dayanıqlı mexanizmlərə: C6 əməkdaşlığının gələcəyi" mövzusunda birinci sessiyada formal institutların zəruriliyi və çevik əməkdaşlıq formatlarının səmərəliliyi müzakirə edilib.**

Müzakirələrdə Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Cavid Vəliyev, Qazaxıstan Strateji Araşdırmalar İnstitutunun baş elmi əməkdaşı Sanat Kuşkumbayev, Qırğız Prezidenti yanında Milli Strateji Təşəbbüslər İnstitutunun Analitika və Koordinasiya şöbəsinin baş eksperti Temirlan Razbayev, Qazaxıstan Prezidenti yanında Milli Qurultayın üzvü Talqat Kaliyev, Qırğızıstandan olan politoloq Şeradil Baktuqulov çıxış ediblər.

Sessiya çərçivəsində mövcud mexanizmlər - məsləhətləşmə platformaları, ekspert şəbəkələri və iqtisadi təşəbbüslər dəyərləndirilib. Həmçinin regional dialoqun institusionallaşdırılmasında beyin mərkəzlərinin rolu, C6 ölkələrinin beynəlxalq platformalarda mövqelərinin əlaqələndirilməsi və humanitar əməkdaşlığın davamlı mexanizmlərə çevrilməsi məsələləri diqqət mərkəzində olub.

***

**BMTM-in baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən "Əlaqəlilik və inkişaf: C6 əməkdaşlığının iqtisadi ölçüsü və dayanıqlı inkişaf" sessiyasında isə Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktoru Javlon Vahabov, Türkmənistan XİN yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Şiri Şiriyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə, Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi Aytən Turabova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Roza Bayramlı çıxış ediblər.**

Sessiyada Trans-Xəzər regionu və Orta Dəhliz çərçivəsində regional sinerji və rəqabət məsələləri müzakirə olunub. Həmçinin C6 ölkələri arasında enerji əməkdaşlığı, investisiya imkanları və mövcud maneələr, eləcə də ekoloji çağırışlar və etimadın möhkəmləndirilməsi kimi mövzulara toxunulub. Bununla yanaşı, iqtisadi əməkdaşlığın dayanıqlı mexanizmlərə çevrilməsi yolları da əsas müzakirə istiqamətlərindən biri olub.

***

BMTM-in baş məsləhətçisi Roza Bayramlının moderatorluğu ilə keçirilən "Qlobal qeyri-sabitlik şəraitində C6 regional təhlükəsizliyi" mövzusundakı sessiyada təhlükəsizlik sahəsində mövcud ümumi və fərqli təhdidlər təhlil edilib. Qazaxıstanın Asiya Araşdırmaları İnstitutunun direktoru Sultan Akimbekovun, Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun direktorunun birinci müavini Akramjon Nematovun, Tacikistan Prezidenti yanında Strateji Tədqiqatlar Mərkəzinin Sosial məsələlərin təhlili, miqrasiya və ictimai rəyin öyrənilməsi idarəsinin rəisi Baxtiyor Xamdamovun, Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktoru Fərhad Məmmədovun, politoloq İlqar Vəlizadənin iştirak etdiyi müzakirələrdə bloklaşma yaratmadan hərbi-siyasi əməkdaşlığın təşviqi, xarici aktorlarla münasibətlərdə balansın qorunması və regionun strateji muxtariyyətinin təmin olunması məsələlərinə xüsusi diqqət yetirilib. Sessiya iştirakçıları qlobal qeyri-sabitlik fonunda C6 regionunun dayanıqlılığını artıran praktik yanaşmaları və səmərəli əməkdaşlıq mexanizmlərini müzakirə ediblər.

***XQ***

# Rusiyanın dostları və dost olmayanlar

## *Azərbaycan MTKİİ-nin reytinqində geriləyirsə...*



**Rusiyada Milli Tədqiqat Kommunikasiyaların İnkişafı İnstitutu (MTKİİ) adlandırılan bir təşkilat var ki, hər il postsovet ölkələrinin kommunikasiya rejimlərinin dostluq səviyyəsi üzrə monitorinq aparır və reytinq müəyyənləşdirir. İlk baxışdan, burada təəccüblü heç nə yoxdur. Ancaq belə bir tədqiqatın aparılmasında mühüm psixoloji aspekt var. İstər-istəməz, sual yaranır: Belə bir monitorinq hansı zərurətdən meydana çıxır? Digər sual da odur ki, nəyə görə postsovet məkanında Rusiyaya münasibətdə dostluq nümayiş etdirməyən ölkələr var? Əlbəttə, sözügedən məkandakı bütün ölkələrin Rusiyaya qarşı müsbət mövqe tutmaları mümkünsüzdür. Axı, loru dildə desək, bu ölkə pul deyil ki, hamı onu xoşlasın? Amma...**

"Əmması" MTKİİ-nin apardığı araşdırmanın zəruriliyini doğuran səbəbdir. Rusiya postsovet məkanında elə bir durum yaradıb ki, ona, böyük ölçüdə, dostluq münasibəti duyulmur. Yaxud ölkədə Rusiyaya qarşı dostluğun duyulmadığını bilənlər olduğundan belə bir reytinq müəyyənləşdirilir. Bu məqama sonda qayıdacağıq. MTKİİ-nin reytinqinə diqqət yetirərək deyək ki, orada ilk iki yeri Cənubi Osetiya və Abxaziya tutur. Onların ikisi də separatçı qurumlardır. O qurumlar ki, Rusiya tərəfindən yaradılıb və mövcudluqları Gürcüstanın beynəlxalq hüquqla tanınmış ərazilərinin işğalının nəticəsidir. Elə isə sual olunur: hansı ölkə işğalla barışar? Heç biri və bu amil ikitərəfli münasibətlərdə problem yaratmalıdır və yaradır da. Bəli, indiki durumda Cənubi Osetiya və Abxaziya postsovet məkanı deyil və həmin məkanın qondarma subyektləridir. Amma, belə demək mümkünsə, dostluq reytinqi müəyyənləşdirən MTKİİ bunun fərqində deyil. Qurumun siyahısında üçüncü yeri Belarus tutur. Əslində, adlarını qeyd etdiyimiz separatçı respublikaları saymasaq, bu ölkə birinci yerdə qərarlaşmalı idi. Çünki Minskin Moskva ilə əlaqələri kifayət qədər yüksək səviyyədədir...

Qeyd edək ki, MTKİİ-nin "dostluq reytinqi"ndə 16 postsovet subyektinin adı yer alıb. Maraqlı cəhət Cənubi Osetiya və Abxaziyanın müstəqil dövlətlər kimi götürüldüyü siyahının onluğunun Rusiyaya dostluq münasibəti ilə seçilənlər kimi göstərilməsidir. Yeri gəlmişkən, onluqda Azərbaycanın da adı var. Ancaq bir pillə geriləyib. 2024-cü ildə 8-ci idik, 2025-ci ildə 9-cu yerdəyik. 9-cu olan Ermənistan artıq 8-cidir. Siyahıda 4, 5, 6, 7 və 10-cu yerləri müvafiq olaraq Qırğızıstan, Qazaxıstan, Tacikistan, Özbəkistan və Türkmənistan tutur. 11-ci yerdə qərarlaş(dırıl)mış Gürcüstan isə "qismən dost ölkə" kimi qiymətləndirilib. Rusiyaya dost olmayanlara gəlincə, bunlar – Moldova (12), Litva (13), Latviya (14) və 15-ci pillədəki Estoniyadır. Siyahını Ukrayna tamamlamasaydı, təəccüblənərdik.

***

MTKİİ-nin direktoru Vladislav Qasumyanov əslən ermənidir. O, yeni reytinq cədvəli ilə bağlı açıqlamasında rəhbərlik etdiyi qurumun işinin fəlsəfəsini anlatmağa çalışaraq deyib ki, kommunikasiya rejimlərinin təhlili Rusiya üçün siyasi qərarların əsaslandırılması və effektivliyinin artırılması, müxtəlif milli kontekstlərdə siyasətin dərk edilməsi, eləcə də tərəfdaşlarla qarşılıqlı fəaliyyətdə münaqişə risklərinin və strateji yanlış hesablamaların azaldılması baxımından mühüm alətdir.

V.Qasumyanov bildirib ki, MTKİİ-nin tədqiqatının yönəldiyi postsovet məkanı Rusiyanın xarici kommunikasiyalar sistemində xüsusi yer tutur. "Rusiya üçün bu, xarici periferiya deyil, ən yaxın tarixi, mədəni və sosial əhatədir. Bu regionun ölkələri Rusiya ilə insan, dil, təhsil, iqtisadi və infrastruktur əlaqələri şəbəkəsi ilə bağlıdırlar. Bu əlaqələr onilliklər ərzində formalaşıb, siyasi fikir ayrılıqları və geosiyasi böhranlar şəraitində belə mövcudluğunu davam etdirir", - deyən direktor əlavə edib ki, məhz postsovet məkanında təhlükəsizlik, miqrasiya, iqtisadi əməkdaşlıq, energetika, humanitar mübadilə və identiklik məsələləri kəsişir. Buna görə də ən yaxın qonşularla kommunikasiyaların dayanıqlılığı və keyfiyyəti birbaşa regional sabitliyə və inkişafın proqnozlaşdırıla bilməsinə təsir göstərir.

V.Qasumyanovun sözlərinə görə, postsovet ölkələrinin çoxvektorlu siyasəti şəraitində Rusiya artıq eksklüziv tərəfdaş olmaqdan çıxır. Bu isə o deməkdir ki, Kremlə formal diplomatik və ya iqtisadi əlaqələri qorumaq kifayət etmir. Müxtəlif ölkələrdə ictimai məkana çıxış şərtlərinin necə dəyişdiyini, əməkdaşlıq üçün hansı maneələrin yarandığını, konkret milli kontekstlərdə hansı qarşılıqlı fəaliyyət formatlarının legitim və effektiv qaldığını anlamaq zəruridir.

Ən başlıcası, MTKİİ-nin direktoru deyib ki, postsovet ölkələri açıqlıq səviyyəsinə, xarici aktorlardan asılılığa və Rusiyaya münasibətinə görə fərqlənirlər. Rusiya ilə dostluq haqqında rəsmi ritorika mövcud olsa belə, real kommunikasiya imkanları ciddi şəkildə fərqlənir. Buna görə də hamı üçün eyni və universal yanaşmalar işləmir. Mühüm məqamlardan biri də V.Qasumyanovun növbəti fikirləridir. Onun dediyinə görə, monitorinqin əhəmiyyəti yalnız Rusiyanın maraqları ilə məhdudlaşmır. Postsovet ölkələri üçün bu iş onların özlərinə kənardan baxmaq alətidir. Yəni tədqiqat həmin ölkələrin qərarlarının ümumi effektini və real nəticələrini görmələri üçün imkandır: "Monitorinqin nəticələri çoxvektorlu xarici siyasət yürüdən ölkələri öz subyektliyini qorumaq barədə düşünməyə vadar edir. Bu, müxtəlif güc mərkəzləri arasında yol verilən manevr sərhədlərini anlamağa, humanitar və ictimai əlaqələrdə kəskin qırılmalar olmadan daha çevik balanslaşdırma modelləri qurmağa kömək edir. Beləliklə, postsovet ölkələri üçün kommunikasiya rejimlərinin monitorinqi özünüdərk, idarəolunmanın artırılması və münaqişə risklərinin azaldılması alətidir".

Rusiyaya gəlincə, V.Qasımyanovun fikrincə, monitorinq ölkənin regionda və dünyada rolunu anlamasının praktik üsuludur: "Resurslar və ərazilərlə yanaşı, normalar və qarşılıqlı fəaliyyət formatları uğrunda rəqabətin gücləndiyi şəraitdə ən yaxın qonşularla dayanıqlı və qarşılıqlı məqbul kommunikasiyalar qurmaq bacarığı dəyişən dünyada təsir imkanlarını qorumasının şərtlərindən birinə çevrilir".

***

Göründüyü kimi, MTKİİ-nin tədqiqatının rəsmi Moskvanın yol verdiyi nöqsanları görməsi üçün də şərait yaradır. Ancaq bütövlükdə Rusiya ictimaiyyətinin postsovet məkanına həssas yanaşması vacibdir. Həssaslıq isə imperiya ambisiyalarının bir kənara qoyulmasından keçir. Ancaq bunu bir çox hallarda görmürük. Məsələn, MTKİİ-nin monitorinq nəticələrinin təqdimatı zamanı çıxış edən rusiyalı politoloq Yevgeni Minçenko diqqəti Azərbaycanın Qarabağdakı separatçı rejimdə qondarma "dövlət naziri" postunu tutmuş Ruben Vardanyanın Bakı Hərbi Məhkəməsi tərəfindən 20 il müddətinə azadlıqdan məhrum etməsinə çəkib: "Hazırda iki həssas nöqtə var: Ermənistan və Azərbaycan. Üstəlik, bu ölkələr indi müəyyən yaxınlaşma mərhələsindən keçirlər. Daha doğrusu, bu ölkələrin elitaları yaxınlaşır. Bu mənada Rusiya faktoru onlar üçün artıq ikinci plana keçir".

Politoloq Minçenkonun sözlərindən belə çıxır ki, Azərbaycan və Ermənistan arasında yaxınlaşma baş verməsəydi, onlar üçün Rusiya faktoru ikinci plana keçməzdi. Yaxud bu iki Cənubi Qafqaz ölkəsi daim bir-biri ilə ziddiyyətdə olmalı idilər ki, Rusiyaya önəm versinlər. Əslində, bu, yalnız bir politoloqun mövqeyi deyil, ümumən, Kremlin düşüncə sisteminin qənaətidir. Ona görə də Vardanyan barədəki qərar sanki Bakı ilə İrəvanın Rusiyaya münasibətdəki müştərək əks addımı olaraq qiymətləndirilir. Halbuki, belə yanaşma absurddur.

Həm də ona görə absurddur ki, Rusiya siyasətini, habelə postsovet məkanına münasibətini imperiyalara xas "parçala, hökm sür" siyasətinə uyğun qurmamalıdır. Bu gün ölkədə minçenkolar varsa, deməli, siyasət ənənəvi neqativ xarakterini dəyişməyib. Əslində, MTKİİ-nin tədqiqatı ilə bağlı reallıqdan qaynaqlanan bəzi pozitiv məqamları nəzərə alsaq da, təkcə Cənubi Osetiya və Abxaziya kimi separatçı qurumların dövlət olaraq təqdimatı, həmçinin digər cəhətlərdən də tam aydındır ki, qurumun böyük ölçüdəki işi məhz imperiya siyasətinin toxunulmazlığını təmin etmək məramından qaynaqlanır. Buna görə də Azərbaycan kimi müstəqil xarici siyasət yürüdən ölkənin MTKİİ-nin reytinqində geriləməsində heç bir problem yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–BƏƏ iqtisadi tərəfdaşlığının strateji hədəfləri



**Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələr son illər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bu mərhələnin mühüm hadisələrindən biri BƏƏ-nin iqlim və ətraf mühit naziri Amna Al Dahakın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri oldu. Səfər çərçivəsində keçirilən görüşlər və imzalanan sənədlər göstərdi ki, Bakı–Əbu-Dabi xətti strateji iqtisadi tərəfdaşlıq platforması üzərində inkişaf edir.**

Səfərin əsas istiqamətlərindən biri Azərbaycan–BƏƏ qida və kənd təsərrüfatı üzrə işgüzar dəyirmi masa oldu. Tədbirdə hər iki ölkənin aqrar və qida sənayesi sektorunu təmsil edən şirkətlər iştirak etdi, yeni bazar imkanları və birgə investisiya perspektivləri müzakirə olundu. Azərbaycan tərəfi xüsusilə kənd təsərrüfatı məhsullarının ixracının genişləndirilməsi, emal sənayesində əməkdaşlıq və logistika imkanlarının artırılması məsələlərini önə çıxardı.

Bu çərçivədə Azərbaycanla BƏƏ arasında heyvan sağlamlığı və qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalandı. Memorandum iki ölkə arasında baytarlıq nəzarəti, sertifikatlaşdırma mexanizmləri və qida təhlükəsizliyi standartlarının uyğunlaşdırılması baxımından mühüm hüquqi baza yaradır. Bu sənəd təkcə ticarət dövriyyəsini artırmaq üçün deyil, həm də ixrac edilən məhsulların keyfiyyət və təhlükəsizlik təminatının möhkəmləndirilməsi üçün strateji əhəmiyyət daşıyır.

İlk olaraq qeyd edək ki, 2025-ci ilin iyulunda imzalanan və qüvvəyə minən Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi (CEPA) ticarətin liberallaşdırılması və investisiya axınlarının diversifikasiyası üçün əsas katalizator rolunu oynayır. Digər tərəfdən, Azərbaycan İnvestisiya Holdinqi və Abu-Dabi İnkişaf Holdinq Şirkəti tərəfindən yaradılan fond uzunmüddətli strateji layihələrin maliyyələşdirilməsinə xidmət edir. 2025-ci ilin sonunda azərbaycanlı mütəxəssislərin BƏƏ-nin əmək bazarında, xüsusilə yüksək texnologiyalar və xidmət sahələrində işlə təmin olunması istiqamətində yeni əməkdaşlıq platformaları qurulub.

Səfər çərçivəsində İqtisadiyyat Nazirliyində keçirilən görüş isə tərəfdaşlığın daha geniş mənzərəsini ortaya qoydu. Görüşdə Azərbaycan–BƏƏ əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulandı və əməkdaşlığın çoxşaxəli xarakter daşıdığı qeyd edildi. İqtisadi-ticari əlaqələrlə yanaşı, enerji, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kənd təsərrüfatı, mədəni və humanitar sahələr üzrə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Bu, onu göstərir ki, tərəflər iqtisadi əlaqələri yalnız mal mübadiləsi çərçivəsində deyil, uzunmüddətli investisiya və texnologiya transferi müstəvisində qurmağa çalışırlar.

Ümumiyyətlə, iki ölkə arasında ticarət dövriyyəsi son illərdə sürətlə artmaqdadır. 2024-cü ildə BƏƏ ilə Azərbaycan arasındakı qeyri-neft ticarətinin həcmi 2,4 milyard dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 43 faiz artım deməkdir. 2025-ci ilin ilk 9 ayında ticarət dövriyyəsi 125,9 milyon dolları keçərək 73,2 faiz artıb. Həmin ilin yanvar–noyabr aylarında Azərbaycanın BƏƏ-yə qeyri-neft ixracı 2,1 dəfə artaraq 105,9 milyon dollara yüksəlib. BƏƏ və Azərbaycan arasındakı qarşılıqlı investisiyaların ümumi həcmi isə hazırda 1 milyard dollara çatıb.

Azərbaycanın enerji gündəliyində bərpaolunan enerji prioritet istiqamətə çevrilib. BƏƏ şirkətlərinin, xüsusilə Masdar kimi qurumların Azərbaycanda həyata keçirdiyi layihələr artıq praktik nəticələr verir. Günəş və külək enerjisi sahəsində reallaşdırılan layihələr Azərbaycanın enerji balansında “yaşıl pay”ın artmasına xidmət edir.

Bu əməkdaşlıq yalnız istehsal güclərinin artırılması ilə məhdudlaşmır. Gələcək perspektivdə “yaşıl enerji koridoru” ideyası çərçivəsində istehsal olunan elektrik enerjisinin ixracı da nəzərdə tutulur. Bu isə Azərbaycanı regional enerji habı statusundan “yaşıl enerji” ixracatçısına doğru aparan strateji xəttin tərkib hissəsidir.

BƏƏ-nin "Masdar" şirkəti Azərbaycanda yaşıl enerji keçidinin əsas investorudur. 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının ardınca, Biləsuvar və Neftçala günəş, həmçinin Abşeron-Qaradağ külək elektrik stansiyaları kimi yeni layihələr icra olunur.

Azərbaycan üçün bu tərəfdaşlıq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi və “yaşıl transformasiya” strategiyasının sürətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. BƏƏ üçün isə Azərbaycan regionda etibarlı tərəfdaş, enerji və logistika baxımından strateji körpü rolunu oynayır.

Beləliklə, Bakı–Əbu-Dabi xətti artıq diplomatik münasibətlərin çərçivəsini aşaraq, iqtisadi gələcəyin birgə memarlığına doğru inamlı addımlar atır.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü**

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında strateji münasibətlər mövcuddur və bu münasibətlərin davamlı inkişafı həm qarşılıqlı investisiya qoyuluşlarına, həm də ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərir. Nəzərə alsaq ki, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanda yaşıl enerjiyə ən çox investisiya yatıran ölkələrdən biridir, alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında uzunmüddətli əməkdaşlıq formalaşıb və bu əməkdaşlıq getdikcə daha da dərinləşir.

Strateji müstəvidə dövlətlər qarşılıqlı şəkildə bir-birini dəstəkləyir. Rəsmi səfərlər, cənab Prezidentin Birləşmiş Ərəb Əmirliklərinə səfərləri zamanı aparılan müzakirələr və əldə edilən razılaşmalar iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir.

Eyni zamanda, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan üçün qeyri-neft məhsullarının ixracı baxımından mühüm bazarlardan birinə çevrilə bilər. Çünki qeyri-neft ixracında bazarların şaxələndirilməsi əsas prioritetlər sırasındadır. Şaxələndirmə ixracda məhsul çeşidinin genişlənməsinə, diversifikasiyanın güclənməsinə və Azərbaycan məhsullarının yeni bazarlara çıxışına şərait yaradır. Bu isə Azərbaycan biznesi üçün yeni imkanlar deməkdir.

Bu istiqamətdə Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığın genişlənməsi Azərbaycan üçün ixrac baxımından yeni perspektivlər vəd edir. Bu, yalnız yaşıl enerji və digər strateji sahələrdə əməkdaşlığın dərinləşməsi ilə məhdudlaşmır, eyni zamanda, iş adamları arasında əlaqələrin daha dinamik inkişafına təkan verir. Qarşılıqlı investisiyaların artması və ticarət dövriyyəsinin genişlənməsi hər iki dövlətin bu əməkdaşlıqdan qarşılıqlı fayda əldə etməsi deməkdir.

## Payızlıq əkinlər subsidiyalaşdırılır

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) 2025–2026-cı əkin ili üzrə subsidiya ödənişinin ilkin mərhələsinə start verib. Qurumun məlumatına görə, payızlıq əkinlər üzrə 217 min 617 fermerin kart hesablarına 77 milyon 154 min manat subsidiya köçürülüb. Ödənişlər, təxminən, 391 min hektar əkin sahəsini əhatə edir.**




Fermerlər kartlarına köçürülmüş vəsaitin 25 faizini nağd, 75 faizini isə qeyri-nağd qaydada istifadə edə bilərlər. Qeyri-nağd vəsaitlər mineral gübrə, pestisid, biohumus, herbisid və toxumların alınmasına sərf oluna bilər. Fermerlər subsidiya vəsaitini meyvə bağlarında müasir suvarma sistemlərinin alınması və quraşdırılması məqsədilə də istifadə edə bilərlər.

Hazırda Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan edilmiş payızlıq əkinlər üzrə məlumatların və torpaq sənədlərinin yoxlanılması davam edir. Monitorinqləri başa çatan və tələb olunan sənədləri sistemə daxil edən fermerlərin ödənişləri mərhələli qaydada həyata keçirilir.

## Masallı Sənaye Məhəlləsinin yeni rezidenti

**“Azmer Group” MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Masallı Sənaye Məhəlləsinin rezidenti statusu verilib. Qurum burada investisiya dəyəri 1,3 milyon manat təşkil edən layihə çərçivəsində aqrar sahədə istifadə olunan plastik taralar istehsal ediləcək.**




Xatırladaq ki, Masallı Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyun tarixli sərəncamı ilə yaradılıb. Bunda məqsəd sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarət olub. Sənaye məhəlləsi 10 hektar ərazini əhatə edir.

Ötən müddətdə Masallı Sənaye Məhəlləsində 11 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bunun da hesabına 400-ə yaxın daimi iş yeri yaradılıb.

***XQ***

# bp BDU-da rəqəmsal kitabxana yaradıb

**bp şirkəti Bakı Dövlət Universitetində (BDU) rəqəmsal şəkildə idarə olunan müasir kitabxananın yaradılmasını nəzərdə tutan sosial investisiya layihəsini uğurla başa çatdırıb.**



Bu münasibətlə dünən BDU-da təqdimat mərasimi keçirildi. Rəqəmsal kitabxananın istifadəyə verilməsinə həsr olunmuş mərasimi BDU-nun rektoru Elçin Babayev açaraq bp şirkətinin ölkəmizdə təhsilin inkişafına verdiyi töhfələri yüksək dəyərləndirdi. Rektor rəhbərlik etdiyi tədris müəssisəsi ilə bp arasında əməkdaşlıq çərçivəsində həyata keçirilmiş layihələrdən bəhs etdi. Onun sözlərinə görə, bp-nin maliyyə dəstəyi ilə yaradlmış yeni rəqəmsal kitabxana tələbələr və müəllim heyəti üçün geniş bilik bazasına məsafədən və birbaşa çıxış imkanı yaratmaqla BDU-da təhsil prosesini əhəmiyyətli dərəcədə gücləndirməyə kömək edəcək.

Bildirildi ki, hazırda BDU-nun mövcud kitabxanasında, təxminən, 2,5 milyon nadir kitab, əlyazma və tarixi sənədlər saxlanılır. Yeni sistem müasir rəqəmsal arxivləşdirmə və inventar idarə etməsi təcrübələrini tətbiqi ilə bu dəyərli kitabxana fondunun qorunması və saxlanmasının təkmilləşdirilməsinə kömək edəcək.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli Bakı Dövlət Universitetinin müasir, rəqəmsal imkanlarla təchiz olunmuş kitabxana sisteminə keçidini dəstəkləməkdən qürur duyduğunu diqqətə çatdırdı. Biliklərə çıxışın uğurlu təhsil prosesinin əsasını təşkil etdiyini vurğulayan regional prezidentin sözlərinə görə, rəqəmsal kitabxana layihəsi tələbələr, müəllimlər və tədqiqatçılar üçün öyrənmə, innovasiya və əməkdaşlıq baxımından yeni geniş platforma təmin edir: “Hesab edirik ki, bu təşəbbüs bugünün tələblərinə fayda verməklə yanaşı, eyni zamanda, universitetin əvəzolunmaz bilik fondunun gələcək nəsillər üçün qorunub saxlanılmasına da töhfə verir. Bu, həmçinin bp-nin Azərbaycanda ali təhsilin və elmi tədqiqatların keyfiyyətinin artırılmasına verdiyi dəstəyi əks etdirir”.

Qeyd olunub ki, bp-nin Azərbaycanda təhsilin inkişafına və potensialın artırılmasına dəstək öhdəliyinin bir hissəsi olan bu təşəbbüs məlumatlara çıxışı və onların toplanmasını asanlaşdıracaq, eyni zamanda, istifadəçilərə məzmunu paylaşmaq, mürəkkəb axtarışlar yerinə yetirmək və tədqiqat məlumatlarını saxlamaq imkanı verəcək.

Yeni təhsil layihəsi bütün kitabxana fondunun elektron məlumat bazası vasitəsilə tam şəkildə idarə olunmasını təmin edən xüsusi proqram təminatının hazırlanması, kitablara izləmə çiplərinin tətbiqi, əl terminallarının və çiplə təchiz edilmiş materialların proqram platformasına tam inteqrasiyası daxil olmaqla səmərəli inventar idarəetmə sisteminin yaradılması, eləcə də yeni rəqəmsal kitabxana sisteminin səmərəli fəaliyyəti üçün zəruri fiziki infrastrukturun quraşdırılması kimi mühüm sahələri əhatə edir.

Layihənin ümumi dəyəri isə 805 min 290 manat (473 min 700 ABŞ dolları) təşkil edir. Bu məbləğə isə proqram təminatının hazırlanması, inventar idarəetmə sisteminin yaradılması, eləcə də bütün lazımi avadanlıq və infrastrukturun quraşdırılması xərcləri daxildir.

Mərasimdə, həmçinin bp və Bakı Dövlət Universiteti arasında potensial birgə layihələr üçün çərçivə müəyyən edən əməkdaşlıq sazişi imzalandı. BDU-nun rektoru rektoru Elçin Babayev və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofolinin imzaladıqları sazişin əsas məqsədi universitet ekosisteminin daha da gücləndirilməsi və biliklərin artırılmasına dəstək verməklə uzunmüddətli akademik inkişaf və innovasiyalar üçün şəraitin yaradılmasıdır.

Yeri gəlmişkən, bp şirkəti Azərbaycanda 33 ildir ki, neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır. Şirkət bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Ötən müddətdə bp öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə 89 milyard dollardan çox sərmayə qoyub. Qurum Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə sərmayə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüb.

bp-nin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə, onların həyatını yaxşılaşdırıb və dəyişdirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə, ümumilikdə, 115 milyon ABŞ dollarından çox vəsait xərcləyib. Hazırda bp-nin Azərbaycanda həyata keçirdiyi müxtəlif layihələrdə, təxminən, 2344 yerli vətəndaş çalışır ki, bu da şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Texnoloji keçidin innovativ layihələri

**İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) 2025-ci ilin yekunlarına dair mətbuat konfransı keçirib. 4SİM-in icraçı direktoru Fariz Cəfərov il ərzində qurumun sənaye müəssisələrinin rəqəmsal transformasiyası, innovativ inkişafın təşviqi və insan resurslarının rəqəmsal bacarıqlarının inkişafı və digər istiqamətlərdə fəaliyyəti barədə məlumat verib.**




Qeyd olunub ki, Sənaye 4.0-a keçidi nəzərdə tutan “Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək” proqramına start verilib. Proqrama müraciət edən müəssisələrin texnoloji hazırlıq səviyyəsi beynəlxalq metodologiyalar əsasında qiymətləndirilir. Qiymətləndirmə nəticələrinə uyğun olaraq hər bir müəssisənin spesifik ehtiyacları nəzərə alınmaqla texnoloji transformasiya üzrə fərdi yol xəritələri hazırlanır. Daha əvvəl proqramın pilot mərhələsini uğurla başa vurmuş “METAK”, “Azerfloat” və “STP Global Cable” şirkətlərinin rəqəmsal transformasiyasına dəstək göstərilib. Hazırda həmin müəssisələr onlar üçün hazırlanmış yol xəritəsini icra edirlər. Proqramın müəssisələrdə 5-8 faiz arasında EBİTDA artımı yaradacağı gözlənilir.

Sənaye 4.0 transformasiyasının müəssisələrə mühəndis və əməliyyat xərclərinin optimallaşdırılması, məhsuldarlığın artırılması, istehsal keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması və resurslardan daha səmərəli istifadə kimi mühüm üstünlüklər qazandırdığını diqqətə çatdıran F.Cəfərovun sözlərinə görə, 2030-cu ilə qədər 60-dan çox yerli müəssisənin rəqəmsal və dayanıqlı transformasiya prosesinə cəlb edilməsi hədəflənir.

Diqqətə çatdırılıb ki, ötən il rəqəmsal iqtisadiyyata keçidin dəstəklənməsi məqsədilə insan kapitalının inkişafına yönəlmiş layihələr həyata keçirilib. 2023-cü ildə başlayan “4Sİ Akademiyası” çərçivəsində vətəndaşlarımız dünyanın ən böyük onlayn tədris platforması olan “Coursera”da təlimlərdən ödənişsiz faydalanmaq imkanı əldə edib. Bu günədək 60 mindən artıq Azərbaycan vətəndaşı platformada süni intellekt, proqramlaşdırma, data analitikası və digər müasir texnologiyalar üzrə bilik və bacarıqlarını artırıb. Vətəndaşlar “Coursera” onlayn təhsil platformasında 260 mindən çox təlimə müraciət ediblər. Təlimləri uğurla keçənlər 90 mindən çox beynəlxalq sertifikat alıblar.

“4Sİ Akademiyası” çərçivəsində 2025-ci ilin aprel ayından start götürən “Milli Proqram” rəqəmsal bacarıqların artırılması, innovasiya yönümlü təfəkkürün təşviqi və yeni texnologiyalara inteqrasiyanın sürətləndirilməsi, həmçinin iştirakçılara öz bilik və bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradıb. Azərbaycan vətəndaşları “Coursera” platformasında yaşından və məşğulluq vəziyyətindən asılı olmayaraq dünyanın 375-dən çox aparıcı universitet və texnologiya şirkətlərinin 13 mindən çox təliminə ödənişsiz çıxış əldə edib. Proqram ölkənin bütün regionlarını əhatə edir, 2026-cı ilin aprel ayınadək ümumilikdə 70 min vətəndaşın proqramdan faydalanması nəzərdə tutulub. İstifadəçilərin əsas hissəsi 21-30 yaş arasında olsa da, proqram müxtəlif yaş qruplarını əhatə edib. Belə ki, proqramın ən gənc iştirakçısı 8, ən yaşlı iştirakçısı isə 87 yaşındadır. Eyni zamanda, proqram istifadəçilərinin 56 faizini qadınlar təşkil edir.

İnsan kapitalının inkişafı istiqamətində həyata keçirilən digər mühüm təşəbbüs 4SİM tərəfindən icra olunan təcrübə proqramlarıdır. Ötən il 5 belə təcrübə proqramı çərçivəsində 500-dən artıq gənc rəqəmsal iqtisadiyyat, layihələrin idarəolunması, data analitikası, süni intellekt və digər qabaqcıl texnoloji sahələr üzrə müxtəlif layihələrdə iş təcrübəsi qazanıb. Proqram iştirakçıları əldə etdikləri praktiki bacarıqlar sayəsində əmək bazarında rəqabət qabiliyyətlərini artırıblar. 4SİM insan resurslarının inkişafı sahəsində ötən il daha bir layihənin icrasına start verib. Dünya İqtisadi Forumu ilə əməkdaşlıq çərçivəsində həyata keçiriləcək “Azərbaycan Bacarıqlar Akseleratoru” layihəsi çərçivəsində ölkənin əmək bazarında mövcud bacarıq boşluqlarının aradan qaldırılması məqsədilə kompleks fəaliyyət planı hazırlanacaq.

Bildirilib ki, bu ilin yanvar ayında Davos Forumu çərçivəsində 4SİM 3 müxtəlif panel sessiyasında təmsil olunub. İlk dəfə forum çərçivəsində 4SİM və SOCAR tərəfindən “Texnoloji transformasiya vasitəsilə enerji keçidinin sürətləndirilməsi: Süni intellekt əsaslı sənaye” mövzusunda birgə sessiya təşkil edilib, süni intellekt, sənaye 4.0 transformasiyası və enerji səmərəliliyi ilə bağlı müzakirələr aparılıb. İl ərzində 4SİM rəqəmsal texnologiyaların iqtisadiyyatda tətbiqinin genişləndirilməsi, özəl sektorun rəqəmsal transformasiyasına dəstək və insan kapitalının gücləndirilməsi istiqamətində fəaliyyətini genişləndirəcək.

***XQ***

# Rəqəmsal inkişaf və çağdaş insan kapitalı

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan da çağdaş dövrün yeni çağırışlarına uyğun şəkildə rəqəmsal inkişafı prioritet istiqamət kimi müəyyənləşdirib. Son illərdə ölkədə rəqəmsal dövlət idarəçiliyinin genişləndirilməsi, elektron xidmətlərin artırılması, məlumat təhlükəsizliyinin gücləndirilməsi və innovasiya ekosisteminin inkişafı üzrə ardıcıl addımlar atılır. 16 yanvar 2025-də Prezident İlham Əliyev tərəfindən "Rəqəmsal İnkişaf Konsepsiyası" qəbul olunub. Bu sənəd dövlət idarəçiliyinin modernləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması və vətəndaş məmnunluğunun artırılması üçün strateji istiqamətləri müəyyən edir və Azərbaycanda rəqəmsal transformasiyanın əsas çərçivəsini təşkil edir. Həmçinin 10 dekabr 2025-də Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair strategiya təsdiq edilib.

Qeyd edək ki, ölkədə bu sahədə həyata keçirilən işlərə "mygov" platformasının inkişafını, "ASAN xidmət" modelinin rəqəmsal alətlərlə genişləndirilməsini, "Digital bridge" rəqəmsal məlumat mübadiləsi sisteminin tətbiqini misal göstərmək olar. Məlum olduğu kimi, "Digital bridge" vasitəsilə dövlət qurumları arasında məlumat mübadiləsi daha operativ şəkildə həyata keçirilir və bu, həm vaxt itkisini azaldır, həm də prosedurları minimuma endirir. Eyni zamanda, dövlət və özəl sektor arasında rəqəmsal inteqrasiya imkanlarının genişlənməsi ölkənin rəqəmsal iqtisadiyyat modelinə keçidi sürətləndirir.

Yeri gəlmişkən, Azərbaycan rəqəmsallaşma və süni intellekt sahəsində dünyanın ən qabaqcıl ölkələri ilə əməkdaşlıq edir. Bunlardan biri də ABŞ-dır. Məlum olduğu kimi, ABŞ sahədə aparıcı şirkətlərə malikdir. Azərbaycan Hökuməti ilə ABŞ Hökuməti arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyada hər iki tərəf süni intellekt və rəqəmsal infrastrukturun qurulması istiqamətində bir-birinə dəstək göstərəcəklər. Bu Azərbaycana əlavə üstünlük qazandıracaq.

Qeyd edək ki, rəqəmsal infrastrukturun qurulması ilə yanaşı, bu sahədə əsas həlledici amillərdən biri də insan kapitalının, xüsusilə rəqəmsal bacarıqların inkişafıdır. Beynəlxalq təşkilatlar da Azərbaycanda rəqəmsal səriştələrin artırılmasını ölkənin uzunmüddətli inkişaf gündəliyinin əsas prioritetlərindən biri kimi qiymətləndirir.

Məhz bu yöndə Dünya Bankının hazırladığı "Azərbaycan üçün rəqəmsal bacarıqların inkişafı üzrə Yol Xəritəsi"ndə ölkədə rəqəmsal bacarıqların inkişafı üçün vahid yanaşmanın formalaşdırılması vacib sayılır və rəqəmsal səriştə üzrə dövlət çərçivə sənədinin hazırlanması tövsiyə olunur. Dünya Bankı Azərbaycanda rəqəmsal bacarıqların inkişafı üçün vahid yanaşmanın formalaşdırılmasını vacib sayır və bu məqsədlə rəqəmsal səriştə üzrə dövlət çərçivə sənədinin hazırlanmasını tövsiyə edir.

Qeyd olunur ki, bu sənəd milli rəqəmsal potensialın gücləndirilməsi, vətəndaşların sürətlə dəyişən rəqəmsal cəmiyyətdə tamhüquqlu iştirakının təmin edilməsi üçün strateji əsas rolunu oynaya bilər. Söhbət həm dövlət, həm də özəl rəqəmsal xidmətlərə çıxış, əmək bazarında rəqabət qabiliyyəti və ölkənin inklüziv rəqəmsal transformasiyasında iştirak üçün zəruri bacarıqların əhali arasında sistemli şəkildə formalaşdırılmasından gedir.



Dünya Bankı bu sahədə konkret və ölçüləbilən milli hədəfin müəyyən edilməsini də xüsusi vurğulayır. Belə ki, "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində əhalinin 65 faizinin baza rəqəmsal bacarıqlara malik olması hədəfi qoyulub. Bank hesab edir ki, dəqiq göstərici və vaxt çərçivəsi resursların düzgün istiqamətləndirilməsinə və tərəqqinin sürətlənməsinə imkan verəcək.

Sənəddə qeyd edilir ki, "Azərbaycanın Rəqəmsal Bacarıqlarının Qiymətləndirilməsi 2023–2024" tədqiqatı ölkədə bu istiqamətdə aparılan ilk milli hesabat olub. Hesabat Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) İKT bacarıqları indikatorlarına və Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanıb. Dünya Bankı bu cür araşdırmaların mütəmadi aparılmasını, nəticələrin müqayisəli monitorinq üçün əsas kimi istifadəsini tövsiyə edir.

Əsas tövsiyələrdən biri Avropa Komissiyasının "DigComp" rəqəmsal səriştə çərçivəsinin milli versiyasının hazırlanması və qəbul edilməsidir. "DigComp" beş istiqamətdə qruplaşdırılmış 21 səriştəni əhatə edir və baza səviyyədən qabaqcıl səviyyəyə qədər bütün mərhələləri nəzərdə tutur. Dünya Bankının qənaətinə görə, bu çərçivənin Azərbaycanda tətbiqi rəqəmsal səriştə anlayışında vahid yanaşma yaratmağa, təşəbbüsləri sinxronlaşdırmağa, qiymətləndirmə və sertifikatlaşdırma mexanizmini qurmağa, məzmunu yerli dillərə və inklüziv formatlara uyğunlaşdırmağa imkan verəcək.

Bankın qiymətləndirməsinə əsasən, Azərbaycanın yetkin əhalisinin təxminən üçdəbiri əmək bazarından və təhsil sistemindən kənarda qalır. Bu qrup üçün rəqəmsal bacarıqların artırılması sosial inklüzivlik baxımından xüsusi əhəmiyyət daşıyır. Prioritet mövzular sırasında onlayn təhlükəsizlik, rəqəmsal alətlərdən istifadə etməklə gündəlik problemlərin həlli və rəqəmsal məzmunun yaradılması qeyd olunur. Bank xüsusilə vurğulayır ki, 16–74 yaş arası vətəndaşların yarıdan çoxu rəqəmsal mühitdə özünü qoruma üzrə baza tədbirləri görməyib.

Dünya Bankı hesab edir ki, elektron dövlət xidmətlərinin genişləndirilməsi rəqəmsal bacarıqlara olan tələbatı daha da artıracaq. Bu baxımdan səhiyyə, subsidiyalar, rəqəmsal kənd təsərrüfatı alətləri, onlayn bazarlar kimi xidmətlər əhalinin rəqəmsal mühitə adaptasiyasını sürətləndirə bilər. Bank pulsuz özünüqiymətləndirmə alətlərinin tətbiqini və vətəndaşların bu nəticələrə uyğun təlim proqramlarına yönləndirilməsini təklif edir.

Ümumilikdə, yol xəritəsi 6 əsas tövsiyə və 12 prioritet fəaliyyət istiqaməti üzrə strukturlaşdırılıb. Məqsəd 2026-cı ildə əhalinin 65 faizinin baza rəqəmsal bacarıqlara malik olması hədəfinə nail olmaq və 2030-cu ilə qədər davamlı tərəqqi üçün əsaslı baza formalaşdırmaqdır. Dünya Bankı rəqəmsal səriştəni Azərbaycanın sosial-iqtisadi inkişafı və dayanıqlı modernləşməsi üçün fundamental amil kimi qiymətləndirir.

***Musa BAĞIRLI***
***XQ***

*Günün şərhi*



# Mənzil təsərrüfatında "amnistiya"

## *Sənədsiz evlərə çıxarış 15 günə veriləcək*

**Ölkəmizdə artıq müəyyən müddətdir ki, "özbaşına tikililər"in sənədləşdirilməsi ilə bağlı müzakirələr aparılır. Problemin həlli məqsədilə müxtəlif vaxtlarda "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanunun 8-ci maddəsinə dəfələrlə dəyişikliklər edilib. Lakin bu dəyişikliklər sənədsiz evlərlə bağlı problemləri köklü şəkildə tam həll edə bilməyib. Nazirlər Kabinetinin 2026-cı il fevralın 9-da təsdiq etdiyi "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları" isə sözügedən çətinliyin aradan qaldırılmasına böyük inam yaranıb.**

Ekspertlərin sözlərinə görə, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim olunan sənədlərlə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılır. Bunun nəticəsində sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiqlənərsə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və torpaq kadastrında müvafiq düzəlişlər həyata keçirilir.

**İqtisadçı deputat Vüqar Bayramovun** sözlərinə görə, əgər vətəndaşın sənədində torpağın təyinatı tikintinin aparılmasına icazəyə imkan verirsə, amma dövlət qurumunun məlumat bazasında həmin ərazi kənd təsərrüfatı üçün yararlı torpaq kimi görsənirsə, belə halda məlumatı dəqiqləşdirmək məqsədilə digər uyğun qurumlara sorğu göndərilir. Bu prosesdə sənədin doğruluğu təsdiqini taparsa, həmin daşınmaz əmlak dövlət qeydiyyatına alınır.

Buradan aydın görünür ki, Nazirlər Kabinetinin təsdiqlədiyi yeni qaydalar qeydiyyatsız evlərin sənədləşməsi prosesində məlumatların dəqiqləşdirilməsinə xidmət edir. Bu, eyni zamanda, mülkiyyət hüquqlarının tanınması və qorunması baxımından da mühüm önəm daşıyır.

Bəs yeni qaydalar qeydiyyatsız evlərin sayının azalmasına təsir göstərəcəkmi? **Əmlak məsələləri üzrə ekspert Elnur Azadov** bu suala cavabında bildirir ki, keçmişdə prosedur qaydalar hansısa bir qanunla tənzimlənmirdi, ümumiyyətlə, prosedur yox idi. Hazırda isə bu obyektlərə, ilk növbədə, texniki baxış keçirilir. Alqı-satqıdan sonra torpağın yerləşməsi, koordinatları yoxlanılır, ərazinin üzərində buna uyğun başqa bir mülkiyyət varsa, qeydiyyata alınır. Başqa sözlə, proses zamanı reyestrdə əmlakların daha düzgün yerləşməsinə xüsusi önəm verilir. Ekspert onu da qeyd edir ki, sənədsiz evlərin qeydiyyata alınması ilə bağlı bəzi istisnalar da olur. Belə ki, əgər vətəndaşın vaxtilə təyinata uyğun torpağı üzərində hansısa layihə düzgün çəkilərək qeydiyyata alınıbsa və sənədləşmə prosesi yarımçıq qalıbsa, belə hal yalnız həmin şəxsə şamil olunur və proses davam etdirilir.

Bu məqamda belə bir sualla da üzləşilir: Bələdiyyə torpaqlarının sənədləşdirilərək çıxarış (kupça) verilməsi necə gerçəkləşdirilir? **Hüquqşünas Tağı Hüseynovun** sözlərinə görə, bələdiyyə torpaqlarının sənədləşdirilməsi uzun illərdir ki, vətəndaşların qarşılaşdığı ən problemli hüquqi məsələlərdən biri sayılır. Belə ki, bir çox hallarda torpaq sahəsi alınsa da, sonradan çıxarışın əldə edilməsi zamanı ciddi çətinliklərlə rastlaşılır. Bu zaman əsas problemlər bələdiyyənin təqdim etdiyi sənədlərdəki texniki və hüquqi çatışmazlıqlardan qaynaqlanır.

Başqa sözlə, vətəndaşlar bələdiyyədən torpaq alarkən sənədlərin dürüst olduğunu düşünsələr də, alqı-satqı müqaviləsində mühüm bir hissə çox vaxt doldurulmamış qalır. Məsələn, adətən, müqavilənin aşağı hissəsində keçmiş Torpaq və Xəritəçəkmə Komitəsinin qərarının təsdiqi ilə bağlı bölmədəki hissə boş saxlanılır. Halbuki bu, ən vacib məqamlardan biridir. Ona görə də bu məlumat olmadığı üçün vətəndaş sənədləri Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etdikdə imtina cavabı alır və əsas səbəb kimi də məhz bu çatışmazlıq göstərilir.

Buna baxmayaraq, belə hallarda çıxış yolu, necə deyərlər, tam bağlanmış hesab edilmir. Yəni bu cür şəraitdə məhkəmə yolu ilə torpaq sahəsinin sənədləşdirilməsi məsləhət bilinir. Belə ki, əgər vətəndaşın bələdiyyədən aldığı torpaq sahəsi varsa və sənədlərində qeyd olunan çatışmazlıq mövcuddursa, lakin həmin ərazidə qonşular eyni qaydada torpaq alaraq çıxarış əldə ediblərsə, bu fakt məhkəmədə əsas kimi göstərilir. Ona görə də belə hallarda vətəndaş məhkəməyə müraciət edərək hüququnun tanınmasına nail olur. Hüquqşünas, eyni zamanda, vətəndaşlara bələdiyyə torpağı alarkən sənədlərin hüquqi ekspertizasını əvvəlcədən aparmağı və xüsusilə təsdiq bölmələrinin doldurulmasına diqqət yetirməyi zəruri sayır.

Yeri gəlmişkən, buradan vətəndaşın uzun illər ərzində torpaq sahəsi almaq, ev tikmək istəyi ilə bu işə başlarkən müəyyən çətinliklərlə qarşılaşdığı aydın görünür. Əsas problem də min bir əzab-əziyyətlə inşa edilən evə çıxarış ala bilməməsi ilə bağlı olur. Bu gün ölkədə minlərlə sənədsiz evin mövcudluğu da vurğulanan fikrin bariz ifadəsidir. Xatırladaq ki, bu evlərdə insanlar yaşayır, uşaqlar böyüyür, dövlət isə həmin evlərə qaz, su, işıq satır. Amma həmin evlərin mülkiyyət hüququnun rəsmiləşdirilməsinə gəldikdə, min cür bəhanə, maneə qarşıya çıxır. Belə bir bürokratik əngəl isə bəlkə də tikintiyə nəzarət edən qurumların – icra hakimiyyətindən tutmuş tikinti, ekologiya, səhiyyə, hətta qaz, su təminatı ilə əlaqədar fəaliyyət göstərən təşkilatların sayının çox olması ilə bağlıdır.

Amma bütün bu çoxsaylı nəzarətə baxmayaraq, ölkədə 500 mindən çox sənədsiz evin mövcud olması daim suallar doğurub: bu qədər qurum indiyədək hara baxıb, necə göz yumub, niyə vaxtında tədbir görməyib? Sualları konkretləşdirib deyə bilərik ki, Azərbaycanda inşaat prosesinə onlarla orqan nəzarət edir, amma "özbaşına tikililər" necə yaranır, bu qədər nəzarətedici orqan, sərt qanunlar olan ölkədə 500 min sənədsiz ev hansı yolla tikilir?!

Cavabları ümumiləşdirsək, təkcə onu demək kifayət edir ki, dövlət "özbaşına tikililər"i su, qaz və işıqla təmin edirsə, deməli, o sənədsiz evlərdə yaşayanların mülkiyyət hüququnu qismən tanıyır. Belə halda isə "özbaşına tikililər"in hüquqi mülkiyyət statusunun rəsmiləşdirilməsinə real şərait yaranır. Digər tərəfdən, bu məsələdə sənədləşmənin gerçəkləşməsi, yəni vətəndaşlara çıxarış (kupça) verilməsi hər il dövlət büdcəsinə böyük həcmdə vergi ödənilməsi deməkdir.

Amma bu məqamda bir həqiqəti də diqqətə çatdırmaq istərdik. Qanunsuz evlər deyilən "özbaşına tikililər"in böyük hissəsi dəmir yolunun təhlükəsizlik zolağında, yüksəkgərginlikli elektrik xətlərinin altında, magistral su kəmərlərinin üzərində, neft və sənaye obyektlərinin ərazilərində yerləşir. **Hüquqşünas Mehman Muradlının** sözlərinə görə, bu evlərin böyük bir hissəsi 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində nəzarətsiz şəkildə tikilib. O dövrdə şəhərsalma prinsiplərinə ciddi fikir verilməyib, torpaq sənədləri olmadan, necə gəldi, evlər inşa olunub.

M.Muradlı bildirir ki, indi məsələ təkcə evlərin qeydiyyata alınması ilə bağlı deyil. Bu ərazilərin normal şəhər infrastrukturu ilə təmin olunması çox çətindir. Söhbət elektrik, qaz, su, kanalizasiya xətlərinin çəkilməsindən gedir. Bu isə dövlət üçün çox böyük maliyyə yükü deməkdir. Düzdür, bəziləri yalnız vergi məsələsinə baxır: dövlət bu evləri leqallaşdırsa, böyük vergi gəliri əldə olunar. Amma unudulur ki, dövlət əvvəlcə həmin ərazilərdə küçələr, kommunikasiya xətləri çəkməli, kanalizasiya sistemi, enerji infrastrukturu qurmalıdır. Bu xərclər nəzərə alınmadan təkcə vergi potensialı ilə məsələni qiymətləndirmək düzgün deyil.

### Beynəlxalq təcrübə nə deyir?

Ekspertlər bildirirlər ki, belə bir ciddi narahatlıq doğuran vəziyyət həm də beynəlxalq təcrübədən yararlanmaq məsələsini gündəmə gətirir. Bir sıra ölkələrdə oxşar problemlərin "kütləvi leqallaşdırma" proqramları vasitəsilə həll edilməsi bunun bariz ifadəsidir. Məsələn, qardaş Türkiyədə 2018-ci ildə "İmar Barışı" proqramı çərçivəsində milyonlarla qeyri-qanuni tikilinin rüsum müqabilində leqallaşdırılması, bununla da həm vətəndaşların mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi, həm də dövlət büdcəsinə əlavə gəlir cəlb edilməsi parlaq nümunədir. Qonşu Gürcüstanda isə torpaq və əmlak qeydiyyatının rəqəmsallaşdırılması və "bir pəncərə" prinsipi vasitəsilə qeydiyyat müddətinin kəskin şəkildə azaldılması diqqət çəkir. Avropa ölkələrində, xüsusilə Estoniya modelində torpaq reyestri və kadastr məlumat bazasının tam inteqrasiya olunması, eləcə də məlumat uyğunsuzluğu hallarında vətəndaş deyil, dövlət orqanları arasında elektron koordinasiya aparılması da sözügedən problemin həll yolları sırasında xüsusi yer tutur.

Ümumiyyətlə, yuxarıda sadalanan həll yolları göstərir ki, problemin köklü şəkildə aradan qaldırılması üçün 3 əsas şərt – rəqəmsal kadastr və reyestr inteqrasiyasına nail olunması, məsuliyyət bölgüsünün aydınlaşdırılması və keçid dövrü üçün xüsusi leqallaşdırma mexanizminin yaradılması vacidir.

Bu məqamda yenidən yazının əvvəlinə qayıtmaq istərdik. Nazirlər Kabinetinin təsdiqlədiyi "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları" məlumat uyğunsuzluğuna görə avtomatik imtinaların qarşısını almaq baxımından müsbət addımdır. Bu, 15 günlük araşdırma mexanizminin vətəndaş hüquqlarının daha operativ qorunmasına xidmət etmək deməkdir. Lakin bu dəyişikliklər 500 minlik problemin yalnız bir hissəsini həll edir. Əgər dövlət faktiki yaşayışı və kommunal xidmət göstərilməsini qəbul edirsə, mülkiyyət hüququnun rəsmiləşdirilməsi istiqamətində daha çevik və sosial ədalət prinsiplərinə əsaslanan yanaşmanın tətbiqi də zəruridir. Əks halda, illərlə formalaşmış sənədsiz tikinti problemi hüquqi deyil, sosial və institusional böhran kimi qalmaqda davam edər.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elnur FƏRZƏLİYEV,**
**daşınmaz əmlak eksperti**

Ölkə ərazisində sənədsiz evlərin sayı çoxdur. Təbii ki, bu əmlaklara çıxarışların verilməməsində müxtəlif səbəblər var. Narahatlıq doğuran əsas məsələ isə həmin torpaqların təyinatının fərqli olması, bəzilərində inşaat normativlərinin uyğun aparılmaması, bir çoxunda isə tikililərin qadağan olunmuş sahələrdə, eləcə də yüksəkgərginlikli elektrik naqillərinin ətrafında tikilməsidir. Bu səbəbdən həmin əmlaklarla çıxarışlar verilə bilmir.

Burada itirən tərəf isə vətəndaşdır. Çünki mülkiyyət hüququ tanınmır, eyni zamanda, dövlət büdcəsi bu sahədən yararlana bilmir. Həmin əmlakların çıxarışı olsaydı, təbii ki, vətəndaş əmlak, torpaq vergisi ödəyər, sığortalana bilərdi. Kommunikasiya xətlərinin mühafizə zolağında tikilmiş qanunsuz tikililərdən başqa, normativlərə uyğun inşa edilən fərdi evlər də sənədləşdirilməlidir.

Bu gün kənd təsərrüfatlı təyinatlı torpaqlarda inşa edilən evlərə də çıxarış almaq mümkün deyil. Çünki həmin sahənin təyinatı onun üzərində yaşayış məqsədilə fərdi ev tikməyə imkan vermir. Bunun üçün icra mexanizmi qurulmalı, bundan sonra normativlərə uyğun inşa edilən qeyri-yaşayış və fərdi evlərə çıxarış verilməlidir.

Bakı və ətraf rayonların ərazilərində hazırda yüzlərlə qeyri-yaşayış obyekti də digər təyinatlı torpaqlarda tikildiyindən onlara çıxarış verilməsi real görünmür. Bunun üçün, ilk növbədə, həmin obyektlərin yerləşdikləri ərazilərdə torpaqların təyinatı dəyişdirilməlidir. Qeyd edim ki, onların mütləq əksəriyyəti vergi ödəyicisi kimi qeydiyyata düşüb. Həmin qeyri-yaşayış obyektləri kimi kommunal xərclərə daha çox rüsum ödənilir.

Hazırda respublikada yüz minlərlə çıxarışı olmayan fərdi yaşayış evi və torpaq sahəsinin böyük bir hissəsi paytaxt Bakı və Abşeronda yerləşir. Bu ərazilərdə çıxarışsız fərdi yaşayış evlərinin sayı 500 mini ötür. Bu tip evlərin bir hissəsi sovet dövründən qalıb, digər hissəsi isə ötən əsrin 90-cı illərdən sonrakı vaxtlarda kolxoz və sovxozlar tərəfindən vətəndaşlara ayrılmış torpaq sahələri üzərində tikilib.

Bəzi ərazilərdə inşa olunmuş fərdi yaşayış evlərinə heç bir halda çıxarış verilə bilməz. Bu, əsasən qadağan olunmuş ərazilərdə tikilmiş evlərə aiddir. Amma bəzi hallarda qadağa statusu götürülə bilər. Məsələn, bu, ərazidən keçən yüksəkgərginlikli elektrik naqilləri və ya kommunikasiya xətləri köçürüldüyü halda mümkündür.

Qiymət baxımından münasib olduğu üçün sənədsiz evlərin alıcıları da çoxdur. Lakin bu, sonradan əmlak sahibləri üçün ciddi problemlər yaradır. Belə ki, mənzil sahibi vəfat etdikdə həmin əmlak rəsmi şəkildə vərəsələr arasında bölünə bilmir. Yaxud boşanma zamanı məhkəmə qaydasında əmlakın hüquqi bölgüsü mümkün olmur. Zəlzələ və ya su basma kimi hallarda isə bu evlər sığortalanmadığı üçün dəymiş zərər dövlət tərəfindən qarşılanmır.

I Türkoloji Qurultay – 100

# Türk xalqlarının ortaq öyünc tarixi



**Türk Mədəniyyəti və İrsi Fondu I Türkoloji Qurultayın 100 illiyinə həsr edilmiş "Dəyirmi masa"nın materiallarını Astanada çıxan "Egemen Qazaqstan" dövlət nəşrində dərc etdirib. "Ədəbiyyat və incəsənət" portalının Qazaxıstan təmsilçisi Erkinbek Serikbayın həmin müzakirədən Azərbaycan dilinə uyğunlaşdırdığı icmal material bu barədədir.**

1926-cı ildə Bakı şəhərində keçirilən ilk Türkoloji Qurultay taleyi və tarixi ortaq olan türkdilli xalqların XX əsrdəki elmi və mədəni həyatında xüsusi yer tutan bir hadisədir. Bu il həmin mühüm elmi toplantının 100 illiyi tamam olur. Sözügedən qurultayın əhəmiyyətini təhlil və müzakirə etmək məqsədilə keçirilən "Dəyirmi masa"da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli, Özbəkistan Respublikası Nəubət Qurbanları Dövlət Muzeyinin baş elmi əməkdaşı Baxrom İrzayev, Beynəlxalq Türk Akademiyasının eksperti, elmlər doktoru Nurdin Useyev, Əhməd Baytursınulı adına Dilçilik İnstitutunun Əhmədşünaslıq şöbəsinin müdiri, elmlər doktoru Ermuhammet Maralbek iştirak ediblər. "Dəyirmi masa"nı "Egemen Qazaqstan" qəzetinin əməkdaşı Düysenəli Əlimaqın idarə edib. Söhbətin əsas müddəalarını diqqətinizə çatdırırıq.

**Düysenəli Əlimaqın:**

***– Həmin toplantının o dövrdəki əhəmiyyəti və bütövlükdə türk dünyasına təsiri necə oldu?***

**Nadir Məmmədli:**



– Bu qurultay tarixi hadisə olmaqla yanaşı, davamlı bir prosesin başlanğıcı idi. Onun təsiri yalnız qəbul edilən qərarlarda deyil, cavabsız qalan suallarda da yaşayır. Məhz bu suallarla birlikdə inkişaf edən türkologiya düşüncəsi keçmişindən qaçmadan, gələcəyini yenidən qurmağı öyrəndi. Qurultaydan sonrakı dövr sadəcə illərin ardıcıllığı deyil, türkologiyanı daha dərindən anlamağa aparan uzun bir yol oldu. Bu mərhələdə türkologiya tədqiqatlarında yeni konsepsiyalar formalaşdı və Azərbaycan tədricən bu elmi istiqamətin nüfuzlu mərkəzlərindən biri kimi tanınmağa başladı. Lakin bu inkişafı yalnız elmi nailiyyət kimi deyil, türk xalqlarının mədəni və mənəvi birliyini dərk etməyə yönəlmiş bir təşəbbüs kimi də qiymətləndirmək lazımdır. Bu qurultayın başladığı proses parçalanmış, uzaqlaşmış tarixi yaddaşı yenidən birləşdirmək cəhdi idi.

Bu yolun ən mürəkkəb tərəfi əldə olunmuş elmi nailiyyətlərin ağır tarixi faciələrlə yanaşı getməsidir. "Türkologiya – güllələnmiş alimlərin elmi" ifadəsi əvvəlcə metafor kimi görünsə də, əslində, XX əsr faciəsinin qısa və sərt xülasəsidir. Bu fikir təsadüfən yaranmayıb: 1926-cı ildə Bakı şəhərində keçirilən qurultayın iştirakçılarının sonrakı acı taleləri bunu tam təsdiqlədi. Ümumittifaq Türkoloqlar Qurultayı yalnız türk xalqları üçün əhəmiyyətli hadisə olmadı. O, akademik müzakirə çərçivəsini aşaraq, elmi nəticələri ilə yanaşı, ümumbəşəri və mənəvi dəyərləri, doğrulmamış ümidləri və məhv olmuş taleləri ilə də tarixdə qaldı. Zahirdə rəsmi elmi platforma kimi görünsə də, zaman keçdikcə, onun iştirakçıları siyasi şübhə və ideoloji repressiyaların hədəfinə çevrildi.

1930-cu illərdəki totalitar Sovet mühiti elmi əsasən ideoloji sədaqət prizmasından qiymətləndirir və elmi nailiyyətləri potensial təhlükə kimi qəbul edirdi. Bu kontekstdə qurultaya fəal qatılan bir çox türkoloq və ictimai xadimlər burjua millətçiliyi, pantürklük, panislamizm, ideoloji diversiya, antisovet fəaliyyət, xarici casusluq kimi əsassız, lakin siyasi baxımdan sərt ittihamlara məruz qaldı. Repressiv mexanizmin əsas ölçüsü ittihamların məntiqi yox, ideoloji məqsədə uyğunluğu idi. Nəticədə, elmi düşüncə məhkəmə protokollarında cinayət sayıldı, nəzəri müzakirələr isə dövlətə qarşı təhlükə kimi qiymətləndirildi. Bu proses yalnız fərdi taleləri deyil, həm də türkologiyanın inkişafını ciddi şəkildə ləngitdi. Elmi məktəblər məhv oldu, bilik ötürülməsi kəsildi, davamlılıq pozuldu. Buna baxmayaraq, türkologiyanı tamamilə boğmaq mümkün olmadı: fiziki olaraq itirilmiş alimlərin ideyaları, metodları və gündəmə gətirdikləri məsələlər zaman keçdikcə daha da həyat qabiliyyətli və təsirli oldu.

Elm totalitar zorakılıqdan üstün duraraq öz gələcəyini qorumağı bacardı. Bu mənada "türkologiya – güllələnmiş alimlərin elmi" ifadəsi yalnız faciənin simvolu deyil, eyni zamanda, elmin müqavimət göstərmək potensialının göstəricisi oldu. Bu, öz həyatlarının qiyməti hesabına türkologiyanı qoruyub saxlayan alimlərin mənəvi irsini xatırladır. Türkologiyanın tarixi – məhz bu mənəvi irsin hansı ağır sınaqlardan keçdiyini və bütün bunlara baxmayaraq, necə yaşayıb qaldığını əks etdirir. Elmi və intellektual potensiala malik türkologiya öz nümayəndələrinin sayəsində totalitar sovet cəmiyyətinin sistemli təzyiqi və məhdudiyyətlərinə qarşı durdu, elmi ənənəsini qoruyub saxladı və möhkəm konseptual mövqelər formalaşdırdı.

***– Ortaq razılıq yolu ilə yeni əlifbaya keçidin o dövrün tələbi olduğu bir həqiqətdir. Bunun vasitəsilə savadlılığın artırılması, elm və təhsilin yenilənməsi, türk xalqları arasında mədəni-intellektual əlaqələrin gücləndirilməsi, habelə türk dünyasının beynəlxalq elmi məkana yaxınlaşdırılması məsələsi gündəmdə idimi?***

**Baxrom İrzayev:**



– Düz 100 il əvvəl Bakıda I Ümumittifaq Türkoloji Qurultayında latın əlifbasına keçid haqqında qərar qəbul edilmişdi. Əslində, əlifbanın yenilənməsi məsələsi Qafqaz müsəlmanları, Türkiyə və tatar ziyalıları arasında daha əvvəl qaldırılsa da, Türküstanda bu məsələ yalnız Sovet hökuməti qurulduqdan sonra konkret şəkildə gündəmə gəldi. 1918-ci ildə Daşkənddə, 1923-cü ildə Buxarada, 1924-cü ildə Xarəzmdə keçirilən imla konfranslarında latın qrafikasının əlverişliliyi haqqında bəzi fikirlər səslənsə də, əsas diqqət ərəb əlifbasının sadələşdirilməsi və optimallaşdırılması məsələlərinə yönəlmişdi. 1922-ci ildə Daşkənddəki "Behbudi" klubunun binasında professor Polivanov və Nemət Hakimin iştirakı ilə keçirilən imla məsələlərinə dair müzakirədə Münəvvər Qari Abdurəşidxanov islahatda tələskənliyə yol verməməyə çağıraraq, ilk növbədə dilin bütün qanunauyğunluqlarını hərtərəfli öyrənməyin vacibliyini vurğulamışdı.

Bu gün Avropa alimlərinin Şərqin mənəvi irsindən, kitablarından istifadə etmək və araşdırmaq məqsədilə bütün ömürlərini həsr etdikləri bir vaxtda, biz öz əlimizlə öz övladlarımızı öz xəzinəmizdən məhrum etməyə çalışırıq. Ataların yazısını övladların, övladların yazısını isə ataların başa düşməyəcəyi, gələcəyi qeyri-müəyyən olan əlifbalara qarşı çıxırlar.

1922-ci ildə Sovet respublikaları ərazisində ilk olaraq Azərbaycan latın qrafikasına keçdi və 1923-cü ildə latın əlifbası dövlət əlifbası elan edildi. 1924-cü il fevralın 18-də Moskvada keçirilən tatar və başqırd maarifçilərinin qurultayında Alimcan İbrahimov ərəb qrafikasından imtina edilməsi və bütün türk xalqları üçün ortaq latın əlifbasının tətbiqi barədə təklif irəli sürdü. 1926-cı ilin əvvəlindən etibarən, Sovet hökumətinin qəti tələbi ilə Özbəkistan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Y.Axunbabayevin rəhbərliyi altında nüfuzlu dövlət xadimləri, dilçi alimlər və mütəxəssislərdən ibarət 44 nəfərlik "Yeni Əlifba Komitəsi" yaradıldı. Məhz həmin 1926-cı il Bakı qurultayından sonra genişmiqyaslı işlər başlandı.

Bu siyasi tədbir milli ziyalılar üçün təkcə yeni əlifba məsələsi deyil, həm də xalqı savadsızlıqdan qurtarmaq yolu, türk ölkələri arasında elmi və mədəni əlaqələrin qurulması və inkişafı üçün bir imkan kimi qəbul edildi. Hesab edirəm ki, bu gün yenidən aktuallaşan vahid əlifba yaratmaq işində onların təklifləri, təcrübələri və ideyaları hələ də çox mühümdür.

***– Türkologiya haqqında düşüncələr müvəqqəti olaraq boğulsa da, tamamilə yox edilmədi. Sözügedən qurultayda iştirak edən görkəmli alimlərin sonrakı taleyi necə oldu?***

**Nurdin Useyev:**




– Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultayında Qırğızıstanı Qasım Tınıstanov və Bazarkul Daniyarov təmsil etmişdilər. Qırğızıstanın qurultayda iştirakı məsələsinə Qara-Qırğız Muxtar Vilayətinin Xalq Maarif Şöbəsinin nəzdindəki Elmi Komissiyanın 1925-ci ildəki iclaslarından birində baxılmışdı. Həmin iclasın 26 nömrəli protokolunda Q.Tınıstanovun qurultayın təşkili işləri haqqında məruzə etdiyi, qurultaya Q.Tınıstanov, B. Daniyarov və İ.Arabayevin göndərilməsi barədə qərar qəbul edildiyi qeyd olunub. Lakin naməlum səbəblərdən İ.Arabayev qurultayda iştirak etməmişdir. 1926-cı ildə Qara-Qırğız Muxtar Vilayətinin Xalq Maarif Şöbəsinin Elmi Komissiyasının üzvü olmaqla yanaşı, "Erkin-Too" qəzetinin redaktoru vəzifəsində çalışan Q.Tınıstanov qurultayda Təşkilat Komitəsi və Rəyasət Heyətinin üzvü kimi iştirak etmiş, qırğız dilinin latın qrafikalı əlifbası haqqında məruzə ilə çıxış etmişdir. O, öz çıxışında yeni latın əlifbasına keçidin zəruriliyini xüsusilə vurğulamışdır. Qurultayın fəaliyyəti və nəticələri haqqında "Bakıdakı Türkoloji Qurultay və onun əhəmiyyəti" adlı məqalə yazaraq, onu 8 aprel 1926-cı ildə "Erkin-Too" qəzetində dərc etdirmişdir.

1926-cı ildə Mərkəzi Pedaqoji Texnikumda fəaliyyət göstərən B.Daniyarov qurultayda Qara-Qırğız Muxtar Vilayətinin Xalq Maarif Şöbəsi adından iştirak etdi. Məlum olduğu kimi, I Ümumittifaq Türkoloji Qurultayının əsas məqsədlərindən biri türk dilləri üçün latın qrafikasına əsaslanan yeni yazının qəbul edilməsi idi. Qurultayda türk dilləri üçün latın əsaslı yeni əlifbanın qəbulu Qırğızıstanda latın əlifbasına keçid prosesini sürətləndirdi. Bu barədə Q.Tınıstanov belə yazırdı: *"Qəbul edilmiş yeni qırğız əlifbası da nəzərdə tutulan məqsədinə tam çata bilmədi, çünki 1926-cı il iyulun 1-də Frunze (indiki Bişkek) şəhərində keçirilən qırğız mədəni-maarif və məsul işçilərinin şurasında qırğız əlifbasının SSRİ-dəki digər türk xalqlarının əlifbaları ilə unifikasiya edilməsi (eyniləşdirilməsi) məsələsi müzakirə olundu.*

*1926-cı ilin iyun ayında Bakı şəhərində yeni türk əlifbalarının unifikasiyası üzrə komissiyanın işindən sonra vahidləşdirilmiş əlifbanın tətbiqi haqqında yenidən geniş izahat tədbirləri aparıldı və kadrların yenidən hazırlanmasına başlanıldı...".*

Q.Tınıstanov 1938-ci il noyabrın 5-də SSRİ Ali Hərbi Məhkəməsinin qapalı səyyar sessiyasında, 1921-ci ildən etibarən millətçi "Alaş-Orda" təşkilatına, daha sonra isə burjuaziya-millətçi, diversiyaçı-ziyankar xarakterli "Sosial-Turan" partiyasının rəhbər qrupuna üzv olmaqda ittiham olunaraq güllələnməyə məhkum edildi. Hökm dərhal icra olundu və noyabrın 7-də güllələndi. B.Daniyarov da siyasi ittihamlarla həbs edildi və 1942-ci ildə Rusiyanın Sverdlovsk vilayətindəki siyasi məhbus həbsxanasında həyatını itirdi.

***– Bu qurultayda qazax elindən qatılan nümayəndələrin mövqeyi necə idi?***

**Ermuhammet Maralbek:**



– Bakı qurultayında ölkəmiz adından Əhməd Baytursun oğlu, Eldos Ömər oğlu, Nəzir Töyrəqul oğlu, Bilal Süleyman oğlu və Əziz Bayseydulin iştirak etmişdir. Qurultayda elmi terminologiyanın formalaşdırılması ilə bağlı bir sıra təkliflər irəli sürüldü. Bunların arasında ortaq terminoloji bazanın yaradılması, hər respublikada terminologiya komissiyasının qurulması, türk xalqları üçün ortaq elmi terminlər lüğətinin hazırlanması kimi aktual məsələlərin təşəbbüsü qaldırıldı. Qurultayda Əhməd Baytursun oğlunun əsas məruzələrindən biri terminologiya mövzusunda idi. Alim məruzəsində xüsusilə iki mövzuya diqqət çəkdi: birincisi – terminologiyanın xalq dilinə necə yaxınlaşdırılması; ikincisi isə – termin yaradıcılığında rəhbər tutulacaq prinsiplər. Ə.Baytursun oğlu qazax terminologiyası ilə bağlı mövqeyini və mülahizələrini 1911-ci ildən bəri həyata keçirdiyi, qazax və tatar nəşrlərində mütəmadi qeyd etdiyi üçün, qurultay nümayəndələrinin bu mövzudakı fikirləri ilə tanış olduğunu bildirmişdir. Buna görə də o, köhnə fikirləri təkrar etməyərək, diqqəti yuxarıda qeyd olunan iki məsələ üzərində cəmləməyi xahiş etmişdir.

Digər respublikalarla müqayisədə, Əhməd Baytursun oğlunun rəhbərlik etdiyi qazax ziyalılarının güclü müqaviməti səbəbindən Qazaxıstanda latın əlifbasına keçid gecikmələrlə həyata keçirildi. Türkoloji Qurultaydan sonra ölkədə latın əlifbası tərəfdarları ilə ərəb qrafikalı qazax əlifbası tərəfdarları arasında kəskin mübahisələr başladı. 1926–1928-ci illəri əhatə edən bu dövrdə hələ də "Baytursun oğlu əlifbası" istifadədə idi, dövri mətbuat və kitablar bu əlifba ilə işıq üzü görürdü. 1927-ci il iyunun 3–7-də Bakıda "Ümumrusiya Yeni Əlifbaçılar Mərkəzi Komitəsinin iclası" keçirildi və yeni rəyasət heyəti seçildi. Komitənin sədri vəzifəsinə azərbaycanlı Səməd ağa Ağamalıoğlu seçildi. Üzvlük sırasına Qazaxıstandan dörd nəfər: Töyrəqul oğlu, Kölbaşar oğlu, Aspandiyar oğlu və Dimanşteyn daxil edildi. Çox keçmədən Qızılordada "Mərkəzi Yeni Əlifba Komitəsi" yaradıldı. Komitənin sədri Oraz Jandos oğlu, katibi isə Teljan Şonan oğlu təyin edildi. Komitə latın qrafikalı yeni qazax əlifbasının hazırlanması, təbliği və tətbiqi işləri ilə məşğul oldu.

1928-ci il aprelin 3-də Qazaxıstan Maarif Komissarlığının Kollegiyası (Şurası) və Qazaxıstan Mərkəzi Əlifba Komitəsi latın qrafikalı yeni qazax əlifbası layihəsini təsdiq etdi. Bu, respublika nəşrlərində Qazaxıstan Yeni Əlifba Mərkəzi Komitəsinin sədri Oraz Jandos oğlu və katib Teljan Şonan oğlunun imzası ilə "Qəti təsdiq olunmuş yeni qazax əlifbası" adlı anons məqalə vasitəsilə elan edildi. Məqalədə əlifba variantının artıq dəyişməyəcəyi, başqa layihələrin qəbul edilməyəcəyi xəbərdarlığı edilərək, bu variantla müxtəlif kitabların nəşr olunması və əhalinin onu tam şəkildə qəbul etməsi vəzifə olaraq qoyuldu. Bu layihə baş hərfi olmayan, Baytursun oğlu imlasına xas olan diakritik işarələr (dəyekşi) sisteminə əsaslanan yeni bir əlifba idi.

1928–1929-cu illərdə "Baytursun oğlu əlifbası" istifadədən çıxarıldı və yeni əlifbanın kütləvi qəbulu məcburi edildi. I Ümumittifaq Türkoloji Qurultayını türk xalqları tarixində elmi və siyasi çəkisi baxımından misli görünməmiş nəhəng hadisə adlandırmaq olar.

*Xülasə, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay yaddaşımızda əbədi həkk olunmuş bir xatirədir. O, xalqla birlikdə yaşayan ideyalar silsiləsidir. Bir əsr əvvəl ucalan o səs bu gün yenidən eşidilməkdədir. Türk xalqlarının ortaq dili və ortaq yaddaşı qorumaq canatımı hələ də aktualdır. Bu tarixi toplantı – elmin, fikir azadlığının və mənəvi birliyin rəmzidir. Nə qədər zaman keçsə də, onun əhəmiyyəti əsla azalmayacaq.*

***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

# "Medianın dili elmi müzakirə müstəvisində"

**Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada "Medianın dili elmi müzakirə müstəvisində" mövzusunda konfrans keçirilib.**

Elmi müzakirəni giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin Akademiyanın 80 illik yubileyindəki çıxışında, eləcə də bu ilin əvvəlində yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan dilinin qorunması ilə bağlı səsləndirdiyi fikirlər bu sahədə dövlət siyasətinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Milli Akademiya və Mətbuat Şurasının birgə təşkil etdiyi bugünkü elmi məclis də dövlət başçısının hər iki çıxışında Azərbaycan dilinin saflığının qorunması və zənginləşdirilməsi ilə bağlı irəli sürdüyü mülahizələrin, səsləndirdiyi tələblərin, alimlərin və jurnalistlərin qarşısında duran vəzifələrin müzakirəsinə həsr olunub.

AMEA rəhbəri qeyd edib ki, dövlət başçısının bu istiqamətdə çıxışları, səsləndirdiyi fikirlər müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, milli-mənəvi birliyin gücləndirilməsinə və Azərbaycan dilinin qorunub zənginləşdirilməsinə yönəlib. Ölkəmizdə dövlət dili siyasətinin möhkəm təməllərini ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə formalaşdırıb. Ulu öndər hələ sovet ideologiyasının beynəlmiləlçilik siyasətinin hökm sürdüyü şəraitdə belə, azərbaycançılıq istiqamətində ardıcıl və düşünülmüş addımlar atıb. Müasir dövrdə isə Prezident İlham Əliyev bu xətti dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlayır.

Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı tələblərinin bir neçə əsas istiqaməti əhatə etdiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli qeyd edib ki, bu çevrəyə dilə verilən yüksək dəyər, onun milli mənsubiyyətin əsas göstəricisi kimi təqdim olunması, beynəlxalq terminologiyanın istifadəsinə balanslı yanaşma daxildir. AMEA rəhbəri texnoloji inkişaf dövründə dilin qorunması yollarının göstərilməsinin bu sahədə çalışanlar üçün də praktik bələdçi rolunu oynadığını vurğulayıb. O, Azərbaycan dilinin zənginləşdirilməsi yollarından bəhs edərək, bu baxımdan dialektoloji xəzinə, söz yaradıcılığı və bədii ədəbiyyata müraciət olunmasının əhəmiyyətini vurğulayıb.

Akademik İsa Həbibbəyli AMEA-da dövlət dil siyasətinin icrası istiqamətində görülən işlərdən də danışıb. Dilçi alimlər, eləcə də Azərbaycan Yazıçılar Birliyi ilə birgə keçirilən tədbirlər, Azərbaycan dili üzrə Olimpiadanın təşkili, orfoqrafiya və orfoepiya lüğətlərinin hazırlanması, şəxs adları ilə bağlı məlumat kitabçalarının tərtibi bu fəaliyyətin əsas istiqamətləri kimi qeyd olunub. Azərbaycan dilinin qrammatikası üzrə sistemli elmi tədqiqatların aparıldığı, fonetika, morfologiya və leksika ilə bağlı nəşrlərin çap olunduğu, sintaksis üzrə əsərin isə hazırlanma mərhələsində olduğu bildirilib.

Mətbuat nümayəndələrinin iştirakı ilə keçirilən bugünkü tədbirin əhəmiyyətinə toxunan akademik İsa Həbibbəyli medianın Azərbaycan dilini ən çox zənginləşdirən və kütləviləşdirən yayım vasitəsi olduğunu söyləyib. Akademiya rəhbəri media dilinin tənzimlənməsi istiqamətində







işlərin aparılmasının zəruriliyini bildirib və AMEA-nın bu sahədə Azərbaycan Mətbuat Şurasına elmi dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin ana dilimizin indiki durumu və inkişaf etdirilməsi ilə bağlı səsləndirilən son mülahizələr dövlətin dil siyasətində yeni mərhələyə keçidin mesajını verən strateji çağırışdır. Dil mövzusuna həsr olunan toplantının aktuallığını və əhəmiyyətini önə çəkən, iki qurum arasında formalaşmış əməkdaşlıq münasibətlərindən söz açan Mətbuat Şurasının sədri Rəşad Məcid bu tərəfdaşlığın media dilinin inkişafına mühüm töhfə verdiyini bildirib.

Rəşad Məcid ölkə başçısının Akademiyanın 80 illik yubileyində səslənmiş çağırışdan sonra AMEA, Medianın İnkişafı Agentliyi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda konfransı xatırladaraq qeyd edib ki, həmin müzakirənin də əsas məqsədi mediada ədəbi dil normalarına əməl olunmasını gücləndirmək və nitq mədəniyyətini yüksəltmək olub.

Şura sədri qeyd edib ki, dövlət başçısının jurnalistləri ədəbi dil məsələsində xüsusi məsuliyyət daşıyan peşə sahibləri kimi vurğulaması medianın üzərinə daha böyük öhdəliklər və vəzifələr qoyub. Buna görə də media nümayəndələrinin Azərbaycan dilinin imkanlarından düzgün, səlis və ədəbi normalara uyğun şəkildə istifadə etməsi ciddi və təxirəsalınmaz vəzifələr sırasındadır.

Mətbuat Şurasının sədri rəhbərlik etdiyi qurumun yenidən qurulmuş dil komissiyasının fəaliyyəti barədə məlumat verərək bildirib ki, 12 nəfərdən ibarət tərkibdə tanınmış telejurnalistlər, teleaparıcılar, alimlər, media nümayəndələri və mütəxəssislər təmsil olunublar. Komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının institutları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi nəzərdə tutulur.

Müzakirədə məruzə ilə çıxış edən "APA Media Group"un baş direktoru, Azərbaycan Mətbuat Şurasının Dil Komissiyasının sədri Vüsalə Mahirqızı Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi deyil, həm də milli düşüncə modeli olduğunu söyləyib. O qeyd edib ki, Prezident İlham Əliyev çıxış və müsahibələrində Azərbaycan dilini milli kimliyimizin və dövlətçiliyimizin əsas atributu kimi dəyərləndirib, dilin saflığının qorunmasının vacibliyini vurğulayıb, xüsusilə dilə nəzarətsiz şəkildə xarici sözlərin daxil olmasına qarşı mövqeyini açıq ifadə edib.

Bu istiqamətdə əsas məsuliyyətin dilçi alimlərin üzərinə düşdüyünü deyən Vüsalə Mahirqızı bildirib ki, yeni sözlərin yaradılması, terminologiyanın formalaşdırılması və müzakirəyə çıxarılması birbaşa mütəxəssislərin işidir. Eyni zamanda, media nümayəndələri dilin qorunması və inkişafı naminə dilçi alimlərlə davamlı və sistemli əməkdaşlıq etməli, birgə fəaliyyət göstərməlidir. AMEA-nın Azərbaycan dilinin orfoqrafik, orfoepik, leksik və terminoloji lüğətlər hazırladığını söyləyən məruzəçi bu lüğətlərin həm media, həm də geniş ictimaiyyət üçün elektronlaşdırılmasının, bu prosesdə rəqəmsal, eyni zamanda, süni intellekt texnologiyalarından istifadənin vacibliyini önə çəkib.

"Xalq qəzeti"nin direktor-baş redaktoru Əflatun Amaşov bildirib ki, bu gün 31 mininci sayı işıq üzü görən bu milli qəzetin qapıları ötən 107 ildə olduğu kimi, yenə ziyalılar üçün açıqdır. Qəzetimizin ana dilinə həssas münasibət ənənəsinə sadiq qalaraq mütəxəssis və alimlərin dəyərli rəy, səmərəli təklif və normativ mülahizələrini xalqa çatdırmağa ciddi önəm veririk. Qəzet rəhbəri əlavə edib ki, ədəbi dillə bağlı müzakirələrdə teleradionun imkanları daha genişdir. Dil mənəvi vətənimiz, milli varlığımızın əbədi mövcudluq qalasıdır. Onun saflığının qorunması ilə bağlı heç bir məsuliyyətsizlik, güzəşt ola bilməz. Media dil normalarına ciddi əməl etməli, geniş kütləni də bu tələbə alışdırmalıdır.

Dilçilik İnstitutunun monitorinq və linqvistik təhlil şöbəsinin müdiri, professor Sevinc Əliyeva deyib ki, biz dildə gedən prosesləri diqqətlə izləməli, sözlərin düzgün yazılışı və tələffüzü ilə bağlı narahat olmalıyıq. Azərbaycan dili digər dillərdən fərqli olaraq, morfoloji quruluşludur. Belə olan halda, biz niyə şəkilçilərimizi ixtisar etməliyik? Ana dilimiz şəkilçilər üzərində qurulub. Azərbaycan ədəbi dilinin qorunması üçün yazdığımız kimi danışmalıyıq.

Bakı Dövlət Universitetinin teleradio jurnalistikası kafedrasının müdiri, professor Qulu Məhərrəmli söyləyib ki, Azərbaycanda dillə bağlı ən ciddi problemlərdən biri orfoqrafiya ilə orfoepiyanı ayıra bilməməkdir. İnsanlar yazdığı kimi danışmağa, ya da danışdığı kimi yazmağa vərdiş ediblər. Azərbaycan dilini korlayan faktlardan biri də teleradioda aparıcıların savadsız danışığı, dil normalarını ardıcıl pozmalarıdır. Onların qüsurlu nitqi, arzuolunmaz nümunəsi dil mühitinə düşən yoluxucu virusa bənzəyir.

Mətbuat Şurasının sədr müavini Səadət Məmmədova, Dilçilik İnstitutu terminologiya şöbəsinin müdiri və Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova, Mətbuat Şurasının Dil Komissiyasının üzvlərindən Əməkdar jurnalist Tahir Aydınoğlu və teleaparıcı Nərgiz Cəlilova, Mətbuat Şurası İdarə Heyətinin üzvlərindən Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı da konfransda çıxış edərək mediada ədəbi dil normalarının pozulması ilə bağlı narahatlıq doğuran fakt və meyillərdən söz açıblar, belə halların yolverilməz olduğunu vurğulayıblar.

Konfransda AMEA və MŞ-nin ana dilimizin saflığının qorunması, onun ifadə imkanlarının genişləndirilməsi ilə bağlı birgə fəaliyyətin bundan sonra da yüksək peşəkarlıqla davam etdirməsinin zəruriliyi qeyd edildi. Müzakirələrdən sonra dil məsuliyyətsizliyinə qarşı ictimai qınağın sərtləşdirilməsi, yaxşı nümunələrin geniş təşviq və təqdir edilməsi qərara alındı.

***T.RÜSTƏMLİ***
***XQ***

# Xankəndi bizim idi, indi yenə bizimdir!

## *Bu xoşbəxtlik çoxillik nisgilimizə məlhəm oldu*

**İşğaldan azad olunmuş torpaqlarımıza qovuşmaq, burada yaşamaq, işləmək elə böyük xoşbəxtlikdir ki, bəzən bu duyğuları ifadə etməkdə sözlər aciz qalır. Çünki biz Qarabağın, Şərqi Zəngəzurun həsrətini illər boyu kor düyün edib ürəyimizə yükləmişdik, Vətən deyəndə dodaqlarımız yeddi yerdən çatlayırdı. Laçınlı şair İlham Qəhrəmanın təbirincə desək, uzun illər hər birimiz doğma yurd dərdini ürəyimizə yükləmişik, həsrət ruhumuzun ali qidası olub.**

***Başımı götürüb çıxacam evdən,***
***O əsir dağları deyib gedəcəm.***
***Yoluma yeməyə çörək qoymayın,***
***Yolboyu həsrəti yeyib gedəcəm.***

Çox şükür, daha dağlarımız əsir deyil, daşı-qayası vüsal dəmini yaşayır. Bir vaxtlar düşmən tapdağı altında inləyən torpaqlarımız azadlığına qovuşub, bizsə əzəli sakinlərinin dönüşü ilə həyatın yenidən canlandığı kəndlərimizə, şəhərlərimizə. Sürətlə abadlaşan, inkişaf edən gözəl Xankəndidə də indi əsl sahibləri işıqlı sabahın təməllərini atır, xəyallar gerçəkliyə, sonsuz arzular reallığa çevrilir.

...Azad Xankəndidə qonağı olduğumuz Vəliyevlər ailəsi burada açılan hər səhər ömür kitablarına yazılan xoş tale yazısı kimi sevinclə qarşılayır, hər anı Tanrının mükafatı kimi dəyərləndirirlər. Elman müəllim həyat yoldaşı Aygün xanımla birlikdə tezdən oyanıb həvəslə, qürurla iş yerlərinə – Qarabağ Universitetinə yollanırlar. Evin sonbeşiyi Mirağa isə vaxtilə atasının təhsil aldığı Xankəndi şəhər 4 nömrəli tam orta məktəbə tələsir.

Uşaqlığının, yeniyetməliyinin acılı-şirinli xatirələri Xankəndi ilə bağlı olan Elman Vəliyev bildirdi ki, illərin həsrətindən sonra doğma yurdda yaşamaq ona şirin yuxu kimi gəlir:

– Hərdən qorxuram. Elə bilirəm birdən kimsə məni oyadar ki, yuxudaydın. Mən 3 yaşımdan bu şəhərdə böyümüşəm. Küçələrini qarış-qarış tanıyıram. Şəhərin "kərpiçni" deyilən məhəlləsində böyük həyət evimiz vardı. Ən gözəl günlərim burada keçib. 6 yaşımdan futbol məktəbinə getmişəm. O vaxt Xankəndinin "Qarabağ" adlı futbol komandası vardı, həmin komandanın əvəzedici heyətində oynamışam. Təhsil aldığım orta məktəblə bağlı elə şirin xatirələrim var ki...

...Ötən əsrin 90-cı illərində Qarabağda erməni separatizmi baş qaldıran zaman xankəndililər düşmənin məkrli planlarının ilk qurbanlarına çevrildilər. Şəhərdə yaşayan bütün azərbaycanlılar qısa vaxtda zorla ev-eşiklərdən qovuldular. Elmangilin ailəsi də 1988-ci ilin 18 sentyabrında min bir əziyyətlə tikdikləri evlərini tərk edərək Şuşaya pənah aparıb. Ancaq onları qarşıda daha böyük müsibətlər gözləyirmiş. Bir qardaşı Rizvan 1992-ci ildə Şuşanın müdafiəsi zamanı şəhid olub, digər qardaşı Zakir Xocalının dəhşətlərini yaşayıb: soyqırımı gecəsi yaralanaraq əsir düşüb, həyat yoldaşı, oğlu və qızını isə erməni cəlladları qətlə yetiriblər. Zakiri sonralar əsirlikdən xilas etmək mümkün olsa da, üzləşdiyi işgəncələrin acı nəticəsi özünü çox gözlətməyib. Ailənin digər oğlu, Birinci Qarabağ müharibəsinin iştirakçısı Bəkir Vəliyev isə 2001-ci ildə polis zabiti kimi cinayətkar qrupun zərərsizləşdirilməsi zamanı qəhrəmancasına həlak olub, bir il sonra ümummilli lider Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib. Elman müəllimin valideynləri Vətən həsrətinə, övlad dərdlərinə dözməyərək müvəqqəti məskunlaşdıqları Göyçay rayonunda dünyalarını dəyişiblər...



Yaşadıqları acılardan tez-tez kövrələrək bəhs edən Elman Vəliyev indi doğma şəhərində yaşamağın bütün dərdlərinə məlhəm olduğunu dedi:

– Göyçayda uzun müddət təhsil sahəsində çalışmışam. Bizə bu xoşbəxt anları bəxş edən, torpaqlarımızı işğaldan azad edən möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamı ilə Qarabağ Universiteti yarananda burada işləmək üçün ilk müraciət edənlərdən biri də mən oldum. Universitetin rektoru Şahin Bayramova çox minnətdaram. Müraciətimizə həssas yanaşdı, məni və həyat yoldaşımı həm işlə, həm də öz evimiz hazır olana kimi normal şəraiti olan müvəqqəti mənzillə təmin etdi. Kollektivimiz bir ailə kimidir. Burada çalışmaq hamı üçün qürurvericidir.




Fürsətdən istifadə edib bir məsələyə də toxunmaq istəyirəm. Dövlətimiz həm bir vaxtlar "torpaqlarımız işğaldan azad olunsun, gedib çadır qurub yaşayaram" deyən insanları mərhələli şəkildə öz doğma ata-baba yurdlarına qaytarır, həm də onların burada rahat yaşamaları üçün hər cür şərait yaradır. Ona görə də xankəndili bir ziyalı kimi, qayıdış sevinci yaşamış bəzi şəxslərin müxtəlif sosial şəbəkələrdə paylaşımlar edən zaman daha diqqətli olmalarını, bizi təkcə dostların deyil, düşmənlərin də izlədiyini nəzərə almalarını tövsiyə edərdim...

Aygün Vəliyeva da duyğularını bizimlə bölüşərək bildirdi ki, Xankəndinin sanki sehrli bir cazibəsi var, insanı özünə çəkir:

– İlk gəlişimizdə yolboyu neçə dəfə kövrəldik, Xocalıdan keçəndə isə hamımız ağladıq. İndi bu şəhərə necə bağlanmışıqsa hara getsək, bura üçün darıxırıq. Allah şəhidlərimizə rəhmət eləsin! Allah Prezidentimizi qorusun! Fəxr edirik ki, övladımız atasının oxuduğu məktəbdə təhsil alır, azad Vətənin qayğısız vətəndaşı kimi böyüyür. Mirağa 11-ci sinifdə oxuyur. Arzusu ali məktəbə daxil olmaq, gələcəkdə isə işğaldan azad edilmiş torpaqlarımızın yenidən qurulmasında, cənnətə çevrilməsində iştirak etməkdir.

Söhbətimizin sonunda Elman müəllim Xankəndiyə ilk gəlişi zamanı gözləmədiyi halda bir uşaqlıq xatirəsi ilə qarşılaşdığı haqqında danışdı:

– Evimizə baş çəkdim, təsirlənmiş halda həyəti gəzəndə hasardan asılmış məftil arabanı gördüm. Bu, mənim uşaq vaxtı oynadığım, "maşınımdır" deyə, "siqnal verə-verə" sürdüyüm, alüminium məftildən düzəldilmiş araba idi. Əvvəl gözlərimə inanmadım. Necə olubsa, dəyib-toxunmayıblar. Təsəvvür edin ki, hansı hissləri keçirdim. Bir anda uşaqlığıma döndüm sanki!

**Xoş sabaha sürətlə addımlayan, inkişafı, dirçəlişi dünyanı heyrətləndirən Qarabağımızda doğma yurduna dönmüş daha bir ailənin qaranlıqdan işığa uzanan tale yoluna nəzər saldıq, sevincinə şərik olduq. Bir daha əmin olduq ki, zaman keçsə də, nə möhtəşəm qələbələrimizin ürəyimizi dağa döndərən qüruru azalan deyil, nə də xalqımızın Vətən sevgisi tükənəcək. Vətənimizi qalib, qüdrətli edən də məhz bu sevgidir.**

Xankəndinin doğmalarını ağuşuna almış küçələrini ürəkdolusu öyünclə gəzdikcə, qənaətimiz xoşbəxtlik düsturu kimi səslənir: Xankəndi bizim idi, indi yenə bizimdir! Bu dəfə onu bizdən heç kəs ala bilməz.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Qərbi Azərbaycanın Amasiya rayon icmasında görüş

**Qərbi Azərbaycanın Amasiya rayon icmasında növbəti əhəmiyyətli toplantı keçirilib. İclasda mədəni irsin qorunması, təşkilati fəaliyyətin daha sistemli qurulması istiqamətində mühüm məsələlər müzakirə olunub.**



Toplantının gündəliyində Aşıq İsgəndərin 100 illik yubileyinə hazırlıq prosesi, rayon kənd icmalarının son 2 ayda həyata keçirdiyi fəaliyyətin təhlili, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi, eləcə də sosial mediada icmanın işinin müasir tələblərə uyğun təşkili vurğulanıb.

Akademik Abel Məhərrəmov bildirib ki, bu fəaliyyət istiqamətləri həm tarixi yaddaşın yaşadılması, həm də Qərbi Azərbaycan həqiqətlərinin sistemli şəkildə ictimaiyyətə çatdırılması baxımından strateji əhəmiyyət daşıyır. O, Qərbi azərbaycanlıların Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasəti ardıcıl şəkildə dəstəklədiklərini diqqətə çatdırıb.



2026-cı ilin Fəaliyyət Planına uyğun olaraq Aşıq İsgəndərin 100 illik yubileyinə hazırlıq çərçivəsində görülən işlər barədə ətraflı məlumat verilib, tədbirlərin yüksək səviyyədə təşkili üçün konkret tapşırıqlar müəyyənləşdirilib.

Müzakirələrdə Qərbi Azərbaycan İcması Müşahidə Şurasının üzvü Hümbət Musayev, icmanın koordinatoru Əhməd Rzayev, sektor rəhbəri Əbdüləli Həsənov, BDU-nun Erməni Araşdırmaları və Təlim Mərkəzinin direktoru İsmayıl Tanrıverdi, professorlar Aftandil Ağbabalı, Aslan Bayramov, şair-publisist Şəmsi Qoca və başqaları yubiley tədbirlərinin konsepsiyası və ictimai əhatə dairəsi ilə bağlı fikirlərini bölüşüblər.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərlinin tapşırıqlarına uyğun olaraq sosial şəbəkələrdə Amasiya rayon icmasının fəaliyyətinin daha çevik və peşəkar şəkildə təqdim olunması, informasiya siyasətinin gücləndirilməsi və Amasiya TV internet kanalının imkanlarının genişləndirilməsi məsələləri müzakirə edilib. Akademik Abel Məhərrəmov informasiya mübarizəsinin müasir mərhələdə xüsusi önəm daşıdığını bildirib.

Qərbi Azərbaycan İcması Müşahidə Şurasının üzvü Hümbət Musayev və rayon icmasının fəalları Bəylər Qurbanov, Emil Əliyev, Elmar Kərimov, Vüsal Rəhimli, Səbuhi Şamilov, Sevinc Abbasova, Məsud Qurbanov və Elmar Hüseynov çıxış edərək təklif və rəylərini səsləndiriblər.

Toplantı bir daha göstərdi ki, Qərbi Azərbaycan ideyası təşkilatlanmış, məqsədyönlü və gələcəyə hesablanmış fəaliyyət strategiyasıdır. Bu istiqamətdə atılan hər addım milli birliyin möhkəmlənməsinə, mədəni irsin yaşadılmasına və tarixi ədalətin bərpasına xidmət edir.

***XQ***

# Kompüter ekranı dünyaya və biliklərə açılan pəncərədir

## *Lakin uşaqları onun bəlalı təsirlərindən qorumaq lazımdır*

**“Uşaqların sosial şəbəkələrdən, rəqəmsal platformalardan, planşet və smartfonlardan nəzarətsiz istifadəsi onları psixoloji risklərlə üz-üzə qoyur. Ötən həftələrdə “İdrak” liseyində baş verən amansız hadisə bunun bariz nümunəsidir”. Uşaq və yeniyetmələrin elektron vasitələrdən həddindən artıq və yersiz istifadəsi barədə “XQ”-yə bu açıqlamasının davamında tibb elmləri doktoru, səhiyyə eksperti Yazgül Abdıyeva söylədi:**



– Cəmiyyətdə mənşəyi və məzmunu aydın olmayan bəzi cizgi filmləri və oyunlar vasitəsilə uşaqlara gizli psixoloji aqressiya ötürüldüyü məlumdur. Aqressiv və hiperaktiv süjet xətti olan animasiya filmləri zorakılığı adi və komik hal kimi təqdim edir. Qorxu elementləri daşıyan məzmunlar isə kiçikyaşlı uşaqlarda təşviş, gecə qorxuları və narahatlıq yaradır. Vizual olaraq həddindən artıq sürətli və parlaq məzmunlar diqqət dağınıqlığını artırır və uşağın sinir sistemini həddindən artıq stimullaşdırır.

Onlayn oyun platformaları uşaqlarda yaradıcılığı inkişaf etdirsə də, nəzarətsiz və həddən artıq istifadə zamanı asılılıq, aqressiya, sosial uzaqlaşma və yuxu pozuntuları yarada bilər. Uşaq virtual mühitdə uzun saatlar keçirdikdə real sosial bacarıqlar zəifləyir.

Araşdırmalar göstərir ki, ekran qarşısında daha az vaxt keçirmək uşaqlarda davranış və emosional problemlərin azalmasına, sosial qarşılıqlı əlaqələrin isə yaxşılaşmasına səbəb olur.

**Ekspert telefon və planşetlərdən çox istifadə etməyin mənfi təsirlərindən də söz açdı:**

– Cihazların zərərli təsirləri həddən artıq çoxdur. Uşaqlarda daha çox müşahidə edilən təsirlərdən bir neçəsini sadalasaq, məncə, kifayətdir:

**Özünəinamsızlıq və müqayisə:** Sosial mediada nümayiş olunan “ideal” həyat və bədən standartları uşaqlarda yetərsizlik hissi yaradır.

**Psixi sağlamlıq problemləri:** Sosial media ilə həddindən artıq təmas depressiya, təşviş və tənhalıq hissini artırır. Bu, ağır hallarda aqressiya və özünə zərər düşüncələrinə qədər gedə bilər.

**Asılılıq və dofamin təsiri:** “Like” düyməsi beyində mükafat mexanizmini aktivləşdirir və asılılıq formalaşdırır.

**Yuxu pozğunluğu:** Xüsusilə yatmazdan əvvəl ekran qarşısında çox oturmaq melatonin ifrazını azaldır və yuxu keyfiyyətini pozur.

**Kiberbullinq (onlayn zorakılıq):** Təhqir, təqib və sosial kənarlaşdırma uşağın emosional halına ciddi zərbə vurur.

**Sosial bacarıqların zəifləməsi:** Virtual ünsiyyət real münasibətləri əvəz etdikdə empatiya və emosional intellektin inkişafı ləngiyir.

**Yazgül Abdıyeva uşaq və yeniyetmələrdə ekran vaxtını tənzimləməyin yollarından da söz açdı:**



– Psixoloqların və pediatrların tövsiyələrinə görə, 2–5 yaşlı uşaqlar gündə maksimum 1 saat, 6–12 yaş aralığında olanlar 1–2 saat ekran qarşısında vaxt keçirə bilərlər. Yeniyetmələr 2 saatdan çox olmamaq şərtilə telefon ya planşetə baxa bilərlər. Bu zaman nələrə diqqət edilməlidir: yatmazdan ən azı 1 saat əvvəl bütün ekranlar söndürülməli; uşağın yataq otağında telefon və planşet olmamalıdır.

**Ekspert müasir dövrdə uşaqların verilən məsləhətlərə bir qədər aqressiv yanaşdıqları zaman valideynlərin nə etməli olduqlarını diqqətə çatdırdı:**

– Bu problemi çözmək üçün ən rahat üsul telefonun, yaxud planşetin özündə olan proqramlardan istifadə etməkdir. Amma başqa üsulları da qeyd etmək yerinə düşər: **ekran saatlarına konkret limit qoymaq; məzmunu uşaqla müzakirə etmək; açıq havada fiziki aktivliyi artırmaq; kitab oxumaq və ailə saatları yaratmaq; sosial şəbəkə və oyun istifadəsini yaşa uyğun tənzimləmək; valideyn nəzarəti proqramlarından istifadə etmək.**




Ekspert sonda qeyd etdi ki, uşaqlara texnologiyanı tam qadağan etmək düzgün yanaşma deyil. Əsas məqsəd balans yaratmaqdır. Problem cihazın özü deyil, nəzarətsiz və həddindən artıq istifadəsidir.

Uşağın psixoloji sağlamlığının əsas qoruyucu faktoru sevgi, diqqət və təhlükəsiz ailə mühitidir. Əgər valideyn aktiv mövqe tutarsa, texnologiya təhlükəyə deyil, inkişaf vasitəsinə çevrilə bilər.

***Hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

*Həftənin şərəf təqvimi*

# Ölməzlik məbədinin sütunları

**Onlar müxtəlif zamanlarda yaşasalar da, bizim günlərdə eyni hikmət mülkünün sütunlarından sayılırlar. Biri kainatın sirlərinə körpü salmış elm dahisi, o biri haqq aşiqi kimi canından keçmiş irfan zirvəsi, 3-sü isə çoxəsrlik qəzəl sənətinə zəmanəmizdə yeni nəfəs vermiş ustad şairdir.**



**Nəsirəddin Tusi**

**Riyaziyyatın mürəkkəb qanunauyğunluqlarına dərindən bələd olan və kainatın nizamını rəqəmlərin dili ilə izah edən dahi mütəfəkkir Nəsirəddin Tusi öz zəkasının qüdrəti ilə antik elmi irsi yeni mərhələyə daşımış, Şərq intibahının fəlsəfi və dəqiq elmlər ənənəsini eyni müstəvidə birləşdirərək elmin üfüqlərini genişləndirmişdir.**

Məhəmməd ibn Həsən ət-Tusi 1201-ci il fevralın 18-də qədim Tus şəhərində dünyaya göz açmışdır, məhz Tus torpağında doğulub boya-başa çatdığı üçün bəşər tarixində “Tusi” nisbəsi ilə iz qoymuşdur.

Hələ gənc yaşlarından iti zəkası ilə hökmdarların diqqət mərkəzində olan Tusi otuz yaşında Kuhistan ismaililərinin rəhbəri Nasirəddin Möhtəşəmin dəvətini qəbul edərək, hikmət və fəzilət çırağı sayılan məşhur “Əxlaqi-Nasiri” əsərini qələmə almışdır. Lakin taleyin amansız gərdişi onu saray ehtiramından Ələmut qalasının sıldırım qayalıqlarına – dustaq həyatına sürükləmişdir. On iki ildən artıq davam edən bu məcburi sürgündə mənəvi sıxıntılar içində qovrulsa da, o, elmin nurundan qopmamış, ən ağır şəraitdə belə İbn Sinanın fəlsəfəsinə yeni nəfəs verən “Şərh əl-İşarat” kimi fundamental əsərlərini tamamlamışdır.

1256-cı ildə Hülaku xanın yürüşü ilə azadlığa qovuşan Tusi, öz geniş biliyi və uzaqgörənliyi ilə Elxanilər dövlətinin ali məsləhətçisi məqamına yüksəlmişdir. Elxani hökmdarlarının Azərbaycana, xüsusilə Marağa və Təbrizə olan marağını elmi intibahın xidmətinə verən dahi alim 1259-cu ildə məhz burada bəşər tarixinin ən möhtəşəm elm məskənlərindən birini – Marağa rəsədxanasını təsis etmişdir. Türk və monqol mədəniyyətinə, dilinə və adətlərinə dərindən bələd olması onu həm də dövlətin siyasi sütunlarından birinə çevirmişdi.

Nəsirəddin Tusinin elmi fəaliyyəti orta əsrlər Şərq elminin zirvəsi hesab olunur. O, astronomiya elmində yeni bir mərhələ açan “Zic-i Elxani” cədvəllərini tərtib etməklə ulduzların koordinatlarını və göy cisimlərinin hərəkət qanunauyğunluqlarını riyazi dəqiqliklə müəyyən etmişdir.

Tusi təkcə göylərin deyil, həm də rəqəmlərin mütləq hakimi idi. O, “Şəklül-qita” əsəri ilə triqonometriyanı müstəqil bir elm sahəsi kimi riyaziyyat tarixinə daxil etmiş və bu sahədə Avropa alimlərini yüz illərlə qabaqlamışdır. Alimin mineralların təsnifatından bəhs edən “Tənsuqnaməyi-Elxani” və dövlət idarəçiliyinin iqtisadi əsaslarını izah edən risalələri onun ensiklopedik zəkasının hüdudsuzluğunu göstərir.

75 il ömür sürən bu böyük zəka sahibinin elmi mirası bu gün də bəşəriyyətin yoluna işıq salmaqdadır.



**İmadəddin Nəsimi**

***Gərçi bu gün Nəsimiyəm,***
***haşimiyəm, qureyşiyəm,***
***Məndən uludur ayətim,***
***ayətü şanə sığmazam***

Bu mənəvi ucalığın müəllifi–1369-cu il fevralın 18-də qədim Şamaxı şəhərində dünyaya göz açmış, mübariz ruhu ilə Şərq təfəkkürünü sarsıtmış intibahın memarı İmadəddin Nəsimi varlığın hikmətini insanın özündə axtaran, “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” deyərək bəşər övladını ilahi zirvəyə yüksəldən ruhun tərcümanıdır.

Şamaxının odövrkü elmi-ədəbi mühitində püxtələşən mütəfəkkir dövrünün ən mürəkkəb elmlərinə – astronomiya, məntiq və fəlsəfəyə dərindən vaqif olmuşdur. Lakin onun əsl missiyası Nəimi tərəfindən təməli qoyulmuş hürufizm təlimini bir inanc və eşq fəlsəfəsi kimi bütöv coğrafiyaya yaymaq idi. Bu yolda qarşılaşdığı zülm və təqiblər onu yolundan döndərməmiş, əksinə, dərisini soysalar belə, haqqın carçısı olaraq əbədiyyət qazanmışdır.

Nəsimi gənc olanda bir sufi idi. O zamanlar çox sakit, dünyadan əl çəkən bir dərviş kimi yaşayırdı. Deyirdi ki, mən Allahın qarşısında bir zərrəyəm, bir kölgəyəm. Bu dövrdə yazdığı şeirlərdə bir qulluq, bir təslimiyyət var idi.

İlk vaxtlarda o əsərlərini “Hüseyni”, “Seyid Hüseyni”, “Seyid” təxəllüsləri ilə yazır. Lakin sonradan Fəzlüllah Nəiminin adından ilhamla “Nəsimi” təxəllüsünü götürür. Klassik Şərq ənənəsində şagird özünə təxəllüs seçərkən çox vaxt ustadının adına uyğun bir ad seçərdi. “Nəimi” sözü “nemət”, “xoşbəxtlik” mənasına gəldiyi halda, “Nəsim” sözü ərəbcə “yumşaq və xoş meh”, “səhər küləyi” deməkdir. Şair bu adı götürməklə sanki ustadının hürufilik ideyalarını bir meh kimi hər yana yayacağını simvolizə edirdi.

Nəsimi poeziyası Şərqin intellektual dəyərlərini özündə cəmləyən xəzinədir. Fəzlüllah Nəiminin hürufi ideyalarını bədii zirvəyə yüksəldən şair ana dilimizin zənginliklərindən elə bir ustalıqla istifadə etmişdir ki, onun xitab və təkrarlar üzərində qurulmuş misraları zamanın hüdudlarını aşır.

Şairin fəlsəfi düşüncələri çox keçmədən Orta Asiya, Türkiyə və İran coğrafiyasına yayılaraq bəşəri bir rəğbət qazanır. Nəsimi adı öz əqidəsi uğrunda ölümdən qorxmayan cəsarət və sarsılmaz sədaqət rəmzinə çevrilir, onun ideyalarını təbliğ edənlər bu müqəddəs yolun əzablarına böyük bir eşqlə qatlaşırlar.

Mütəfəkkirin elmi-ədəbi irsinə verilən dəyər sonrakı əsrlərdə də davam edir. Onun divanı Azərbaycanda və İranda müxtəlif illərdə, xüsusən “Gecə qaranlığında Simurq” kimi poetik adlarla dəfələrlə nəşr olunmuşdur. Qeyd etmək yerinə düşər ki, İmadəddin Nəsiminin əlyazma nüsxələri dünyanın bir çox kitabxana və muzeylərində qorunub saxlanır. Qardaş Türkiyənin kitabxana və əlyazma mərkəzlərində Nəsiminin əsərlərinin 170-dək əlyazması mövcuddur. Bununla yanaşı, şairə aid edilən bir çox nəsr əsərləri mövcuddur ki, onların xüsusi tədqiqata ehtiyacı var.



**Əliağa Vahid**

***Hər yerdə, Vahid, indi sənin***
***söhbətin gedir,***
***Xalqın sevən bir aşiq olarmı***
***fəsanəsiz?***

Bu beyti ilə poetik ünvanını nişan verən başqa bir ünlü şairimiz isə əruzun sirlərinə bələd olub, söz mülkündə özünə taxt qurmuş qəzəlxan Əliağa Vahid təbinin qüdrəti ilə klassik qəzəl ənənəsini yeni nəfəs, yüksək ovqatla dirçəltmiş, onu zamanın ruhu ilə həmahəng sənət zirvəsinə yüksəltmişdir.

1895-ci il fevralın 18-də Bakıda dünyaya göz açan şair qəzəl aləmini öz qələmi ilə fəth edənlərdən idi. Gənc Əliağa təhsilinə mədrəsədə başlasa da, taleyin hökmündən qaça bilməmişdi. Məişət sıxıntıları və ehtiyac onu təhsildən ayırıb, xarrat dükanında işləməyə məcbur etmişdi. Xarratlıq edib quru ağaclara forma versə də, ruhu tam başqa bir aləmdə – ədəbi mühitdə pərvaz edirdi. Çünki Vahidin qəlbi söz eşqinin atəşi ilə alovlanırdı.

Bakının məşhur “Məcməüş-şüəra” məclisi onun üçün məktəb oldu. Azər və Müniri kimi ustadlardan bəhrələnir, cəmiyyətdəki əyri-əskiyi, zülmün və cəhalətin törətdiyi fəsadları itizəkalılıqla duyur, satira qılıncı ilə ifşa edirdi. Elə bu ruhla da “Tamahın nəticəsi” adlı ilk əsərini ərsəyə gətirmişdi.

XX əsrin əvvəllərində zamanın çarxı döndü, məmləkətə fərqli nizam gəldi, Azərbaycanda Sovet hakimiyyəti quruldu. Vahid bu dövrdə də dayanmadı. “Molla Nəsrəddin” və “Kommunist” səhifələrində xalqın səsini ucaltdı. Onun “Kupletlər” və “Mollaxana” kitabları yeniliyə qarşı çıxanlara dərs oldu .

Vahid xalqın mənəvi oyanışı üçün çalışırdı. O, “Məktəb nə deməkdir?” şeiri ilə cəmiyyətin paslanmış düşüncələrinə işıq salır, elmi qaranlıqları yaran bir məşələ bənzədirdi. Onun üçün məktəb millətin istiqbalını nurlandıran, xalqı cəhalət zəncirindən azad edən müqəddəs ocaq idi. Şair inanırdı ki, maariflənməmiş cəmiyyət azadlığın dadını duya bilməz.

Vətən göylərini qara buludlar alanda, Vahidin qəzəlləri əsgər üçün məlhəmə çevrildi. Onun “Döyüş qəzəlləri” kitabı qələbəyə olan inamın təzahürü idi. Düşmənə olan nifrətini alovlu misraları ilə hayqırır, Vətən məhəbbətini isə hər beytində müqəddəs and kimi ucaldırdı.

*“Bu fəxrdir mənə Vahid ki,*
*xalq şairiyəm,*
*Böyük Füzulilərin*
*xaki-payinin biriyəm,*

Bütün bəşər yaşadıqca mən ölmərəm, diriyəm” – deyən şairin bu misraları yaradıcılıq yolunun xülasəsidir. Qəzəli saray dilindən çıxarıb, xalqın başa düşdüyü sadə və səmimi dilə gətirən, Füzuli məktəbinin sadiq xələfi Vahid həm də muğamın ruhuna can verən nəğməkar idi. Bu gün oxunan muğamların, təsniflərin çoxunun Vahid qəzəlləri üzərində qurulması təsadüfi deyil, qəzəlxanın sözləri musiqi ilə elə birləşib ki, biri olmadan digəri tamamlanmır.

1965-ci il oktyabrın 1-də vəfat edən şairin irsi zamanla dəyər qazanaraq milli sərvətimizə çevrilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarına əsasən, Əliağa Vahid Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

***Hazırladılar:***
***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 32 (31001) 19 fevral 2026-cı il, cümə axşamı

## İDMAN

### İdmançılarımız Qış Olimpiya Oyunlarında

**Azərbaycanı İtaliyada keçirilən Milan-Kortina-2026 Qış Olimpiya Oyunlarının dağ xizəyinin slalom növündə təmsil edən Anastasiya Papatoma yarışlarda növbəti çıxışını edib.**



Kortina Ampetsodakı Tofane Alp Xizək Mərkəzində keçirilən yarışda idmançımız ikinci enişinə 59-cu sırada başlayıb. 18 yaşlı təmsilçimiz 64 iştirakçı arasında 1:07:34 saniyə göstərici ilə finiş xəttinə çatıb.

Bununla da Anastasiya Papatoma hər iki cəhdin yekunlarına əsasən 2:09:15 saniyə nəticə ilə XXV Qış Olimpiya Oyunlarındakı çıxışını 51-ci yerdə başa vurub. Onun bu çıxışı Azərbaycan üçün Qış Olimpiya Oyunlarının slalom yarışlarında tarixi nəticə hesab olunur.

İdmançımızın çıxışını Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev də izləyib.

Xatırladaq ki, ilk enişində 92-ci sırada mübarizəyə başlayan Anastasiya Papatoma 1:01:81 saniyə göstərici ilə finiş xəttinə çatmışdı.

Azərbaycan komandası Milan-Kortina-2026 Qış Olimpiya Oyunlarında 2 idmançı ilə təmsil olunub.

Oyunların əvvəlki günlərində komandamızın üzvü Vladimir Litvintsev fiqurlu konkisürmə yarışlarının qısa proqramda çıxış edib. Hakimlər tərəfindən 63,63 bal alan idmançımız bu nəticə ilə sərbəst proqrama vəsiqə qazana bilməyib.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunlarına fevralın 22-də yekun vurulacaq.

### Pley-off mərhələsinin ilk oyunları

**UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyun günündə dörd qarşılaşma keçirilib.**



Türkiyənin "Qalatasaray" klubu İtaliyanın "Yuventus" komandasını qəbul edib. Birinci hissənin 15-ci dəqiqəsində Qabriel Sara meydan sahiblərini hesabda önə çıxarıb – 1:0. Görüşün 16-cı və 32-ci dəqiqələrdə "Yuventus"un oyunçusu Teun Koopmeiners vurduğu qollarla komandasını hesabda irəli çıxarıb – 2:1. İkinci hissədə daha yaxşı oynayan İstanbul təmsilçisi Noa Lang (49' və 74'), Davinson Sançez ( 60') və Saşa Boeyin (86') qolları sayəsində böyük hesablı qələbəyə imza atıb – 5:2.

Gecənin digər oyunlarında "Borussiya" (Dortmund, Almaniya) "Atalanta"ya (İtaliya) qalib gəlib (2:0), "Benfika" (Portuqaliya) "Real"a (İspaniya) 0:1, "Monako" (Fransa) isə PSJ-yə (Fransa) məğlub olublar (2:3).

### Dünyanın ən yaxşı 41-ci milli çempionatı

**Misli Premyer Liqası dünyanın ən yaxşı 41-ci milli çempionatı hesab olunub.**

50 çempionatdan ibarət siyahını Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) açıqlayıb.

IFFHS 2021-ci il yanvarın 1-dən 2025-ci il dekabrın 31-dək olan müddəti əsas götürüb.

Misli Premyer Liqası 1991,5 xalla 41-ci sırada yer alıb.

İngiltərə Premyer Liqası (8087) birinci, Braziliya (7735,5) və İtaliya (7510) A seriyaları 2-3-cü yerlərdə qərarlaşıblar. Türkiyə Superliqası (4029,25) 12-ci pillədədir.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Hər şeyin təzəsi, axtardığının köhnəsi...

## *Paytaxtın məşhur "əntiq mallar" bazarından reportaj*

**Yaxın günlərin söhbətidir. İki qonşumun sakitcə söhbətinə qulaq asıram. Onlardan biri gündəlik məişətdə işlətdiyi hansısa əşyanın ehtiyat hissəsinin tapılmamasından söz açaraq çarəsiz qaldığını bildirirdi. O biri isə təkidlə deyirdi: "Sabunçudakı "bit" bazarına get, axtardığını oradan tapa bilərsən".**

Söhbət Sabunçu rayonu ərazisində yerləşən bazardan gedir. Ucuzluğu ilə seçilən bu bazar el arasında uzun illərdir ki, "rus" bazarı, bəzən də "bit" bazarı adı ilə məşhurlaşıb. Maraqlıdır ki, bu ad haradan yaranıb? Sovet dönəmində ruslar köhnə, işlənmiş əşyaları, geyimləri bura gətirərək satışını təşkil ediblər. Köhnə mallar satıldığı üçün bura "bit" bazarı adı verilib.

Məlumatlara görə, dünyada "bit" bazarının ən böyüyü Fransada yerləşir. Parisin şimal ətraflarında Seine-Saint-Denis bölgəsindəki Saint-Ouendəki "Marche aux puces" ilk "bit" bazarlarından biridir. Yaponiyanın paytaxtı Tokioda yerləşən "Togo Shrine" bazarı isə olduqca məşhurdur. Rusiyada da bu cür bazarların sayı çoxdur. Belə ki, Sankt-Peterburqda "Udelnaya" dəmiryolu platforması və eyniadlı metro stansiyasının yaxınlığındakı bazar məşhurluğuna, eləcə də çoxdan fəaliyyət göstərdiyinə görə, onların arasında ilk yeri tutur. Türkiyənin böyük şəhərlərinin çoxunda da "bit" bazarlarına rast gəlinir. İstanbulda Horhor Antikaçılar Çarşısı, Dolapdere, Feriköy, Kadıköy, Ankarada Ulus İtfaiye Meydanı "bit" bazarı, İzmirdə isə Yeni Bornova bazarı bu qəbildəndir.

Nəhayət, sözügedən bazara üz tuturuq. Sübh tezdən olmasına baxmayaraq, bazarda iynə atsan, yerə düşməz. Bazara girən kimi insanı başqa bir aləm qarşılayır. İnsanların gəlişləri ilə bazar sanki oyanır, səslər bir-birinə qarışır, addımlar sürətlənir. Burada həyat daha səsli, daha canlıdır. Satıcıların mehriban çağırışları, alıcıların ehtiyatlı sualları, qab-qacağın cingiltiləri çox keçmir ki, ətrafa yayılır. Kimisi tələsir, kimisi gülümsəyərək qiymət endirir, kimisi də, sadəcə dayanıb ətrafa boylanmaqla bazarın axınına qoşulur. Burada nələr satılmır?

Bazarda hər təbəqədən olan insanlarla qarşılaşırsan. Bazar özünəməxsus səs-küyü, yerə səliqə ilə düzülmüş antikvar qabların üzərinə düşən günəşin rəngləri ilə daha da canlanır. Satıcıların ucadan çağırışları, alıcıların qiymət söhbətləri, ev quşlarının nəğmələri bazarda xüsusi bir ahəng yaradır.



Satıcıların əksəriyyəti yaşlı insanlardır. Şirin, duzlu-məzəli zarafatları, zümzümə etdikləri mahnıları ilə bazarın uzun illərdir ki, "sakin"ləri olmalarından xəbər verir.

Burada hər kəsin bir həyat hekayəsi var. "Bazar varsa, həyat var, həyat varsa, ümid var" – söyləyən Səftər dayı üzünü alıcılara tutaraq satdığı antikvar əşyaları dəyər-dəyməzə verdiyini, vaxt gələcək əlbəəl axtarılacağını uca səslə bildirir. Söhbətcil insan olduğundan üz tutduğumuz ilk ünvan da elə Səftər dayı olur. Əslən bakılıdır, 85 yaşı var. Dost-tanışdan aldığı, elə özünün vaxtilə istirahət üçün üz tutduğu xarici ölkələrdən gətirdiyi antik əşyaların satışı ilə məşğuldur. Qazancından və aldığı təqaüddən narazı deyil. Uzun illər zərgərliklə məşğul olduğundan antik malları ayırd etməkdə çətinlik çəkmir. Bazarı qazanc mənbəyi bilir. Alıcılardan da razılıq edir. Elə müştəriləri var ki, hər həftə müxtəlif antik əşyalar sifariş edir. Əlaqələri geniş olduğu üçün dərhal sifarişi yerinə yetirir.

15 ildən çoxdur ki, alver etdiyini deyən Adil adlı satıcı söyləyir: "Burada istənilən bir əşyanı tapmaq mümkündür. Satılan malların çoxu köhnə olsa da, xeyli imkanlı müştərilərimiz var. Bir də görürsən elə bir qiymətli əşyanın bir hissəsi sıradan çıxıb ki, haradansa tapa bilmir, bura üz tutur".

Bazarda təzə əşyalara da rast gəlirik. Qiyməti elə də ucuz deyil. Satıcılar bunun səbəbini belə izah edirlər ki, istehsal tarixi 40 ilə yaxın olduğundan indiki mallardan daha keyfiyyətlidir. Nə vaxtsa alınıb, bir dəfə də olsun istifadə edilməyib. Ona görə də bu cür məhsullara tələbat var.

Qədimi samovarların satışı ilə yanaşı tozun, pasın arasında parlayan metal fiqurlar, köhnə gümüşü rəngli şamdanlar insanda istər-istəməz nostalji hisslər yaradır. Fiqurları, mis qabları gördükcə keçmiş illər gözümün önündə canlanır.

Özünü Arif Məmmədov kimi təqdim edən satıcının satdığı samovar olduqca əla vəziyyətdədir. Alıcı təsiri bağışlamasam da, Arifi söhbətə çəkirəm.

Arif bazara nadir hallarda belə antik məhsul çıxarıldığını söyləyərək samovarın son qiymətini bildirir: 280 manat!

- Niyə bu qədər baha satırsan?

Arif yarıciddi, yarızarafatla deyir:

- "Bit" bazarı deyib ötməyin. Yaxşı malın yaxşı da qiyməti olur. İndi qış ayıdır, yaya doğru daha baha qiymətə təklif edəcəyik. Çünki tələbat var. Hər bazar ən azı 3-4 samovar satıram. Bu da mənim dolanışığıma kömək edir. Həm Bakı kəndlərindən, həm də rayonlardan işlənmişini alır, saz vəziyyətə gətirirəm. Özüm gəzib–dolanaraq antikvar məhsulları əldə edirəm. Çünki bazarda kimdənsə hər hansı bir məhsulu alsam, o, oğurluq da ola bilər. Bir neçə il öncə qarşılaşdığım bir hadisəni heç cür unuda bilmirəm. Orta yaşlı biri yaxınlaşaraq ehtiyac üzündən samovar satdığını bildirdi. Zənn etdim ki, bu bir həqiqət olar. Ancaq... Üstündən bir neçə saat keçməmiş bir yoldaş israrla samovarın ona məxsus olduğunu və bağ evindən oğurlandığını bildirdi. Hərdən oğurlanan avadanlıqları burada axtarırlar.

Daha sonra yolumu quşların civiltisi eşidilən istiqamətə salıram. Quşların bir-birinə səsli harayı ilə bir anlıq özümü təbiət qoynunda hiss edirəm. Burada hər növ quş və ev heyvanların satışı təşkil olunub: hind toyuqları, tutuquşular, bülbüllər, toyuqlar, ördəklər, qazlar, dovşanlar və göyərçinlər. Satılan ev quşlarının qiymətləri də özləri kimi bir-birindən fərqlidir. Təki alanın əli cibində olsun. Qəfəsdə cəh-cəh vuran bülbüllər, rəngbərəng tutuquşular isə 35-45 manata təklif olunur. Göyərçinlərin qiyməti heç də ucuz deyil. 12 manatdan başlayan qiymətlər 80 manata qədər yüksəlir. Gəzdiyim üç saat ərzində sanki bazarın ən xoş, ən canlı yeri bura idi.

Saatın əqrəbi günortaya doğru hərəkət etdikcə, satıcılar asta-asta bazarı tərk etmək üçün yır–yığış edirlər. Kimisi əldə etdiyi qazancını hesablayır, kimisi də satılmayan əşyaları yenidən torbalara yığaraq növbəti həftəyə hazırlayırdı.

*Müşfiq MİRZƏ*
*XQ*


# "MƏRKƏZİ KLİNİKA" MMC

*2026-cı il üçün klinikanın əmlakının və 3-cü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası üzrə*

## AÇIQ TENDER ELAN EDİR

**Tender 5 Lot üzrə keçiriləcəkdir:**

Lot-1. "Mərkəzi Klinika" MMC-nin binaları üzrə (icbari sığorta).

Lot-2. "Mərkəzi Klinika" MMC-nin manual- tibbi avadanlıqları üzrə.

Lot-3. "Mərkəzi Klinika" MMC-nin elektron cihazları üzrə.

Lot-4. "Mərkəzi Klinika" MMC-nin nəqliyyat vasitələrinin kompleks sığortası üzrə.

Lot-5. "Mərkəzi Klinika" MMC-nin 3-cü şəxslər qarşısındakı mülki məsuliyyəti üzrə.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır. Tenderdə iştirak etmək istəyən iddiaçılar lotlar üzrə aşağıda göstərilən ümumi iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Parlament prospekti 76 nömrəli ünvandan – "Mərkəzi Klinika" MMC-nin Hüquq şöbəsinə müraciət etməklə əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Xəlilov Firudin Ələsgər oğlu.

Telefon:* (+994012) 492-10-92 (daxili: 12 11), (99450) 7724303.

İştirak haqqı ümumilikdə 200 manat təşkil edir.

**Təşkilat - "Mərkəzi Klinika" MMC**
**VÖEN - 1700951031**
**"Kapital Bank" ASC-nin Səbail filialı**
**VÖEN - 9900003611**
**Kod - 200059**
**M/h-AZ37NABZ01350100000000001944**
**SWIFT - AIIBAZ2X**
**H/h-AZ08AIIB38060029440800727105**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

a) tenderdə iştirak etmək üçün yazılı müraciət.

b) hüquqi statusu təsdiq edən sənədlər-nizamnamə.

c) şəhadətnamə və lisenziyanın surəti.

d) tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.

ç) tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

e) təklifin 1 faizi məbləğində bank tərəfindən verilmiş təklif təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

f) iddiaçının son bir illik maliyyə vəziyyəti barədə məlumat.

j) iddiaçının vergi borcunun olub-olmaması barədə məlumat.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 mart 2026-cı il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 1 aprel 2026-cı il saat 17:00-a qədər Bakı şəhəri, Parlament prospekti 76 nömrəli ünvanda yerləşən "Mərkəzi Klinika" MMC-nin Hüquq şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Təklif zərfləri 14 aprel 2026-cı il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

a) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluq.

b) Səmərəlilik.

c) Maliyyə və texniki imkanlar.

d) Xidmət keyfiyyəti.

*"Mərkəzi Klinika" MMC-nin tender komissiyası*


## HAVA

### Paytaxtda yağmursuz, bölgələrdə yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 4-7, gündüz 18-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın bölgələrində hava şəraitinin şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 7-11, gündüz 17-22, dağlarda gecə 4-8, gündüz 8-13 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Şirvan şəhərindən İlqar Abbasov gənclər və idman nazirinin müavini İndira Hacıyevaya anası

**ALİYƏ ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2932
SİFARİŞ 241
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00